Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

6-cı cild

29 oktyabr 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# I SESSİYASI İCLASININ

# PROTOKOLU № 7

*Milli Məclisin iclas salonu.*
*29 oktyabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 111 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 106 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.
2. "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.
3. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi

(birinci oxunuş).

4. "Bələdiyyənin maliyyəsinin əsasları haqqında", "Büdcə sistemi haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

5. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

6. "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

11. "Kredit büroları haqqında" Azərbaycan Respubli-

kasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Badamov, Tural Gəncəliyev, Elşən Musayev, Nizami Səfərov, Zahid Oruc, Səməd Seyidov, Soltan Məmmədov, Siyavuş Novruzov, Razi Nurullayev, Sahib Alıyev, Kamal Cəfərov, Bəhruz Məhərrəmov

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.05 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**1. "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Səməd Seyidov, Musa Quliyev

**Təklif:** Qanun qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 11.45 dəq.)

| | |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**2. "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov, Fazil Mustafa, Musa Qasımlı, Siyavuş Novruzov, Qüdrət Həsənquliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**3. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Razi Nurullayev, Qüdrət Həsənquliyev, Bəhruz Məhər-

rəmov, Eldar Quliyev, Bəxtiyar Əliyev, Erkin Qədirli, Hikmət Məmmədov, Əli Əhmədov, Zahid Oruc, Rəşad Mahmudov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 8 |
| Bitərəf | 1 |
| Səs vermədi | 2 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**4. "Bələdiyyənin maliyyəsinin əsasları haqqında", "Büdcə sistemi haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov, Elşad Musayev, Azər Əmiraslanov, Siyavuş Novruzov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr**

**tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında” Əsasnamədə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**6. “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Rafael Hüseynov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**7. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Siyavuş Novruzov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs verMədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**8. “Məhkəmələr və hakimlər haqqında” və “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbay-**

**can Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Aydın Mirzəzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 13.25 dəq.)

| | |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**9. "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Eldar Quliyev, Aqil Abbasov, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 13.35 dəq.)

| | |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Aydın Hüseynov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 5–8-ci maddələr qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 13.39 dəq.)

| | |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**11. "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*29 oktyabr 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Salam, hörmətli həmkarlar. Hamınızı xoş gördük. Mən jurnalistləri də salamlayıram. Xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 106 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var. Biz iclasa başlaya bilərik.

Hörmətli deputatlar, sizinlə bir neçə fikrimi bölüşmək istəyərdim. Bildiyiniz kimi, oktyabrın 24-də Avropa Parlamentində Azərbaycanı hədəf alan növbəti siyasi aksiya təşkil olunmuşdur. Ölkəmizə qarşı böhtanlar, yalan və saxta məlumatlar üzərində qurulan qərəzli bir qətnamə qəbul edilmişdir. Xatırladım ki, Milli Məclis bu qətnaməyə dərhal öz münasibətini bildirmiş və mətbuatda bu

münasibət dərc edilmişdir.

Hörmətli deputatlar, bildirmək istəyirəm ki, Avropa Parlamentinin Azərbaycana qarşı düşmənçilik və qarayaxma kampaniyası aparan qüvvələrin əlində bir alətə çevrilməsi təəssüf doğurur. Biz ölkəmizə qarşı irəli sürülən əsassız ittihamları, cəfəng iddiaları, təhdid və tələbləri qətiyyətlə rədd edirik. Bu cür ədalətsiz və qeyri-obyektiv sənədlərin ortaya çıxması Cənubi Qafqaz regionunda tarixi ədalətin və beynəlxalq hüququn bərpası ilə barışa bilməyən qüvvələrin bəd niyyətlərini bir daha açıb göstərir. Hesab edirəm ki, Avropa Parlamenti bu qətnaməsi ilə nəinki bölgəmizdə tarixi və müasir reallıqlara qərəzli münasibətini nümayiş etdirir, həm də dövlətimizin suverenliyinə və ərazi bütövlüyünə meydan oxuyur.

Ermənistan Respublikası 30 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlamış, 1 milyon soydaşımızı qaçqın və məcburi köçkün həyatına məhkum etmiş, xalqımıza qarşı dəhşətli cinayətlər törətmiş, şəhər və kəndlərimizi, milli-mənəvi, tarixi və dini mirasımızı talan etmişdir. O dövrdə beynəlxalq ictimaiyyət nədənsə susmağa üstünlük verirdi.

44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında tarixi qələbələrdən sonra isə Avropa Parlamentində, digər təşkilatlarda və ölkələrdə Azərbaycanofob, türkofob və islamofob qüvvələr bütün beynəlxalq davranış normalarını və nəzakət qaydalarını bir kənara qoyaraq ölkəmizə qarşı sanki yürüşə çıxmışlar.

Narahatlıq doğuran bir məqam da budur ki, Avropa Parlamenti Bakıda keçiriləcək COP29 kimi mühüm beynəlxalq tədbirdən ölkəmizə qarşı siyasi təzyiq aləti kimi istifadə etməyə cəhd göstərir. İqlim dəyişmələri qlobal prob-

lemdir və birlik tələb edir, lakin bu məsələdən də Azərbaycan əleyhinə gündəliyin təbliği üçün istifadə olunur.

Hörmətli deputatlar, Milli Məclis olaraq biz həmişə qeyd edirik ki, Azərbaycan siyasi dialoq və əməkdaşlıq üçün açıqdır və regionda sülh yaradılmasına sadiqdir, lakin hər hansı qərəzi, əsassız iddianı və tələbi, aqressiv ritorikanı qətiyyətlə rədd edir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz müstəqil daxili və xarici siyasət yeridir və heç bir təzyiq və ya hədə-qorxu bizi öz yolumuzdan döndərə bilməz.

Hörmətli deputatlar, bildiyiniz kimi, bu günlərdə Gürcüstan və Özbəkistanda parlament seçkiləri keçirilmişdir. Milli Məclisin üzvləri də bu seçkiləri müşahidə etmişlər. Artıq hər iki seçkinin uğurla baş tutduğunu söyləmək olar. Biz Azərbaycana dost və qardaş ölkələrin əldə etdiyi nailiyyətlərə ürəkdən sevinirik və inanırıq ki, bu seçkilər Gürcüstan və Özbəkistanın hərtərəfli tərəqqisinə, eyni zamanda, Azərbaycanın bu ölkələrlə münasibətlərinin, sülh, sabitlik və davamlı inkişaf naminə əməkdaşlığının daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcəkdir.

Hörmətli həmkarlar, indi xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.05 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

Gündəlik qəbul edildi. Çox sağ olun.

Hörmətli həmkarlar, gündəmdə olan məsələlərlə bağlı kim çıxış etmək istəyirsə, yazıla bilər. 10 nəfər çıxış edə bilər. Azər müəllim, mən keçən dəfə Sizə söz vermişdim, birinci Siz çıxış edəcəksiniz. Buyurun.

**Azər Badamov.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli həmkarlar, Qusarda şəhid ailələrinin üzvləri və Qarabağ müharibəsinin əlilləri ilə keçirdiyimiz görüş zamanı xahiş olunan bir məsələni diqqətinizə çatdırmaq istəyirəm. Qusar rayonunun şəhid ailələrinin üzvləri və Qarabağ müharibəsinin əlilləri COP29 ərəfəsində dost olmayan ölkələrin bizə qarşı apardıqları siyasi təzyiq kampaniyalarının qəbuledilməz olduğunu, ölkə daxilində əlikərimlilərin "YouTube" və "TikTok" kanalları vasitəsi ilə dövlətə qarşı səsləndirdikləri böhtan xarakterli iyrənc açıqlamaları hiddətlə qarşıladıqlarını ifadə etdilər. Onlar hər zaman Prezident İlham Əliyevin yanında olduqlarını bildirmiş və bu sözlərini Milli Məclisin tribunasından dövlət başçısına çatdırmağımı xahiş etmişlər.

Hörmətli həmkarlar, COP29-un Azərbaycanda keçirilməsi anti-Azərbaycan dairələrini – ABŞ Konqresini, Fransa Senatını, Niderland Parlamentini və sairi çox narahat edir. İndi də Avropa Parlamenti sanki bir xristian təəssübkeşliyi ifadə edir və Azərbaycana qarşı baş-başa verib eyni absurd, qərəzli qarayaxmanı səsləndirir. Avropalı parlamentarilər öz gözlərindəki tiri görmür, başqasının gözündə tük axtarışındadırlar. Təbii ki, bu axtarış Fransanın və erməni lobbisinin sifarişi əsasında həyata keçirilir. Avropa Parlamentinin adı dəyişilib Fransa parlamenti qoyulsa,

yaxşı olar. Çünki Avropa Parlamenti sanki Makronun istəklərinin reallaşdırılması üçün fəaliyyət göstərir.

Bu gün Avropanın bir çox ölkələrində, xüsusilə Fransada insan haqlarının pozulması və beynəlxalq hüququn tapdalanması adi hala çevrilib. Bu, demokratik parlament olsaydı, Fransanın, Niderlandın müstəmləkəçilik siyasətlərinə qarşı bir qətnamə qəbul edilərdi. Azərbaycan COP29-a ev sahibliyi etməklə, iqlim dəyişikliklərinə qarşı mübarizədə həmrəylik yaratmaqla dünya ictimaiyyəti arasında körpülər salmağa çalışır. Hətta COP29 dövründə dünyada müharibələrin dayandırılması təşəbbüsü ilə çıxış edirik. Ermənistandan da dayanıqlı sülhün imzalanması üçün qonşulara qarşı olan ərazi iddialarından əl çəkməsini tələb edirik. Avropalı parlamentarilər bir daha bilsinlər ki, Azərbaycanda insan haqlarına, beynəlxalq hüquqa hörmətlə yanaşılır və onların qəbul etdikləri kağız parçaları ilə ölkəmizi özünün ədalətli mövqeyindən çəkindirə bilməzlər.

Sonda qardaş Türkiyəni Cümhuriyyətinin yaradılmasının 101-ci ildönümü münasibəti ilə təbrik edir, qardaş respublikaya daha da güclü olmasını və inkişaf arzulayıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Tural Gəncəliyev. Buyurun.

**Tural Gəncəliyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bir neçə gün bundan öncə Azərbaycan nümayəndə heyəti olaraq biz Gürcüstanda keçirilən parlament seçkilərini müşahidə etmək üçün orada səfərdə olduq. Müşahidələrimiz nəticəsində qeyd edə bilərik ki, seçkilər beynəlxalq standartlara, demokratik tələblərə tam uyğun keçirildi. Gürcü xalqı öz seçimini etdi və öz gələcək

yolunu əminliklə seçdi. Ancaq təəssüflə qeyd etmək lazımdır ki, istər seçkilərdən öncə, istərsə də seçki vaxtı və seçkilərdən sonra kənar qüvvələr, – mən xüsusilə izləyirəm, – Avropa Parlamentinin deputatları, Avropa institutlarının nümayəndələri Gürcüstandakı seçkilərə müdaxilə cəhdləri edirdilər. Məsələn, seçkilərdən öncə Avropadan bəzi siyasətçilər səsləndirirdilər ki, Gürcüstan Avropa inteqrasiyasını, Avropa dəyərləri xəttini tutmasa, Gürcüstana ayrılan qrantlar kəsilə bilər və Gürcüstana qarşı sanksiyalar tətbiq edilə bilər. Elə seçkidən sonra da, məsələn, dünən axşam Almaniya Xarici İşlər Nazirliyinin rəsmi veb səhifəsində Avropa İttifaqının Avropa məsələləri üzrə nazirlərinin bəyanatı yayıldı və onlar seçkiləri açıq-aşkar şübhə altında qoyur, xüsusilə də beynəlxalq müşahidəçilərə istinad edərək guya seçkilərdə çoxlu seçki pozuntusu olduğunu qeyd edirdilər. Həmin o "beynəlxalq müşahidəçilərin" isə kim olduğunu biz bilirik, özümüz şahidi olduq.

Bir neçə gün öncə Avropa Parlamentində Azərbaycana qarşı qərəzli, məkrli sənədə səs verən Frank Şvabe, Natali Luazo və komandası, Azərbaycanofoblar növbəti cəhdləri ilə Cənubi Qafqazda, Gürcüstanda bir xaos yaratmaq istəyirdilər ki, öz məkrli planlarını orada həyata keçirsinlər. Təbii ki, onların bu bəyanatları Gürcüstan xalqının iradəsinə qarşı bir addımdır, seçkilərə müdaxilədir. Gürcü xalqı, dediyimiz kimi, artıq öz seçimini etmişdir.

Ümumiyyətlə, həmin bu Avropa dəyərləri, Avropa inteqrasiyası adı altında Cənubi Qafqaza müdaxilə yolverilməzdir. Biz dəfələrcə avropalı deputatlara suallar vermişik. Avropa dəyərləri deyəndə nəyi nəzərdə tutursunuz? Bütün dünyanın sadiq olduğu ümumbəşəri dəyərlər var ki,

biz o dəyərlərə uyğun həyatımızı yaşayırıq, siyasətimizi aparırıq. Lakin əgər Avropa dəyərləri yalnız Fransanın, bəzi qrup ölkələrin öz nəzər-nöqtəsinə uyğun həyata keçirdikləri siyasətdirsə, biz bunu qəbul etmirik. Əgər Avropa dəyərləri Fransanın, tutaq ki, Afrikada, Yaxın Şərqdə və digər müstəmləkə ərazilərində olan xalqların sərvətlərini soyub talan etməsidirsə, əlbəttə, biz bunu başa düşmürük. Yaxud da Cənubi Qafqazda müharibəni alovlandırmaqdırsa, bunu qəbul etmirik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tural müəllim. Elşən Musayev. Buyurun.

**Elşən Musayev.** Təşəkkür edirəm, xanım sədr. Hər kəsi salamlayıram. Mən də bu gün ilk öncə təpədən dırnağa qədər riyakarlıq nümunəsi, təzad, yalan, iftira və bizə qarşı təxribat olan Avropa Parlamentinin qətnaməsi haqqında danışmaq istəyirəm. Əslində, bu addımın səbəbi də məlumdur: qarşıdan COP29 gəlir. Kimin Azərbaycanla nə haqq-hesabı varsa, məhz bu mərhələdə çözməyə çalışır. İllər öncə də belə olub. Yəqin çoxları Bakıda durdurulan o narıncı inqilabları xatırlayır. Daha sonra yenə də inqilablar fonunda ərəb baharı, ondan sonra İraq, digər dövlətlər... Ukraynanı bizim gözümüzün qarşısında bərbad günə, bədbəxt günə qoydular. Bir neçə gün bundan öncə Gürcüstanda da eyni situasiyanı yaratmaq istədilər. Amma gürcü xalqı buna imkan vermədi. Gürcü xalqı agentləri deyil, milliləri seçdi və ən nəhayət, özünü qorumağı bacardı.

Biz orada hörmətli həmkarlarımla həmin seçkiləri canlı müşahidə etdik. İnsanlarla, ələlxüsus da siyasətçilərlə görüşdük. Onların hamısının dilində belə bir söz var idi ki, hansı daşı qaldırsan altından ya Qərb, ya da Avropa çıxır.

Bunlar bir metastaz kimi artıq hər yerə çöküblər. Amma yenə də bacarmırlar. Təsəvvür edin, ekspert, “exit-poll”, QHT, qapını açan, bağlayan, pul verən, pulu alan – hamısı Qərbin adamlarıdır. Bir daha təkrar etmək istəyirəm, bacarmadılar. Gürcülər buna imkan vermədilər, çünki xalqlar və dövlətlər artıq dolğun siyasi şüuru əxz ediblər. Çünki artıq hamı fərqindədir ki, bunlar xoşməramlı deyillər, boşməramlıdır, hətta bundan da ötə – naqisdirlər, namərddirlər.

Artıq hamı bilir ki, bu gün Qərbə və Avropaya inteqrasiya heç də rentabelli yol deyil. Bu gün hamı anlayır ki, onlar heç kimin arxasında dayanmırlar, hərçənd dayandıqlarını deyirlər. Çünki ortada Ukrayna nümunəsi var. Dayansalar da, dağ kimi dayanmırlar, dərə kimi dayanırlar və o dərəyə düşənlər, yuvarlananlar heç vaxt oradan sağ-salamat çıxa bilmirlər. Müstəqillikdən, suverenlikdən, millilikdən o yana heç nə yoxdur. Bunlardan gözəl heç nə yoxdur. Bundan sonrakı mərhələdə əgər hər kəs Azərbaycan və Gürcüstan kimi davransa, o zaman bu gün şahmat taxtasında at gedişi ilə at oynatmaq istəyənlər piyadadan da rəzil, gücsüz və qüvvəsiz duruma düşəcəklər. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Nizami Səfərov. Buyurun.

**Nizami Səfərov**. Hörmətli xanım sədr, hörmətli deputatlar, Avropa Parlamenti cari il oktyabrın 24-də 22 bənddən ibarət “Azərbaycanda vəziyyət: İnsan haqlarının pozulması və Ermənistanla münasibətlər haqqında” Qətnamə qəbul edib. Sənədin mətni ilə tanışlıqdan sonra belə bir təsəvvür yaranır ki, qətnamə hər bir deputatının illik saxlanma xərci vergi ödəyicilərinə 2 milyon avrodan çox başa gələn və 446 milyon avropalını təmsil edən qa-

nunvericilik qurumu tərəfindən deyil, Ermənistan parlamentində qəbul edilib. Birmənalı olaraq qeyd etmək lazımdır ki, bu cür cılız cəhdlərin arxasında BMT-nin İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının – COP29-un Azərbaycanda keçirilməsinə mane olmaq cəhdləri durur.

Cəfəng ittihamlar və absurd iddialarla zəngin, heç bir hüquqi və siyasi əsası olmayan bu sənədin sadəcə bəzi məqamlarına diqqət yetirmək istərdim. Qətnamənin preambulasının "r" bəndində Qarabağın erməni əhalisinin öz arzusu ilə təhlükəsiz və güvənli şəraitdə regionu tərk etməsi "etnik təmizləməyə bərabər hərəkətlər" kimi qələmə verilir. Birmənalı olaraq qeyd edilməlidir ki, bu cür iddialar siyasi cəhətdən məsuliyyətsizlik, hüquqi baxımdan isə adi savadsızlıqdır.

Ümumiyyətlə, "etnik təmizləmə" termini beynəlxalq hüquq leksikonuna 1992-ci ildə keçmiş Yuqoslaviya ərazisində əhalinin etnik cəhətdən eyniliyinin təmin edilməsi ilə və soyqırımlarla bağlı daxil olmuşdur. 1992-ci il 13 avqust tarixli qətnamədə əksini tapan bu termin sonradan Ekspert komissiyasının baş katibinin 1993-cü il tarixli aralıq məruzəsində qəsdən adamöldürmə, qanunsuz həbslər, azadlıqdan məhrumetmə, cinsi zorakılıq, işgəncələr, əhalinin beynəlxalq hüquqazidd transferləri, əmlaklarının məhv edilməsi kimi tövsif edilmişdir. Bu mənada gerçək etnik təmizləmələrin qurbanları Ermənistanda yaşamış və qeyri-insani, qəddar üsullarla deportasiya edilən, Qarabağ bölgəsində soyqırıma məruz qalan, insanlıq əleyhinə cinayətlərin, müharibə cinayətlərinin törədilməsi vasitəsi ilə qovulan milliyyətcə azərbaycanlılardır. Ölkəmizə qarşı tamamilə əsassız iddialar irəli sürən heç bir

dövlət və ya beynəlxalq təşkilat məkrli niyyətinə nail ola bilməyəcək. Müasir şəraitdə Azərbaycan beynəlxalq müstəvidə ən ciddi söz sahibidir. Dövlətimiz ölkə başçısının rəhbərliyi altında müstəqil xarici və daxili siyasət aparır və heç bir hibrid təhdid, yaxud xarici müdaxilə cəhdi Azərbaycanı bu yoldan döndərə bilməz. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Zahid müəllim, suala yazılmısınız? Buyurun.

**Zahid Oruc**. Təşəkkür edirəm, hörmətli sədr. Əslində, burada bizim həmkarlarımızın əksəri Avropa Parlamentində az qala bir gün çəkən 38 nəfərə yaxın şəxsin çıxışları ətrafında öz mövqelərini haqlı olaraq göstərirlər. Mən təklif edirəm, bəlkə əlavə yarım saat da olsa, cari məsələlərin müzakirəsini artıraq ki, bir çox millət vəkilləri sözlərini deyə bilsinlər. Sağ olun.

**Sədrlik edən.** Zahid müəllim, biz Nizamnaməyə uyğun olaraq, bu çıxışları 30 dəqiqə edirik. Bizim münasibətimiz dərc edilib, ifadə olunub. Mən bu gün burada çıxış edəndə öz şəxsi fikirlərimi deyil, həm sədarətin, həm də siz – hörmətli həmkarlarımızın fikirlərini səsləndirdim və mətbuatda da bunlar çıxıb. Biz bunu bir dəfə etsək, gərək həmişə edək. Bu gün gündəliyimiz çox gərgin deyil, amma növbəti zamanlarda olacaq. Mən düşünürəm ki, bütün fikirlərimiz səslənib. Ancaq mən Sizə bir şey təklif edirəm. Bəlkə jurnalistlərə böyük bir müsahibə verəsiniz?

Fərid müəllim, lazımdırsa, bir neçə nəfər, kim istəyirsə, buyursun və müsahibəni də orada versin. Zahid müəllim, mən xahiş edirəm, Siz onda gedin, elə müsahibəni də orada verin. Çox sağ olun. Səməd Seyidov. Buyurun.

**Səməd Seyidov.** Çox sağ olun, hörmətli xanım sədr.

Tamamilə haqlısınız, Sizin çıxışınız parlamentimizin bu absurd iddialara, yalan faktlara reaksiyası, Azərbaycan mövqeyini vaxtında, tutarlı, konkret əks etdirən bir cavab idi. Ona görə hesab edirəm ki, parlamentin mövqeyi həmin o cavabda öz əksini ən yüksək səviyyədə tapmışdır. Hörmətli həmkarlar, biz belə cəhdləri çox görmüşük. Biz bunların iç üzünü də yaxşı tanıyırıq. Bu cür qətnamələri qəbul edirdilər, ardından gəlib üzr istəyirdilər. Sonra təzədən eyni qətnamələri qəbul edirdilər. Bunların məqsədini həmkarlarımız çox gözəl qeyd etdilər: biz haqlıyıq, hamı nahaqdır, bizim sözümüz düzdür, hamının sözü əyridir. Bəlkə də bu siyasət davam edərdi, bu ədalətsizlik dünyada baş alıb gedərdi, ancaq Azərbaycan, Azərbaycan əsgəri, Azərbaycan Respublikasının Prezidenti elə bir reallıq yaratdılar, elə bir cavab verdilər ki, artıq bunların iç üzü və əsl niyyəti üzə çıxdı.

Hörmətli həmkarlar, ən vacib məqamlardan biri odur ki, biz artıq yalnız deyilik. Bu gün burada səsləndirildi. Bu qətnamə ilə bağlı 120 nəfər Avropa deputatı çıxış etdi. Əslində, bu qətnamə onu maliyyələşdirən, korrupsiyada batmış bir qrup insanın icad etdiyi məsələdir. Ona görə bu gün Macarıstan ayağa qalxır. Bu gün İtaliyanın xarici işlər nazirinin müavini bəyanat verir. Bu gün Avropa Birliyinə daxil olmayan Türkiyə, Serbiya, başqa ölkələr öz sözlərini deyirlər. Şillə kimi cavabı isə Gürcüstan verdi ki, siz başqa bir mövqeyi də nəzərə almalısınız.

Hesab edirəm ki, bizim bundan sonra işimiz birləşmək, siyasətimizi davam etdirmək və cənab Prezidentin siyasətinə ən yüksək səviyyədə dəstək verməkdir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Soltan Məmmədov. Buyurun.

**Soltan Məmmədov.** Hörmətli Sahibə xanım, hörmətli həmkarlar və media nümayəndələri. COP29 kimi mötəbər bir tədbirə hazırlıq ərəfəsində ölkəmizə qarşı müxtəlif siyasi dairələrdən edilən hücumlar bizi qarşımızda duran hədəflərdən yayındırmaq məqsədi daşıyır. Avropa Parlamentinin oktyabrın 24-də qəbul etdiyi qərəzli və obyektivlikdən tamamilə uzaq qətnamə də məhz bu hücumların tərkib hissəsidir.

Regionda baş verən proseslər, Azərbaycanın irəli sürdüyü təşəbbüslərin məzmunu göstərir ki, bu gün Cənubi Qafqazda sülhün təmin olunması üçün bizim ölkəmiz kifayət qədər ciddi səy göstərir. Təsadüfi deyil ki, COP29-un gündəliyinə daxil edilmiş 14 böyük təşəbbüsdən biri də məhz sülhü, dialoqu və barışığı daha geniş şəkildə təbliğ etmək və iqlimlə bağlı fəaliyyət üçün bütün siyasi diqqəti və diplomatik səyləri səfərbər etmək məqsədi daşıyır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də vurğuladığı kimi, biz COP29-u sülh prosesinin nəticəsi kimi qiymətləndiririk. Ona görə də tədbirin gündəliyinə sülh mövzusunun daxil edilməsi təsadüfi deyil.

Azərbaycan dövləti COP29 konfransını ən yüksək səviyyədə təşkil etmək üçün bütün imkanlarını səfərbər edib. Tədbirin məhz Azərbaycanda təşkil olunması ilə bağlı müzakirələrdə biz 198 ölkənin yekdil dəstəyini aldıq. Bu bizim ölkəmizə, cənab Prezidentin siyasətinə dünyada olan yüksək etimadın göstəricisidir. Bütün maneələrə, əsassız hücumlara və mənasız ittihamlara baxmayaraq, biz bu mötəbər iclası uğurla təşkil edəcəyimizə əminik.

COP29-a hazırlıq prosesi ilə əlaqədar Azərbaycan bir çox ölkələrlə, beynəlxalq təşkilatlarla və xarici tərəfdaşlarla sıx əməkdaşlıq edir. Bildiyiniz kimi, konfrans çər-

çivəsində Parlamentlərarası İttifaq tərəfindən xüsusi iclas da təşkil olunacaq. Azərbaycan Milli Məclisi parlament görüşünün yüksək səviyyədə təşkili ilə bağlı üzərinə düşən bütün məsələləri operativ şəkildə həll edir.

Azərbaycan COP29-a ev sahibliyi etməklə iqlim dəyişmələrinə qarşı mübarizə kimi mühüm qlobal məsələdə nümunəvi liderlik nümayiş etdirir. COP29 konfransının regionda ilk dəfə Azərbaycanda təşkil olunması buna ən parlaq sübut kimi qiymətləndirilə bilər. Bizim başlıca amalımız bütün dövlətlərin yaşıl, ədalətli, inklüziv və dayanıqlı dünya naminə həmrəyliyinə nail olmaqdır. Azərbaycan ev sahibliyi edəcəyi bu tədbirdə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq əzmindədir.

Qlobal əhəmiyyətli mövzularda beynəlxalq birliyin məsuliyyətli üzvü kimi daim ümumi işə töhfə verməyə çalışan ölkəmizə qarşı haqsız ittihamlar bizi yolumuzdan döndərə bilməz. Azərbaycan bütün tərəfdaşları ilə münasibətləri kifayət qədər açıq və şəffaf şəkildə qurur. Biz inanırıq ki, Bakıda keçiriləcək konfrans iqlim dəyişiklikləri ilə mübarizə tarixində yeni bir səhifə olacaqdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, mən də həmkarlarım kimi Avropa Parlamentinin məkrli, qərəzli qətnaməsinə öz etirazımı bildirirəm. Parlamentin bu qərara qarşı verdiyi tutarlı bəyanatı təqdirəlayiq hesab edirəm. Xanım sədr, Siz də öz çıxışınızda bu məsələyə geniş şəkildə toxundunuz. Əgər xatırlayırsınızsa, cənab Prezident parlamentdə çıxışı

zamanı qeyd etmişdi ki, hələ bizə qarşı çox məkrli təxribatlar olacaqdır və hər birimiz buna hazır olmalıyıq. Doğrudan da, hər birimiz bu məsələlərə hazır olmalıyıq. Bunun qarşısını almaq üçün var qüvvəmizi sərf etməliyik.

Mən başqa bir məsələyə toxunmaq istəyirəm. Azərbaycan dilində “Vikipediya”dan 3000 şəhidimizin adı çıxarılıb. Deməli, 5 nəfər – adı, soyadı azərbaycanlı olan, lakin qanı və DNT-si erməniyə məxsus insanlar Azərbaycan şəhidlərinin adlarını oradan siliblər. Hətta bununla sakitləşməyib, guya ensiklopedik məlumat deyil deyə, türk dilində olan “Vikipediya”ya da müraciətlər edirlər ki, oradan da çıxarsınlar. Daha da irəli gedərək Xocalı qurbanlarının da adının buradan çıxarılmasını tələb edirlər.

Burada söhbət bunların birbaşa öz millətlərinə, yəni mənsub olduğu millətlərə xidmətindən gedir. Aydındır ki, biz bununla əlaqədar ciddi şəkildə mübarizə aparmalıyıq.

Şəhid adının əbədiləşdirilməsi ilə əlaqədar bizim qanunda göstərilir ki, şəhid Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan insandır. Bundan yüksək ad ola bilər? Yoxsa bundan vacib ensiklopedik məlumat ola bilər? Hansı məlumat ondan üstün ola bilər? Heç bir məlumat.

Biz “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanun qəbul etmişik. Bu sahədən məsul orqanlar bu məsələ ilə ciddi şəkildə məşğul olsunlar. Çünki sabah onlar bu məlumatların ensiklopedik olmadığını bəhanə gətirərək dövlətimizə aid başqa məsələləri də silməyə cəhd göstərə bilərlər. Mən hesab edirəm ki, bu məsələ aidiyyəti orqanlar qarşısında qaldırılmalıdır. Milli Elmlər Akademiyası və bu sahəyə baxan digər təşkilatlar buna...

**Sədrlik edən.** Çox sağ olun. Sizinlə tamamilə razıyıq. Ancaq onu da qeyd etmək lazımdır ki, "Vikipediya" rəsmi, akademik ensiklopediya deyil. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Avropa Parlamentinin Azərbaycana qarşı qəbul etdiyi qətnaməni mən də pisləyirəm. Rəhbərlik etdiyim Milli Cəbhə Partiyası qətnaməni pisləyən bəyanat qəbul edərək yayımlayıb.

Hörmətli xanım sədr, Bakıya yağan yağışlar nəticəsində hər il yüzlərcə insan ziyan çəkir. Aidiyyəti dövlət qurumları hər il bunu normadan artıq yağan yağıntılarla əlaqələndirir. Amma sual olunur ki, normadan artıq yağan yağıntı küçələrdə 3-5 saat qalsın, amma günlərlə qala bilməz ki. Demək, bu, tam olaraq normadan artıq yağan yağıntı ilə əlaqədar deyil.

"ARB TV"-də bir reportaja baxdım. 4-5 gündür ki, evlər suyun altında qalıb, heç onlarla maraqlanan da olmayıb. Yenə də dövlət nümayəndələri sağ olsunlar, küçələrdə idilər və fəlakətin qarşısını almaq üçün əllərindən gələni edirdilər. Amma dünən yağan yağıntı da sübut etdi ki, Allah etməsin, 4-5 saat dayanmadan belə yağışlar yağsa, vəziyyət daha da çətin ola bilər. Hərçənd ki, 2016-cı ildə yağış suları ilə mübarizə üçün dövlət səviyyəsində işçi qrup yaradılmışdı. Həmin işçi qrup və ya onların varisi gördüyü işləri açıqlasa, biz də rahat olardıq. 2003-cü ildən bu günə qədər bu işlər üçün təxminən 3,5-4 milyard manata yaxın vəsait ayrılıb. O vəsaitlərin necə xərcləndiyini araşdırmaq yaxşı olardı.

Bütün bu fəlakətlər hansı vacib addımların atılmasını zəruri edir? Birinci növbədə sığorta sisteminin, lazım

gələrsə, lap sərt şəkildə tətbiq edilməsini. Vətəndaş evini, əşyasını itirir və gözləyir ki, dövlət ona ev, mebel verəcəkmi, evini təmir edəcəkmi. Dünyanın heç bir yerində bunu hökumət etmir, sığorta şirkətləri edir. Evi yanan, evi uçan, yağışlara qərq olan, bütün ev əşyalarını itirən vətəndaşlar sosial şəbəkələrdə göz yaşı tökürlər. Çünki çarəsizdirlər, amma heç kim 50-100 manat ödəyərək evini sığorta etdirmək istəmir. Biz dövlətin üzərinə düşən yükü azaltmaq və vətəndaş məmnuniyyətini təmin etmək məqsədi ilə, güclə olsa belə, ölkə boyu sığorta sisteminin tətbiqinə nail olmalıyıq.

İkinci məsələ. Xanım sədr, mən, həmçinin üzərimdə məsuliyyət qalmasın deyə, bu məsələni deyirəm. Mən seçkidə iştirak etdiyim zaman da bunu İmişli şəhərindən yayımlamışdım. İmişlidə 2-3, 4-5 mərtəbəli binalar var ki, onların altı su ilə dolur. O binalarda yaşayan insanlar, belə deyək, basdırılmış mil üzərində yaşayırlar. O evlər uça bilər. Orada 150-200 nəfər sakin yaşayır. Allah etməsin, o binalar çöksə, uçsa, oradan bir nəfərin belə sağ çıxması mümkün deyil. Mən keçən çağırışda da bu məsələni qaldırmışdım. Növbəti dəfə həmin binalara baxanda gördüm ki, vəziyyət o qədər qəlizləşib, çətinləşib, artıq fəlakət həddinə çatıb. Mən aidiyyəti dövlət qurumlarından, hökumətdən xahiş edirəm ki, təcili surətdə həmin binalara baxış keçirsinlər və fəlakətin qarşısını alsınlar. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun. Razi müəllim, bu məsələ ilə bağlı müraciətləriniz olub?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fərid müəllim, onların hamısına baxmaq lazımdır.

Sonra Fərid müəllimin yanına yaxınlaşarsınız.

Sahib Alıyev. Sahib müəllim, buyurun.

**Sahib Alıyev.** Hörmətli xanım sədr, dəyərli həmkarlar. Mən Milli Məclisin qonşu Gürcüstanda keçirilən parlament seçkisini izləyən heyətinin üzvü olaraq səsvermənin gedişi və ardınca baş verənlər haqda bir neçə kəlmə fikir bildirmək istəyirəm. Birincisi, deyim ki, ilk dəfədir, tam proporsional sistem üzrə keçirilən bu seçki yaxşı təşkil olunmuşdu, yüksək seçici fəallığı vardı. Biz məntəqələrdə olduğumuz müddətdə kobud qanun pozuntusu ilə rastlaşmadıq və oradakı QHT-lərin, eləcə də ayrı-ayrı partiyaların təmsilçilərindən belə halların olub-olmadığını soruşduqda hər hansı şikayət eşitmədik. Hiss olunurdu ki, Gürcü Arzusu Partiyası bu seçkilərdə qələbə çalmaq üçün gərəkən nə lazımdırsa, etmişdi. Müxalifət isə "12 stul" filmindəki Ostap Bender sayağı "xaric bizə kömək edəcək, Qərb bizimlədir" məntiqi ilə davranaraq seçkiyə lidersiz, dağınıq və hazırlıqsız qatılmışdı. Ona görə də Natali Luazo kimi yaxşı tanıdığımız irqçi ünsürlərin seçki başa çatar-çatmaz onun nəticəsinin saxtalaşdırıldığı haqda açıqlamalarının nəyə dayandığını anlamaq olmur.

Ümumiyyətlə, seçkinin saxtalaşdırıldığını deyənlərin əlində onlarla əlbir olan sorğu mərkəzlərinin açıqladığı statistikadan başqa nə isə varmı? ABŞ Dövlət Departamentinin sözçüsünün açıqlamasından belə çıxır ki, gürcü xalqının 80 faizi Avro-Atlantik dəyərləri bölüşdüyündən seçkidə Gürcü Arzusu Partiyası qələbə çala bilməzdi. Bu nə məntiqdir? Baş nazir Kobaxidzenin seçki sonrası açıqlaması da onun ölkəsinin Qərbə inteqrasiya siyasətini davam etdirəcəyini göstərmir?

Regionda bölücü xətlər çəkmək istəyənləri Gürcü

Arzusu Partiyasından narazı salan onların milli dəyərlərə üstünlük verməsi, Azərbaycan kimi müstəqil siyasət yeritməyə və öz ölkələrinin beynəlxalq subyektliliyini artırmağa çalışmasıdır, vəssalam. Dövlət departamentində başqa ölkənin daxili işlərinə kobud müdaxilə kimi qiymətləndiriləcək açıqlamalar səsləndirməkdənsə, Ermənistanın baş qərargah rəisi Edvard Asryanın dediklərinə aydınlıq gətirsələr, məncə, daha doğru olardı. Baxın, həmin Asryan bu həftə iki çox maraqlı etirafda bulundu. Birincisi, dedi ki, hazırda Azərbaycandan hər hansı hərbi təhlükə gözlənilmir. İkincisi, o, ölkəsinin ABŞ ilə müdafiənin bütün istiqamətləri üzrə, o sıradan da hərbi və hərbi texniki sahədə geniş əməkdaşlığından bəhs etdi. Maraqlıdır, deyilmi? Onda nəyə görə Ermənistan gələn il üçün hərbi büdcəsini 20 faiz artıraraq ÜDM-nin 6 faizi həddinə çatdırmağı planlaşdırır? Nəyə görə həmin ABŞ ilə Fransa ona bunun üçün nə dəstək lazımdırsa, göstərirlər?

Xanım sədr, Avropa Parlamentinə gəldikdə, bu qurum 1988-ci ildə də Qarabağın Ermənistana birləşdirilməsi haqda qətnamə qəbul etmişdi. Belə görünür ki, oradakılar 1878-ci ildə Berlin konqresində hay məsələsi qaldırılanda hansı məntiqdən çıxış edirdilərsə, yenə də eyni niyyəti güdürlər. Sadəcə unudurlar ki, indi XXI əsrdir və Azərbaycan bütün ssenarilərə hazırdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Kamal Cəfərov. Buyurun

**Kamal Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Bugünkü mürəkkəb və tərəf tutmağa məcbur edilən geosiyasi mühitdə biz müstəqil xarici siyasət aparırıq, regionda sabitlik, inkişaf və region dövlətləri üçün ümid mərkəzinə çevrilirik. COP29 kimi mötəbər tədbirə ev sahibliyi

etməyimiz də Azərbaycanın beynəlxalq arenada qazandığı hörmətin və güclü mövqeyinin parlaq nümunəsidir.

Son zamanlar Azərbaycana qarşı artan ittihamların formal səbəbi COP29-dur. Onlar güman edirlər ki, dünyanın diqqətinin Azərbaycanda olduğu zaman – COP29 tədbiri ərzində bu təzyiqlər daha təsirli ola bilər. Ancaq əsl səbəb Azərbaycanın yaratdığı yeni geosiyasi reallıqdır.

Biz regionda münaqişə istəməyən bir xalq olaraq sülh və sabitlik yolunu seçdik. Münaqişə meydanı olmaqdan imtina etdik. Əlbəttə, bu, bəzi dövlətlərin maraqlarına toxundu. ABŞ Konqresində, Fransa Senatında, Avropa Parlamentində və AŞPA-da aparılan müzakirələr, ölkə daxilindəki radikal ünsürlərin aktivliyi, beynəlxalq təşkilatların yalan hesabatlarının və dezinformasiyalarının məzmunu eynidir. Bizim xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı yaratdığımız komissiyanın təşkil etdiyi ictimai müzakirələr də göstərdi ki, bütün bu fəaliyyətlər əlaqələndirilmiş şəkildə aparılır.

Bütün bunlara baxmayaraq, cənab Prezident İlham Əliyev Milli Məclisin ilk iclasında, daha sonra Cəbrayılda qeyd etdiyi kimi: “Biz təzyiqlərə cavab verməyə həmişə hazırıq. Biz heç bir zaman təzyiqlərə boyun əyməmişik. Biz siyasətimizi və suverenliyimizi, müstəqilliyimizi həmişə qorumuşuq və bu gün də qoruyuruq”.

Xarici qüvvələri narahat edən digər əsas məqam isə müstəqil enerji siyasətimiz, bərpa olunan enerji sahəsindəki uğurlarımız və Asiya ilə Avropanı birləşdirən strateji nəqliyyat dəhlizlərimizdir. Bu siyasət bizi regionda əvəzolunmaz tərəfdaşa çevirir. Bizim dövlət olaraq həyata keçirdiyimiz siyasətin arxasında heç vaxt siyasi ambisiyalar, başqa ölkələrin daxili işlərinə qarışmaq olma-

yıb. Biz fəaliyyətimizi həmişə qarşılıqlı maraqlar əsasında, qarşılıqlı hörmət əsasında şəffaf formada qurmuşuq. Bu cür yanaşma isə hər bir xalqın fundamental haqqıdır, beynəlxalq hüququn prinsiplərinə hörmətdir.

COP29 tədbiri isə təkcə Azərbaycan üçün deyil, region və dünya üçün əhəmiyyətlidir. İqlim dəyişikliyi milyonlarca insanın həyatına təsir edəcək. Dünya Bankının proqnozuna əsasən 2050-ci ilə qədər 143 milyon insan iqlim miqrantı olacaq. Bu gün Azərbaycan o qədər qüdrətli və şərəfli dövlətdir ki, bizə qarşı bu qədər hibrid hücumlara baxmayaraq, strateji baxışımızı dəyişmədən, iqlim dəyişikliyi kimi qlobal problemlə mübarizə aparırıq. Biz COP29 tədbiri vasitəsi ilə, ekoloji problemlərin həlli ilə həm də regionun gələcək inkişafına mühüm töhfə verəcəyik. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Çox təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Avropa Parlamentinin son günlər tutduğu mövqe, əslində, Azərbaycana qarşı başlanan hibrid savaşda Qərb imperializminin özünün məğlubiyyətidir və qurumun həmişəki radikal ritorikasını saxlamasına baxmayaraq, qətnamədə müşahidə olunan çaşqınlıq bu qənaətə gəlmək üçün aydın mənzərə formalaşdırır. Məsələn, əvvəllər COP29-un Azərbaycanda keçirilməməsi üçün çağırışlar platformasına çevrilən Avropa Parlamentinin son qətnaməsində çarəsizcəsinə çağırış olunur ki, tədbir çərçivəsində Azərbaycana insan hüquqları üzrə öhdəlikləri xatırladılsın. Deməli, Avropa Parlamentində artıq başa düşürlər ki, 200-ə yaxın dövlətin Azərbaycana ehtiramı və etimadı qarşısında COP29-un Bakıda təşkilinə mane olmaq üçün onların nifrət dili reallığı dəyişmək

gücünə malik deyil. Yəni Avropa Parlamenti Azərbaycanın hərbi-siyasi zəfərləri ilə regionda yaranan yeni reallıqların fövqündə özü deyib, özü eşidən bir heçə çevrilib. Gürcüstanda parlament seçkilərinin nəticələri də göstərdi ki, cənab İlham Əliyevin hərbi-siyasi qələbələrindən sonra Qərb imperializminin Azərbaycandan başlanan məğlubiyyət dairəsi genişlənməkdədir.

Əslində, Azərbaycan ümumbəşəri dəyərlər naminə bütün platformalara açıq olub, o cümlədən Avroparlamentlə gərgin münasibətlər bizdən qaynaqlanmayıb. Amma əgər bu təşkilatın tribunası səlib yürüşləri üçün rupor kimi istifadə olunursa, təbii ki, biz susa bilmərik.

Düzdür, Avropa Parlamentinin növbəti qətnaməsinin ardınca ölkədəki Qərbdən bəslənən antimilli ünsürlər ciddi cəhdlə belə bir fon yaratmağa çalışırlar ki, guya bu qətnamə Azərbaycan dövlətinə deyil, Azərbaycan hakimiyyətinə qarşı yönəlib. Amma aydın şəkildə görünür ki, hədəf müstəqil Azərbaycan dövlətçiliyi və xalqın suverenliyidir. Hakimiyyətin hədəf alınması isə Azərbaycanda hakim suveren, milli iradəni marionetlərlə əvəzləmək arzusudur.

İndi Avropa Parlamenti bizi ifadə azadlığının həyata keçirilməsinə görə guya kimlərdənsə qisas almaqda günahlandırır. Amma özləri məlum qətnamədə tələb edirlər ki, Avropa institutlarını və Avropanın vəzifəli şəxslərini tənqid edən Azərbaycan rəsmilərinin Avropa İttifaqı binalarına girişi qadağan olunsun. Budurmu Avropa Parlamentinin ifadə azadlığına münasibəti? Deməli, Avropa İttifaqı üçün ifadə azadlığının sərhədi onların özlərinin adı çəkilənə qədərdir. XXI əsrdə fikrini ifadə etdiyinə, yəni avroqurumları tənqid etdiyinə görə sanksiya çağırışı qitə miqyasında ifadə azadlığı üçün

böyük təhdiddir.

Bu, yalnız bizə yönələn akt deyil, ümumbəşəri dəyərlər, o cümlədən 1948-ci il konvensiyası, 1966-cı il paktları başda olmaqla çoxsaylı sənədlərin sual altına alınmasıdır. Ona görə də özünü beynəlxalq hüquqa sadiq hesab edən hər bir subyekt ifadə azadlığına təhdid yaradan bu qətnaməyə görə Avroparlament barəsində qlobal miqyasda çəkindirici addımların atılması istiqamətində iş aparmalıdır.

Biz öz təhlükəsizliyimizi təmin etmişik. Möhtərəm Prezidentin dediyi kimi, Azərbaycan təhlükəsizlik adasıdır. Cənab İlham Əliyevin rəhbərliyi ilə yaradılan reallıq o cümlədən vətəndaşlarımızın hüquq və azadlıqlarını təhdidlərdən sığortalamağa imkan verir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Bəhruz müəllim. Fərid müəllim, Mehman Qayıbova deyin, növbəti “Parlament saatı” verilişində burada səslənən fikirlər öz əksini tapsın. Kimlər burada çıxış edə bilməyibsə, orada imkan daxilində çıxış etsinlər.

Hörmətli həmkarlar, mən hamıya təşəkkürümü bildirirəm. Biz gündəliyin məsələlərinə keçirik. Bizim bu gün 11 məsələmiz var. Qeyd edim ki, gündəliyin ilk 2 məsələsi beynəlxalq sənədlərin təsdiq edilməsi haqqında qanun layihələridir. Bilirsiniz ki, beynəlxalq müqavilələrlə bağlı olan qanun layihələri bir oxunuşda keçir və bu, “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələbidir.

Beləliklə, 1-ci məsələ “Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə qanun layihəsidir. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Tahir

müəllim Rzayevə söz verirəm. Tahir müəllim, buyurun.

**Tahir Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli deputat həmkarlar, "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş" 12 maddədən ibarətdir. 2024-cü il avqustun 19-da Bakı şəhərində 5 il müddətinə imzalanmışdır.

Saziş beynəlxalq ticarət zamanı bitki məhsullarının təhlükəsizliyini təmin etmək, karantin tədbirləri vasitəsi ilə zərərli orqanizmlərin yayılmasının qarşısını almaq və iki ölkə arasında səmərəli və uzunmüddətli əməkdaşlığı təşkil etmək məqsədi daşıyır. Bu istiqamətdə Azərbaycan Respublikasının səlahiyyətli orqanı qismində Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Rusiya Federasiyası adından isə Baytarlıq və Fitosanitariya Nəzarəti üzrə Federal Xidmət təyin olunmuşdur. Münasibət bildirməyinizi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Səməd müəllim, bu qanun layihəsinə sizin komitənizdə də baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin.

**Səməd Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, xanım sədr. Tahir müəllim ətraflı təqdim etdi. Komitəmizdə müzakirə olunub. Heç bir problem yoxdur. Xahiş edirəm, bu qanun layihəsini təsdiq edəsiniz.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyənlər var. Musa Quliyev. Buyurun.

**Musa Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən sazişi diqqətlə oxumuşam

və hesab edirəm ki, çox faydalı və gərəkli bir sazişdir. Qanun layihəsinə səs verəcəyəm. Məni, sadəcə, bir məsələ maraqlandırır və düşündürür. Əgər iki dövlətin fitosanitariya nəzarət xidmətində fikir ayrılığı yaranırsa, onda bu məsələ necə həll olunacaqdır?

Biz praktikadan da görmüşük ki, müəyyən illərdə Azərbaycandan  Rusiyaya göndərilən məhsullar haqqında Azərbaycanın dövlət fitosanitariya xidməti sağlamlıq sertifikatı verdiyi halda, Rusiya sərhədində saxlanılıb və təzədən yoxlanılıb. Hətta orada müəyyən infeksiya daşıyıcıları aşkar edildiyi haqqında bir fikir söylənilib. Məhsullar ya geri qaytarılıb, ya da məhv edilib.

Belə olan halda sahibkara dəyən ziyan kim tərəfindən ödənilməlidir? Bizdə sahibkarın bir günahı olmur. Məhsul öz ölkəsində fitosanitariya nəzarətindən keçir, sağlamlıq sertifikatı alır, amma qarşı tərəfdə, əksinə, bir fikir ortaya çıxanda sahibkar, təbii ki, onu müdafiə edə bilməyəcəkdir. Sahibkar əziyyət çəkəcək, Azərbaycan fermeri zərərə düşəcəkdir.

Sirr deyil ki, kənd təsərrüfatı məhsulları daha çox Azərbaycandan Rusiyaya gedir, nəinki Rusiyadan Azərbaycana gəlir. Rusiyadan, ola bilsin, taxıl məhsulları, kartof gələ bilər. Başqa heç nə gəlmir. Amma kənd təsərrüfatı məhsulları – istər meyvə olsun, istərsə də tərəvəz olsun, Rusiya sərhədində saxlanılırsa və əks bir qərar qəbul olunursa, tez xarab olur. Təbii ki, bizim fermerə də, sahibkara da zərər dəyir, ola bilsin, münasibətlərimizdə də müəyyən gərginlik yarana bilir. Belə hallar olubdur.

Mən öyrənmək istəyirdim ki, belə bir fikir ayrılığı olanda bu məsələnin operativ qaydada həlli mexanizmi varmı? Yoxdursa da, bunu necə həll etmək olar?

Mən qanun layihəsini dəstəkləyirəm, səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Tahir müəllim, bununla bağlı nə isə deməyə bir sözünüz var? Yoxsa bu məsələ ilə sonra məşğul olub, mütləq cavab vermək lazımdır.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Növbəti məsələ "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin təsdiq edilməsi barədə qanun layihəsidir.

Qeyd edim ki, bu müqavilənin bağlanması türk xalqları ailəsinin möhkəmləndirilməsi yolunda əldə edilən növbəti böyük uğurdur və tarixi əhəmiyyətə malikdir. Bildiyiniz kimi, türk xalqları ilə əlaqələrin inkişaf etdirilməsi Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin xarici siyasətinin prioritet istiqamətlərindən biridir. Azərbaycanla Özbəkistanın dost və qardaş xalqları və dövlətləri arasında müttəfiqlik münasibətləri

bütün digər məsələlərlə yanaşı, müasir çağırışlar şəraitində regional və qlobal problemlərə ümumi baxışların həyata keçirilməsinə kömək göstərəcəkdir.

Hörmətli həmkarlar, qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Səməd müəllim, mən yenə üzümü Sizə tuturam. Xahiş edirəm, məlumat verin. Buyurun.

**Səməd Seyidov.** Çox sağ olun, xanım sədr. Sizin giriş sözləriniz, ekranda yazılan bizim millət vəkillərinin sayı birbaşa Azərbaycanla Özbəkistan arasında münasibətlərin nə dərəcədə əhəmiyyətli və yüksək səviyyədə inkişaf etdirilməsi ilə bağlı bir əlamətdir. Bu zalda andiçmə mərasimində cənab Prezidentin "bizim bir ailəmiz var – türk dünyası ailəsi" tarixi sözləri hamımızın yadındadır. Özbəkistan bu gün türk dünyasında yüksələn, parlayan ulduzlardan biridir. Bu nöqteyi-nəzərdən Azərbaycan–Özbəkistan münasibətləri ən yüksək səviyyədə inkişaf edir və bu qanun layihəsi, bu saziş iki ölkə arasında münasibətlərin ruhundan doğan məntiqli bir sənəddir.

Biz heç vaxt yadımızdan çıxara bilmərik. Özbəkistanın Azərbaycana münasibəti, Özbəkistan Prezidentinin Şuşada bəyanatları, Azərbaycan Respublikası Prezidentinin dəfələrcə Özbəkistanda müxtəlif beynəlxalq tədbirlərdə iştirakı, bu yaxınlarda baş tutacaq COP29-da Özbəkistan Prezidentinin rəsmi iştirakı, əlaqələrimiz, xanım sədr, Sizin Özbəkistana səfərləriniz, Özbəkistan parlamenti nümayəndələrinin Azərbaycana gəlişi – bunların hamısının məntiqli nəticəsi bu sazişin içərisindədir. Saziş 24 bənddən ibarətdir. Müqavilə əsasında tərəflər uzunmüddətli əsasda hərtərəfli əməkdaşlığı, etimadı, bərabərliyi və

milli maraqları nəzərə almaq məqsədi ilə öz münasibətlərini müttəfiqlik səviyyəsinə yüksəldirlər.

Ən vacib məqamlardan birini qeyd edim. Həmkarlar məhz 4-cü maddəyə xüsusi fikir versinlər. Habelə üçüncü dövlət tərəfindən silahlı hücum təhlükəsi yarandığı halda, Azərbaycan və Özbəkistan zəruri tədbirlərin həyata keçirilməsi ilə bağlı maddəni bu sazişə daxil ediblər. Bu, ən vacib məsələlərdən biridir.

Biz bu gün görürük ki, ayrı-ayrı maddələrdə ikitərəfli iqtisadi, aqrar, sənaye, təhsil, mədəniyyət və digər sahələr, o cümlədən beynəlxalq xarakterli məsələlər üzrə qarşılıqlı əməkdaşlıq ən yüksək səviyyədə öz əksini tapmışdır. Müqavilədə həmçinin tərəflərin xarici siyasət, müdafiə, təhlükəsizlik kimi sahələrdə əməkdaşlığının, habelə parlament diplomatiyasının inkişaf etdirilməsi nəzərdə tutulur. Bütün sahələr bu müqavilədə, bu sazişdə öz əksini tapmışdır.

Azərbaycan–Özbəkistan münasibətləri yeni mərhələyə yüksəlir, müttəfiqlik münasibətləri formalaşdırılır. Bu, həm Azərbaycana, həm Özbəkistana, həm Mərkəzi Asiya, həm Qafqaz regionuna, həm də dünyaya ən yüksək səviyyədə bir mesajdır. Ona görə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi bu sazişin qəbul olunmasının tam tərəfdarıdır. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyənlər var. Fazil Mustafa. Buyurun.

**Fazil Mustafa.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən bu sənədə nəinki səs verəcəyəm, həm də bütün canımla, könüldən bunu alqışlayıram. Çünki bu, Azərbaycan tarixində bəlkə də bizim illərlə arzuladığımız vacib əhəmiyyətə malik ən böyük sənəddir. Çünki burada təkcə bir türk dövləti ilə müttəfiqlik

etməkdən söhbət getmir. Mərkəzi Asiyanın 37 milyon əhalisi olan bir dövləti və Azərbaycan ən yaxın münasibətlərə malikdir və bu qanun layihəsində əlaqələrimizi müttəfiqlik səviyyəsində inkişaf etdirməkdən söhbət gedir.

Hörmətli Səməd müəllim qeyd etdi. Burada silahlı münaqişələr, hücum təhlükəsi olanda bir-birinə verilən dəstək, eyni zamanda, hərbi strukturların birgə təlimlər keçməsi, əməkdaşlıq, parlament diplomatiyası kimi məsələlərə toxunulub. Digər sahələrdə də əlaqələr nəzərdə tutulur.

Burada mənim diqqətimi çəkən əsas vacib məqamlardan birini qeyd edim. Bu yaxınlarda biz Azərbaycan Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri hörmətli Şeyxül-islam Allahşükür Paşazadə ilə birlikdə Özbəkistanda keçirilən beynəlxalq konfransda iştirak edirdik. Bu beynəlxalq konfransda dünyanın, demək olar ki, 80-ə yaxın ölkəsindən gələn din xadimləri iştirak edirdi. Orada da hörmətli Şeyxin, həqiqətən də, böyük nüfuzu və Azərbaycanı təmsil etməsi, Özbək dilində salamlaması çox yaxşı qarşılandı. Amma burada əsas məsələ o idi ki, Özbəkistan bu gün məhz İslam mədəniyyətinin mərkəzi kimi parlamaqdadır. İslam Əməkdaşlıq Təşkilatında böyük bir dost ölkə kimi hər zaman birlikdə hərəkət edə biləcək, birgə fəaliyyət göstərəcəyik. Bu da bizim üçün sevindirici haldır.

İkincisi, mən ortaq əlifba məsələsi ilə bağlı bir məqamın olmasını arzulayardım. Çünki bilirsiniz ki, bizdə ortaq əlifba barədə müəyyən ümumi razılaşma əldə olunsa da, bunun tətbiqi böyük bir problemdir. Bu gün Özbəkistan kitab sərgilərində, yaxud da Özbəkistan ədəbiyyat mühitində Azərbaycanın, xüsusilə də son dönəm yazıçılarının 2000-ci ildən sonra əsərləri yoxdur. Eyni zamanda,

biz də bilmirik ki, Özbəkistanın son dönəm ədəbiyyatında, sənətində hansı tanınmamış şəxslərin əsərləri var. Ona görə biz tərcümə sektoru ilə bağlı məsələni ciddi şəkildə inkişaf etdirməliyik.

Müttəfiqlik münasibətləri təkcə silahlı münaqişələr zamanı hərbi əməkdaşlıq, yaxud da diplomatik əməkdaşlıq demək deyil, həm də xalqların bir-birinə yaxınlaşmasını təmin edən vasitələrdən istifadə etməkdir.  Bizdə, təəssüf ki, bu sahədə müəyyən problemlər var. Biz öz ədəbiyyatımızın xaricdə tanınması istiqamətində  zəruri olan dövlət fondunu yarada bilməmişik. Eyni zamanda, bizdə özəl müəllif hüquqları agentlikləri də yoxdur ki, Azərbaycan yazıçılarının, rəssamlarının, bəstəkarlarının beyin məhsullarını xarici təşkilatlara təqdim edib, satıb həm özünə, həm də müəllifinə gəlir cəlb edə bilən bir fəaliyyəti gerçəkləşdirsinlər.

Avropaya, dünya bazarına çıxmaq bir tərəfə, biz türk dünyasında, Mərkəzi Asiya məkanında belə bu əsərlərin tərcüməsini təmin edə bilmirik, bir-birimizi yaxşı tanıya bilmirik. O baxımdan mən hesab edirəm ki, Türkiyə Cümhuriyyətinin yaxşı bir nümunəsi var. Orada Mədəniyyət və Turizm Bakanlığı nəzdində sənət və ədəbiyyat əsərlərinin xaricdə təbliğini dəstəkləyən TEDA layihəsi yaradılıb. Dövlət ora vəsait qoyur. Nizami, Füzuli,  Əlişir Nəvai – bunlar tərcümə olundu, yayıldı. Bu, klassiklərdir. Müasir insanın, müasir yazarların əsərlərinin tanıdılmasına ehtiyac var. Biz müasir Özbəkistanı sənəti ilə, ədəbiyyatı ilə tanımalıyıq. Onlar da müasir Azərbaycanı tanımalıdırlar. Bu baxımdan biz bu sahədə ciddi bir dövlət proqramı həyata keçirməliyik. Bu proqram vasitəsi ilə də xalqlarımızı bu sənəddən əlavə, həm də ciddi şəkildə yaxınlaş-

dırma imkanlarını həyata keçirməliyik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Fazil müəllim. Hörmətli Fazil müəllim, hörmətli həmkarlar, Özbəkistan parlamenti ilə Milli Məclis arasında Anlaşma memorandumu var. Orada hər bir komitənin üzərinə düşən bir funksiya da var. Mən düşünürəm ki, Siz əvvəl rəhbərlik etdiyiniz Mədəniyyət komitəsində... Hörmətli Polad müəllim indi burada yoxdur, Günay xanım müavin kimi buradadır. Mən düşünürəm ki, elə bizim memorandumun bir bəndinə uyğun olaraq, bütün türkdilli ölkələri demirəm, elə Özbəkistanla bağlı hansısa istiqamətdə Mədəniyyət komitəsinin təşəbbüsü ilə iş aparmaq olar. Bizim Mədəniyyət komitəsinə müraciət etmək olar. Günay xanım, bu mövzu Sizin üçün tanış mövzudur. Siz özünüz vaxtı ilə bu mövzunu işləmisiniz. Mən düşünürəm ki, Fazil müəllimin fikirləri doğrudur. Bəlkə bununla sonra məşğul ola bilərsiniz. Çox sağ olun.

Hörmətli Musa müəllim söz istəmişdi. Musa müəllim, buyurun.

**Musa Qasımlı.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Bu gün Azərbaycan parlamenti bütün millətimiz üçün böyük tarixi əhəmiyyət daşıyan bir müqaviləni müzakirə edib təsdiq edəcək. Onun böyük tarixi əhəmiyyət daşıdığını bilməkdən ötrü 1980-ci illərin sonlarına, 1990-cı illərin əvvəllərinə getməkdə fayda var. Biz haradan haraya gəldik? Bizi bu günlərə kim gətirdi və perspektivlər nədir?

1992-ci il. Azərbaycan da, Özbəkistan da müstəqildirlər, amma Bakı–Daşkənd hava xətti bağlanıb. İki ölkə arasında əlaqələr yoxdur. Sonrakı illərdə qardaş Özbəkis-

tanla digər türk dövlətləri arasında münasibətlərdə bəzi problemlər var idi. Bu gün tamamilə fərqli bir şərait yaranıb. Bu fərqli şəraiti yaradan ilk növbədə bütün türk dövlətlərini bir araya gətirən, onların arasındakı soyuqluğu aradan qaldıran planetar təfəkkürlü cənab Prezidentimiz İlham Əliyevdir.

Bu gün müzakirə olunan sənəd təkcə ikitərəfli münasibətlər üçün əhəmiyyətinə görə məhdudlaşmır, bütün türk dünyasında bir örnəkdir və hesab edirəm ki, digər türk dövlətləri ilə də belə bir sənədin imzalanmasından ötrü bir model yaradır. Gerçəkdən, bu sənəd bir daha göstərir ki, tarixdə dövlətlərarası münasibətlərdə şəxsiyyətlər, dövlət başçıları müstəsna tarixi rola sahibdirlər.

Diqqətinizə görə təşəkkür edirəm. Bu müqavilə xalqlarımız və ölkələrimiz arasında geniş prespektivlər açır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Təklif edərdim ki, 5 dəqiqəyə keçək. Həmkarlarımızın hamısı danışa bilsin. Əgər etiraz edən yoxdursa...

**Sədrlik edən.** Çox sağ olun. Hələ soruşmamışam, qoyun, soruşum, sonra. Oldu? Buyurun, Siz davam edin. 5 dəqiqə.

**Siyavuş Novruzov.** Digər məsələlərlə bağlı Səməd müəllim ətraflı şəkildə çıxış etdi, müqavilənin mahiyyəti ilə bağlı qeyd etdi.

Özbəkistan və Azərbaycan eyni türkdilli köklərə malikdir. Bununla yanaşı, Özbəkistan–Azərbaycan münasibətlərinin əsas kökünü Ümummilli Liderimiz təşkil

etmişdir. Hələ 1980-ci illərdə bu ölkə ilə apardığı dostluq siyasəti nəticəsində Mərkəzi Asiya ölkələri arasında Özbəkistanın Azərbaycanla mütəmadi olaraq çox yüksək səviyyəli münasibətləri olub. Özbəkistanın o vaxtkı rəhbəri Şərəf Rəşidovla, ondan sonrakı dövrdə İslam Kərimovla, bütün dövrlərdə Özbəkistanın digər rəhbərləri ilə olan xoş münasibətlər bu gün artıq Özbəkistan–Azərbaycan əlaqələrini strateji tərəfdaşlıq səviyyəsinə gətirib çıxarıbdır. Biz bütün məsələlərdə doğmalığın, yaxınlığın, inkişafın, əlaqələrin möhkəmliyinin şahidi oluruq.

Əfsuslar olsun ki, müstəqillik əldə edildikdən sonra hakimiyyətə gələnlər Özbəkistanla Azərbaycan arasında münasibətlərin korlanmasına öz töhfələrini verdilər. AXC–Müsavat cütlüyü Özbəkistana demokratiya bayrağı sancmaq istəyirdi. Necə ki, indi Gürcüstanın bəzi müxalif rəhbərləri seçkidən sonra ətraf ölkələrdə demokratiyanı yaymaqla bağlı bəyanatlar verir və bu da Avropanın öyrətdiyi çıxışların digər ölkələrin ərazisinə çatdırıldığını göstərir. O vaxt Azərbaycan da bu funksiyanı öz üzərinə götürmüşdü. Demək olar ki, bütün Mərkəzi Asiya ölkələri ilə münasibətlərimiz korlanmışdı. Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra bu münasibətlər yenidən bərpa olundu, inkişaf etməyə başladı.

Təsəvvür edin ki, həmin vaxt Azərbaycana rəhbərlik edən şəxslər öz ərazisində Ermənistanın səfirliyini açmasına imkan verməyən bir ölkəyə antidemokratik ölkə deyirdilər. Münasibət bu idi, xarici siyasətləri bu idi. Azərbaycanı uçuruma aparırdılar. Cənab Prezidentin ümumtürkçülük, ümumtürk dünyasının yaradılması ilə bağlı fikrinin, türk birliyinin əsasını əvvəlcə Ümummilli Lider qoymuşdur. Sonra cənab Prezident tərəfindən daha geniş

şəkildə həyata keçirilən bu siyasət bu gün bütün türk dünyasının birliyinə, qardaşlığına, xüsusilə də Özbəkistan–Azərbaycan münasibətlərinin daha da yaxın olmasına əlavə təkan verir.

Bu gün işğaldan azad olunmuş ərazilərdə Özbəkistanın həyata keçirdiyi layihələr, Özbəkistan və Azərbaycan dövlətləri arasında bağlanmış müqavilələr... Hər ölkəyə təxminən yarım milyarddan artıq qoyulan vəsait... Azərbaycanın iş adamlarının Özbəkistanın ərazisində fəaliyyəti, Özbəkistanın iş adamlarının isə Azərbaycanın ərazisində sənaye müəssisələrinin, pambıqtəmizləmə zavodlarının, pambıq əkininin və digər məsələlərin həyata keçməsində dəstəkləri ilə öz potensiallarını, təcrübələrini Azərbaycanla bölüşməsi çox böyük əhəmiyyət daşıyır. Ən əsası isə dövlətlərimiz arasında təhlükəsizlik və müdafiə sahəsində qarşılıqlı dostluq, qardaşlıq münasibətləri mövcuddur. O baxımdan bu, çox təqdirəlayiq bir müqavilədir. Hesab edirəm ki, hamımız yekdilliklə buna səs verəcəyik və qəbul edəcəyik. Mən də səs verirəm. Həmkarlarımızı da səs verməyə çağırıram.

**Sədrlik edən.** Çox sağ olun. Siyavuş müəllim təklif etdi ki, 5 dəqiqə olsun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** İndi də eşidirəm ki, səsə qoyaq. Təkid edənlər var. Qüdrət müəllim təkid edir. Buyurun, Qüdrət müəllim.

**Qüdrət Həsənquliyev**. Sahibə xanım, çox təşəkkür edirəm. Mən əvvəllər də söyləmişəm ki, özü çıxış edib, sonra səsə qoyulmasını tələb etmək heç bir çərçivəyə sığmır. Çıxış etmək lazım deyilsə, gərək Siyavuş Novruzov da çıxış etməyəydi. Lakin özü çıxış edir, başqalarına

isə deyir ki, gəlin, səsvermə keçirək. Ona görə də hesab edirəm ki, Siyavuş Novruzov bu iradları mütləq nəzərə almalıdır. Çünki bu, birinci dəfə deyil.

Hörmətli sədr, mən həm Sizin, həm də deputat həmkarlarımızın Avropa Parlamentinin COP29 ərəfəsində Azərbaycana qarşı yönələn təzyiqlərlə bağlı fəaliyyətinə qarşı etiraz bildirməyinizi tam dəstəkləyirəm. Hesab edirəm ki, Gürcüstanın da daxili işlərinə müdaxilə qətiyyətlə pislənilməli və yolverilməz hesab olunmalıdır.

Müzakirə olunan məsələ ilə bağlı hörmətli Səməd müəllim 4-cü maddəyə diqqət yetirdi. Əlbəttə, bu, çox təqdirəlayiqdir. Azərbaycan türk dövlətləri birliyinin yaranmasında müstəsna rol oynayıb. Azərbaycan türk dövlətləri ilə ikitərəfli əlaqələrin inkişafı üçün ciddi səylər göstərir. Bu qeyd olunmalıdır və təqdir olunmalıdır. Amma hesab edirəm ki, biz hərbi əməkdaşlıq və iqtisadi inteqrasiya haqqında daha çox düşünməliyik. 4-cü maddədə tərəflərdən birinə qarşı hücumun digərinə qarşı hücum kimi qiymətləndirildiyi qeyd olunsa idi, bu, çox yaxşı olardı. Biz bilirik ki, bir çox müttəfiq dövlətlər, məsələn, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına, NATO-ya üzv ölkələr təhlükəsizliklə bağlı təhlükə yarandıqda bir-birlərini müdafiə edirlər. Əlbəttə, bu, tək bizdən asılı olan məsələ deyil. Amma hesab edirəm ki, gələcəkdə türk dövlətləri ümumi təhlükəsizliklə bağlı məsələlərdə daha yaxından iştirak etməlidirlər.

Bundan başqa, 7-ci maddə iqtisadi əməkdaşlığı nəzərdə tutur. Avropa dövlətləri, müxtəlif xalqlar bir-biri ilə sıx əməkdaşlıq edirlər, inteqrasiya olunublar. Avropa Birliyi modelində bir ittifaq yaradıblarsa, türk xalqları, türk dövlətləri niyə bunu edə bilməsinlər? Biz malların,

kapitalın, işçi qüvvəsinin sərbəst hərəkət etdiyi ümumi bir bazarın yaradılması istiqamətində danışıqlar aparmalıyıq. Belə olan təqdirdə hesab edirəm ki, bu, hər bir türk xalqının sürətli inkişafına və onların təhlükəsizliyinə daha ciddi yardım göstərmiş olardı. Fikrimcə, bununla Türkiyə və Azərbaycan arasında müttəfiqlik münasibətlərinə dair müqavilə son olmamalıdır, bunun ardı gəlməlidir. Biz digər türk dövlətləri ilə oxşar və bir-birinə dəstək nəzərdə tutan daha ciddi müqavilələr imzalamalıyıq. Diqqətinizə görə çox sağ olun. Mən səs verəcəyəm.

**Sədrlik edən.** Çox sağ olun, Qüdrət müəllim. Qüdrət müəllim, qeyd etmək lazımdır ki, o təklif birinci Siyavuş müəllimdən gəlmədi. Mənim eşitdiyimə görə, təklif Hikmət müəllimdən gəldi.

Hörmətli həmkarlar, təklif var idi, səsə qoyulsun. Bununla hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Buyurun, müqaviləyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyimizin növbəti 3 məsələsi birinci oxunuşda olan qanun layihələridir. Mən həmişə

olduğu kimi xatırladıram. Xahiş edirəm, çıxışlar birinci oxunuşun tələblərinə uyğun olsun.

3-cü məsələ "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsləyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov**, *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Birinci oxunuş üçün Milli Məclisin müzakirəsinə təqdim edilmiş qanun layihəsi "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanuna yeni maddənin əlavə edilməsini nəzərdə tutur. Yeni 29-1-ci maddə Alkoqollu içkilərin pərakəndə satışının minimum qiymətinin müəyyən olunması adlanır və üç əsas məsələni əhatə edir. Qanun layihəsinə əsasən alkoqollu içkilərin pərakəndə satışın minimum qiyməti müəyyən ediləcək. Minimum qiymətin müəyyən edilməsi məqsədi ilə müvafiq qayda təsdiq ediləcək və pərakəndə satışın minimum qiyməti müəyyən edilmiş alkoqollu içkilərin həmin qiymətdən aşağı qiymətə satılması qadağan ediləcək.

Bəri başdan qeyd edim ki, bu qanun layihəsinin sosial, iqtisadi və hüquqi aspektləri, əsasları var. Qanun layihəsi barədə hörmətli deputat həmkarlarımızda bir qədər aydın təsəvvür yaratmaq üçün bəzi məlumatları vermək istərdim. Bu layihə Azərbaycan Respublikası Prezidentinin "Tütün məmulatlarının və alkoqollu işçilərin idxalı və istehsalı sahəsində dövlət nəzarətinin gücləndirilməsi haqqında" 2023-cü il 7 fevral tarixli Sərəncamının 1.3-cü

bəndinin icrasının təmin edilməsi məqsədi ilə hazırlanmışdır. Bildiyiniz kimi, son illər ərzində alkoqollu içkilər bazarına nəzarətin təkmilləşdirilməsi və sərtləşdirilməsi ilə bağlı ardıcıl, sistemli kompleks tədbirlər həyata keçirilmişdir. Eyni zamanda, bildirmək istərdim ki, məhz bu sərəncamın tələblərindən irəli gələrək Milli Məclisin VI çağırışı çərçivəsində, demək olar, nəzərdə tutulan bütün tədbirlər icra olunmuşdur. 7-ə yaxın dəyişiklik edilmişdir. Təqdim olunan bu layihə də silsiləvi olaraq həmin kompleks tədbirlərdən biridir. Bəri başdan bildirim ki, bu layihənin hazırlanmasında beynəlxalq təcrübə nəzərə alınıb və 6-a yaxın dövlət orqanı tərəfindən razılaşdırılıb, birgə müzakirə edilib və son mərhələdə təqdim edilmişdir.

Ümumiyyətlə, bu qanunun əsas məqsədi nədən ibarətdir? Məqsəd istehlakçıların sağlamlığının və hüquqlarının müdafiəsinin gücləndirilməsi, əhalinin sağlamlığı üçün real təhlükələrin aradan qaldırılması, spirtli içkilərlə bağlı qiymət-satış siyasətinin yeniləşdirilməsi, yerli istehsalçıların, özü də keyfiyyətli məhsul istehsal edən istehsalçıların iqtisadi maraqlarının qorunması, daxili bazarın minimum keyfiyyətsiz məhsullardan təmizlənməsi, haqsız rəqabət mühiti yaradan amillərin aradan qaldırılması, qanunsuz sahibkarlığın, vergidən yayınma hallarının qarşısının alınması və bu sahədə mübarizənin sərtləşdirilməsidir. Ümumilikdə, bu layihə alkoqollu içkilərin satışı sahəsində dövlət tənzimləməsinin təkmilləşdirilməsini nəzərdə tutur.

Daxili bazarın qorunması, bazarın keyfiyyətsiz məhsullardan təmizlənməsi ilə yanaşı, bu qanun layihəsinin qəbul edilməsi həm də sosial xarakterli bir sıra nəticələrə gətirib çıxara bilər. Hər şeydən əvvəl alkoqollu içki istehlakı.

Mən xüsusi olaraq vurğulamaq istərdim ki, keyfiyyətsiz, təhlükəsizlik normalarına cavab verməyən içkilərin istehlakının məhdudlaşdırılması və bu fonda da, ümumiyyətlə, alkoqollu içkilərin istehlakında azalma meyilləri müşahidə edilə bilər. Alkoqolla bağlı ortaya çıxan xəstəliklər də azala bilər. Əhalinin sağlamlığı ilə bağlı beynəlxalq təşəbbüslər dəstəklənmiş olacaq. Bununla bağlı, Ümumdünya Səhiyyə Təşkilatının tələbləri var. Biz üzərimizə öhdəliklər götürmüşük. Həmçinin bu, beynəlxalq təşəbbüslərin reallaşdırılması baxımından əhəmiyyətli ola bilər. Nəhayət, sağlam cəmiyyətin formalaşmasında ölkəmizin də müəyyən töhfələri mümkündür. Layihənin hörmətli həmkarlarımız tərəfindən dəstəklənməsini xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Müzakirəyə keçirik. Razi Nurullayev. Razi müəllim, buyurun.

**Razi Nurullayev**. Təşəkkür edirəm, xanım sədr. Qanun layihəsi çox gözəldir, gözəl missiyası var. Amma mənə tam aydın olmadı ki, saxta alkoqollu içkilərin qarşısı necə alınacaqdır. Deyək ki, müvafiq icra hakimiyyəti orqanı içkinin qiymətini 20 manat, 50 manat, 100 manat müəyyən etdi. Saxta içki düzəldən də məhsulu həmin qiymətə satacaq. Yəni bunun qarşısı hansı yollarla alınacaq? Çünki hazırda bütün şadlıq evlərində, müxtəlif yerlərdə bir gündə, məsələn, 100-200 alkoqollu içki şüşəsi boşalır. Eyni qablaşmadır, sadəcə, onun qapağını dəyişib yenə taxmaq lazımdır. Tam olaraq bununla bağlı izahat olsa idi, yaxşı olardı. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Hasənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev.** Təşəkkür edirəm, hörmətli sədr.

Hörmətli həmkarlar, media nümayəndələri, əslində, biz bu qanun layihəsini qəbul etsək, çox pis bir ənənənin başlanğıcını qoymuş olacağıq. Ona görə ki, bazar iqtisadiyyatı olan ölkələrdə dövlət qiyməti vergilər, rüsumlar yolu ilə tənzimləyir, yəni qiymət müəyyənləşdirmir. Biz sabah çıxıb deyəcəyik ki, insan orqanizmi üçün çox vacib olan bir çox qidalar var. Gəlin, həmin qidalar üçün də yuxarı hədd müəyyənləşdirək ki, sahibkar öz malını bundan baha qiymətə sata bilməsin. Mən hesab edirəm, bu baxımdan bu, yolverilməzdir.

İkincisi. Qiymətin artırılması nə vaxtdan istehlakçıların hüquqlarının müdafiəsi kimi təqdim oluna bilər? Əgər bir qiymət qalxırsa və bunu istehlak edən varsa, qiymətin qalxması onun maraqlarına cavab vermir. Qeyd olunur ki, guya bu, həm də saxta içkilərin qarşısını alacaq. Burada hörmətli Razi müəllim bu məsələ ilə bağlı dedi. Mən də bunun üzərində daha geniş dayanmaq istəmirəm. Əvvəla, içkinin saxta olması onun keyfiyyətsiz olması demək deyil. Bu, kölgə iqtisadiyyatının bir sahəsi ola bilər. Hələ bəlkə də qeydiyyatdan keçmiş digər zavodlarda istehsal olunan içkilərdən də keyfiyyətli olar. Amma sadəcə olaraq, o mənada saxta adlandırıla bilər ki, qeydiyyatdan keçməyib, gizlidir. Bundan əlavə, onun keyfiyyətli olub-olmamasını yalnız müvafiq laboratoriyalarda müəyyənləşdirmək mümkündür.

Hörmətli Azər müəllim demədi ki, indiyə kimi nə qədər saxta içki istehsal edən sexlər aşkar olunub, nə qədər piştaxtalardan belə spirtli içkilər yığışdırılıb, nə qədər şəxslər buna görə məsuliyyətə cəlb olunublar. Bunu doğuran, zəruri edən səbəblər haqqında bizə məlumat verilməlidir. Bu barədə də heç nə deyilmədi. “Sadəcə, hesab

edirəm ki, bu, belə olar, ona görə də belə bir qanun təklif edirəm” – bu, düzgün bir yanaşma deyil.

İnsanların sağlamlığını əsas götürərək hamı üçün əlçatan olmasın deyə, alkoqollu içkilərin qiymətini artırmaq lazımdırsa... Əvvəla, vaxtı ilə Qorbaçov alkoqolizmə qarşı mübarizə elan etdi. İçkilər yığışdırıldı, qiymətləri qaldırdı və bunun nəticəsində də saxta içkilərin sayı bir az da artdı. İnsanlar hətta ayaqqabıya sürtülən kremlərdən də istifadə etməyə başladılar, kustar üsullarla hazırlanan spirtlər içməyə başladılar ki, bu da insanların orqanizminə daha ciddi ziyan vurdu. Saxta içkilərə qarşı hüquq mühafizə orqanları, Qida Təhlükəsizliyi Agentliyi mübarizə aparmalıdırlar.

Spirtli içki aksizli mal sayılır və hazırda bizim Vergi Məcəlləsində hər litrə görə 4,8 manat aksiz vergisi nəzərdə tutulub. Bu 4,8 manatı 10 manat edək. Yəni zavodun həyətindən çıxdığı andan istehsal olunan mala görə, tutaq ki, hər litrə görə 10 manat aksiz vergisi ödənsin. Bu halda, malın maya dəyərini də onun üstünə gələndə içkinin qiyməti qalxmış olacaq.

Eyni zamanda, əgər insanların sağlamlığını qorumaq istəyiriksə, onda biz “Əhalinin sağlamlığı haqqında” Qanuna dəyişiklik etməliyik. Orada “Vətəndaşların sağlamlığına vurulan zərərə görə məsuliyyət” adlanan xüsusi IX fəsil var. Orada qeyd edə bilərik ki, yalnız qanunazidd hərəkətlər nəticəsində zərərçəkmiş şəxs xəstəxanada müalicə olunursa, onun müalicəsi üçün çəkilən xərclər ödənilməsin. Həm də dünyanın bir çox ölkələrində də əgər insanlar tütündən və alkoqollu içkilərdən ziyan görürlərsə, onlara qarşı məhkəmələrdə iddia qaldırılır. Əgər həmin şəxs xəstəxanalarda dövlət hesabına müalicə olunubsa,

ona qarşı müvafiq iddialar qaldıra bilərlər.

Hörmətli sədr, yeri gəlmişkən, mən əvvəllər də bu məsələni qaldırmışam ki, bizim Konstitusiyanın 73-cü və 94-cü maddələrinə qədər bütün vergi növləri, onların həcmi, bütün ödənişlər, həcmin ödənişi də qanunla müəyyən olunmaldır. Amma bizim Vergi Məcəlləsinin 190-cı maddəsində qeyd olunur ki, bəzi aksizli mallara görə hökumət, müvafiq icra hakimiyyəti orqanı aksiz vergisini müəyyənləşdirir. Yəni əvvəllər də söyləmişəm, bu, qanuna, Konstitusiyaya ziddir. Çox təəssüf ki, bu istiqamətdə də addımlar atılmır. Çox istəyərdim ki, hörmətli Azər müəllim bu məsələni də müvafiq icra hakimiyyəti orqanları qarşısında qaldırsın. Qarşıdan bizim büdcə müzakirələri gəlir və biz bu istiqamətdə qanunvericiliyə müvafiq dəyişikliklər edək.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov**. Təşəkkür edirəm, hörmətli sədr. Əziz həmkarlar, komitə sədri hörmətli Azər müəllim qanun layihəsi ilə bağlı ətraflı məlumat verdi. Digər həmkarlarımız da kifayət qədər maraqlı mövqelər səsləndirdilər. Mən, sadəcə, konseptual məzmunda bu layihəyə dəstək vermək istəyirəm. Bu dəyişikliyin fəlsəfəsi ictimaiyyət tərəfindən doğru qiymətləndirilməlidir. Biz daha çox alkoqollu içkilərin qiymətinə, yaxud bu istiqamətdə mübarizə tədbirlərinə fokuslanmamalıyıq. Bu, qanunun mahiyyətindən yayınma olacaq. Burada əsas hədəf istehlakçıların və istehsalçıların maraqlarını təmin etməkdir. Məlumdur ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanun istehlakçıların hüquqlarının müdafiəsinin ümumi hüquqi, iqtisadi və sosial əsaslarını, habelə əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinin hüquqi

əsaslarını və mexanizmlərini müəyyənləşdirir. Amma eyni vəzifələr bu günə qədər alkoqollu içkilərin istehsalı və istehlakı sahəsində hərtərəfli tənzimləməyə imkan vermirdi və ona görə də qanuna 29 prim 1-ci maddə əlavə edilir.

Bildiyiniz kimi, möhtərəm Prezidentin ölkənin sosial-iqtisadi inkişafına dair beş milli prioritetdən biri kimi müəyyənləşdirdiyi prinsiplər sırasında dayanıqlı, artan rəqabətqabiliyyətli iqtisadiyyat quruculuğu əsas hədəflərdən biridir. Bu hədəfə çatmaq üçün isə davamlı və yüksək iqtisadi artım, eyni zamanda, daxili və xarici təsirlərə dayanıqlılıq əsas şərtdir. Hazırda müzakirəmizdə olan qanun ilk növbədə məhz bu məqsədlərə hədəflənib. İstehlakçıların hüquqları, sağlamlığı kimi ali məqsədlərlə yanaşı, cari dəyişiklik bu sektorun milli iqtisadiyyatın davamlı və yüksək templərlə artırılmasına, yerli sahibkarlara dəstək olmaqla yüksək gəlirli iş yerlərinin yaradılmasına mütləq mənada təsir edəcək.

Eyni zamanda, sirr deyil ki, milli iqtisadiyyatımız qlobal iqtisadiyyatın tərkib hissəsi olduğundan xarici mühitdən təsirlənə bilər. Xüsusən bu istiqamətdə xaricdən müəyyən asılılığın olması aydındır. Bu baxımdan bu kimi qanunlar uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlılığının gücləndirilməsində önəmli rol oynaya bilər. Layihəyə, təbii ki, dəstək verirəm və həmkarlarımızı da dəstəkləməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Eldar Quliyev. Buyurun.

**Eldar Quliyev**. Çox hörmətli xanım sədr, hörmətli həmkarlar. Müzakirəyə təqdim olunan qanun layihəsi, hörmətli Azər müəllimin qeyd etdiyi kimi, istehlakçıların hüquqlarının müdafiəsinə yönəlməklə yanaşı, həm də yerli alkoqollu içkiləri istehsal edən şəxslərin mənafeyinin

qorunmasında öz müsbət təsirini göstərəcəkdir. Belə ki, alkoqollu içkilərin pərakəndə satışının minimum qiymətlərinin müəyyən edilməsindən sonra texniki normativ hüquqi aktlarla müəyyən olunmuş minimum keyfiyyətə və istehlakçıların göstəricilərinə cavab verməyən alkoqollu içkilər dövriyyədən çıxarılacaqdır. Bu halda qanunsuz istehsalın və qaçaqmalçılığın, vergidən yayınmanın da qarşısı alınacaqdır. Həyata keçirilən bu tədbirlər nəticəsində yerli istehsalın artırılması üçün ən əlverişli şərait yaranacaqdır.

Bildiyiniz kimi, dövlət büdcəsinin gəlirlərinə alkoqollu içkilərin satışı daxil olub və vəsaitin bir hissəsi oradan yönəldilib. Bu mənada alkoqollu içkilərin pərakəndə satışının minimum qiymətinin müəyyənləşməsi ilə bu məhsulların həmin qiymətdən aşağı qiymətə satılması qadağan edildikdə dövlət büdcəsinə alkoqollu içkilərin satışından əldə edilən daha çox vəsaitinin daxil olması təmin ediləcəkdir.

Bu məsələdə bir şeyi də qeyd etmək istərdim. Məlumdur ki, alkoqollu içkilərin istehsalı və ixracı ilə bir çox ölkələr məşğuldur. Hazırda Azərbaycan bazarına müxtəlif çeşiddə və keyfiyyətdə çoxlu xarici məhsullar daxil olur. Ona görə də idxal olunan alkoqollu içkilərin pərakəndə satışını minimum qiymətə müəyyən etdikdə yerli istehsalçıların analoji məhsullarının minimum qiyməti də nəzərə alınmalıdır. Elə etmək lazımdır ki, bu qiymətlər yerli istehsala ziyan verməsin və yerli istehsalçıların idxaldan asılılığını azaltsın. Hesab edirəm ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanuna dəyişikliklə bağlı qanun layihəsi təqdirəlayiqdir. Layihə birinci oxunuşun tələblərinə tam cavab verir və mən qanun

layihəsini dəstəkləyəcəyəm.

**Sədrlik edən.** Çox sağ olun. Bəxtiyar Əliyev. Buyurun.

**Bəxtiyar Əliyev**. Hörmətli xanım sədr, hörmətli deputatlar. Şübhəsiz ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanuna dəyişikliklərin edilməsi və istehlakçıların hüquqlarının müdafiəsi olduqca zəruri bir məsələdir. Deputat həmkarlarımın da qeyd etdiyi kimi, bu gün müzakirə etdiyimiz qanun layihəsi istehlakçıların hüquqlarının qorunmasının başqa bir tərəfini nəzərdə tutur. Alkoqollu içkilərin pərakəndə satışında minimum qiymət müəyyənləşdirilərsə, sanki keyfiyyətsiz məhsulları bazardan çıxardacaq və beləliklə də, istehlakçıların hüquqları qorunacaqdır. Amma biz gömrük orqanlarının illik məlumatlarında da rast gəlirik ki, xarici ölkələrdə idxal edilən alkoqollu içkilərin minimum keyfiyyət standartlarına cavab verməməsi səbəbindən onlar məhv edilir. Bəzi hallarda isə bu hal aşkar edilmir.

Əgər biz bu gün pərakəndə satışın minimum qiymətini müəyyən edəcəyiksə, bu, keyfiyyətsiz alkoqollu içkilərin də baha qiymətə satılmayacağı ilə bağlı bizə əminlik verirmi? Yəni bu, birbaşa keyfiyyət məsələsinə təsir göstərmir. Ona görə də çox yaxşı olardı ki, bu dəyişikliklə yanaşı, alkoqollu içkilərin keyfiyyət standartlarının müəyyən edilməsi ilə bağlı məsələ də bu qanun layihəsinə əlavə edilsin. Eyni zamanda, keyfiyyət standartlarının pozulmasına görə məsuliyyət də müəyyən edilsin. İnzibati Xətalar Məcəlləsinə də bu dəyişikliklər tövsiyə edilsin.

Burada istehlakçıların hüquqlarının müdafiəsi ilə bağlı fikir səsləndirildi. Əgər alkoqollu içkilər keyfiyyət standartına cavab vermirsə, onun qiymətindən asılı olmayaraq istehlakçıya hər hansı bir zərər dəyirsə, pərakəndə, yaxud

da misal üçün, xidmət sahələrində bunu realizə edən hüquqi və fiziki şəxslərə qarşı sanksiyaların bu qanun layihəsində nəzərdə tutulması olduqca yaxşı olardı. Hesab edirəm ki, bu iki məsələyə birgə baxılsa, qanuna təklif edilən dəyişiklik də gözlədiyimiz müsbət nəticələri verə bilər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Erkin Qədirli. Buyurun.

**Erkin Qədirli**. Çox sağ olun, xanım sədr. Doğrusu, belə bir layihənin plenar iclasa çıxarılmasına çox təəccüb etdim. Çünki məhz konseptual baxımdan tənqidə tab gətirmir. Dəyərli həmkarlar, tarix bir şeyi çox aydın göstərir və öyrədir. İstər demokratik, istər qeyri-demokratik ölkə, istər dini rejim, istərsə də dünyəvi olsun, tarixin istənilən dönəmində hakimiyyət mübarizə apardığı, yaxud məhdudlaşdırmağa çalışdığı üç istiqamətdə istisnasız olaraq uğursuzluq əldə edib: pul dövriyyəsi, alkoqol dövriyyəsi və ideyalar dövriyyəsi. Çoxumuz SSRİ-də yaşamışıq. SSRİ hər üç istiqamətə nəzarət etməyə çalışdı, amma tamamilə fiaskoya uğradı.

Burada hörmətli həmkarlarımın bəziləri – Razi müəllim və Qüdrət bəy söylədilər. Məsələ ondadır ki, bunun bazar tərəfi də var. Bazara birbaşa müdaxilə etməklə... Maksimum qiyməti qəbul etmək olmasa da, bəlkə harada isə anlamaq olardı. Lakin minimum qiymətin birbaşa hökumət tərəfindən təyin olunması, ümumiyyətlə, bazar münasibətlərinin mahiyyətinə ziddir.

Qiymətlə keyfiyyət arasında əlaqə görməyə çalışanlar oldu. Birbaşa əlaqə yoxdur. Daha doğrusu, bu iki göstəricini götürsək, yetərsizdir. Üçüncü göstərici də əlavə olunmalıdır. Yalnız o zaman anlaşılan ola bilir. O da istehsala sərf olunan zamandır. Nəyin isə ucuz və keyfiyyətli

olmasını istəyirsinizsə, bilin ki, bu, gec olacaq. Nəyin isə tez və keyfiyyətli olmasını istəyirsinizsə, bilin ki, bu, baha olacaq. Nəyin isə ucuz və tez olmasını istəyirsinizsə, bilməlisiniz ki, keyfiyyətsiz olacaq. Yalnız qiymət və keyfiyyəti qarşılaşdırmaqla burada heç nə anlamaq olmur. Odur ki, mən məhz elə konseptual baxımdan bu layihəni doğru saymıram və əleyhinə səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Oldu, sağ olun. Siz öz fikirlərinizi ifadə etdiniz. Ancaq mən düşünürəm, elə həmişə tarixə baxmaq lazım deyil, bu günün reallığını da nəzərə almaq lazımdır.

Hikmət Məmmədov. Hikmət müəllim, sualınız, təklifiniz? Buyurun.

**Hikmət Məmmədov.** Çox sağ olun, hörmətli xanım sədr. Mənim sualım belədir: Nəyə görə istehlakçıların hüquqlarının qorunması ilə bağlı məsuliyyət pərakəndə satışçının üzərinə qoyulur? Nəyə görə topdan satışçının, yaxud istehsalçının üzərinə deyil? Mənə elə gəlir ki, bu məsələ dəqiqləşsə, qanun layihəsinə bir qədər aydınlıq gəlmiş olar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli Əli müəllim söz istəyirdi. Əli Əhmədov. Buyurun.

**Əli Əhmədov**. Çox sağ olun, hörmətli Sahibə xanım. Mən heç istəməzdim ki, alkoqollu içkilərlə əlaqədar Milli Məclisin plenar iclasında çıxış edim. Amma burada konseptual olaraq bir neçə məsələ ilə əlaqədar fikirlər səsləndirildi. Düşünürəm ki, mən də o fikirlərlə əlaqədar öz mövqeyimi bildirim. Təbii ki, qiymət və keyfiyyət bir-biri ilə bağlıdır və qiymət keyfiyyəti həm müəyyənləşdirən, həm də keyfiyyətə nəzarətin çox vacib alətlərindən biridir. Biz bunu qəbul etməliyik. Bu isə bazar iqtisadiyyatının qaydalarına, təbii, zidd deyil. Ona görə də bir sıra

ölkələrdə ənənəvi olaraq ucuz mala çox şübhəli münasibət formalaşıb.

Avropa ölkələrində, yaxud bazar iqtisadiyyatı geniş inkişaf etmiş digər ölkələrdə orta, normal qəbul edilmiş qiymətlərdən ciddi şəkildə aşağı qiymətə satılan bir malı heç kim almır. Çünki burada şübhəli bir məqamın olduğunu aydın şəkildə dərk edirlər. Hər bir malın hazırlanması, onun texnologiyalara tam uyğun şəkildə istehsal edilməsi üçün, təbii, müəyyən qədər xərc çəkilməlidir və bu malın xərcdən ucuz satılması, aydın məsələdir ki, onun keyfiyyəti hesabına əmələ gəlibdir. Buna görə də hər malın yoxlanması mümkün olmadığından və digər subyektiv amillər daxilində qiymət amilindən, qiymət alətindən malın keyfiyyətinə nəzarət üçün istifadə edilir. Bu, tək Azərbaycanda deyil, dünyanın əksər ölkələrində belədir. Azərbaycanda ucuz mal məsələsi ilə bağlı məşhur misal da təsadüfən yaranmayıbdır.

Qüdrət müəllim burada bir məsələni qeyd etdi. Hesab edirəm ki, bununla əlaqədar ciddi düşünülməlidir. Ümumiyyətlə, bizim Konstitusiyaya görə, bütün qiymətlər, rüsumlar, vergilər Milli Məclis tərəfindən təsdiq olunmalıdır. Bu mexanizm haqqında düşünməyə dəyər. Mən hesab edirəm ki, Konstitusiyamıza, qanunlarımıza hörmətlə yanaşmaq hər birimizin borcudur. Güman edirəm ki, bu qanun layihəsi istehlakçıların hüquqlarının qorunması məqsədinə xidmət edir. Bu mənada da, düşünürəm ki, bizim millət vəkilləri bunu qəbul edəcəklər və səs verəcəklər. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Zahid Oruc. Buyurun.

**Zahid Oruc**. Təşəkkür edirəm, hörmətli sədr. Dəyərli

millət vəkilləri. Siyasi olmayan bu layihə ətrafında bir-birindən çox kəskin fərqlənən mövqelərin iqtisadi, sosial, mənəvi sağlamlıq və digər kateqoriyada əsasları var. Buna görə də, açıq desəm, mən bu layihəni görəndə ekspromt olaraq ilk yaranan təəssüratım ondan ibarət oldu ki, bu akt evlərdə, fərdi təsərrüfatlarda, ev təsərrüfatlarında fərdi istehsalı, qeyri-rəsmi istehsalı artıracaq, gücləndirəcək və natural təsərrüfat formasını, insanlar arasında bəlkə də fərqli formasiyalarda olan münasibətləri gücləndirəcək. Niyə? Biz hörmətli Əli müəllimin mövqeyinə, əlbəttə, çox dəyər veririk, ehtiramla yanaşırıq. Bu layihə istehlakçı hədəflidir, amma mahiyyətcə iri istehsalçıları və idxalçıları qorumuş olacaq. Niyə? Çünki biz haqsız rəqabətə qarşı mübarizə aparmaq istəyirik ki, insanlarımızın sağlamlığını qoruyaq, ucuz, pirat, kustar yollarla istehsal olunan məhsulları dövriyyədən çıxardaq. Onun mexanizmi qiymət siyasəti deyil, başqa vasitələrlə olmalıdır.

Hamı yaxşı bilir ki, əgər bizim məşhur zavodların üzərindən istehsal kütləvi və böyük qurğularla, avadanlıqlarla baş verərsə, onun maya dəyəri daha aşağı olmalı idi. İndi necə olur ki, çox sadə cihazlarla, qurğularla bu işi görənlər bazara yol tapa bilirlər? Biz xüsusilə də böyük məclislərdə, xeyir işlərdə görürük, parlament üzvləri də daha çox qarşılaşırlar ki, ən yüksək brend şüşələrə ən zay məhsulları doldurub cəmiyyətə yayırlar. Biz saxta məhsullara qarşı mübarizənin hüquqi və digər yollarını tapmalıyıq. Amma qiymət siyasəti... Biz deyirik ki, sabah bazarda 10 manatdan ucuz spirtli içkilər olmayacaq. 12 manata satıb yenə də həmin dövriyyədə saxlayacaqlar. Biz haradan biləcəyik ki, iri istehsalçıların və idxalçıların aşağı, optimal saydıqları qiymət həddi nə qədərdir? Ona

görə də mən təəssüf edirəm.

Mən internet resurslarında axtardım ki, bizim bir ildə bir xalq olaraq qəbul etdiyimiz alkoqollu içkilərin miqdarı nə qədərdir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatı var ki, bizdə ötən illərlə müqayisədə bu rəqəm üç dəfəyə yaxın artıb. Dərhal bu layihə ilə bağlı cəmiyyətin reaksiyasına baxdım. Oxuyuram. "Qafqazinfo.az" qeyd edir: "Alkoqollu içkilərin satışı məhdudlaşa bilər". "Modern.az" yazıb: "Azərbaycanda araq bahalaşacaq". Bu bizim layihənin müzakirəsi dövründə cəmiyyətin, medianın reaksiyasıdır. İndi bunun ucqar yerlərdəki sadə vətəndaşa necə çatdığını da göz önünə gətirək.

Mən belə bir sərt polemika aparmaq istəmirəm. Bizim ölkədə çox unikal bir təzad var. Oruc tutanların da, spirtli içki qəbul edənlərin də sayı artır. Korrelyasiyanı necə quraq? Mən, əlbəttə ki, hörmətli Azər müəllimə ehtiramla yanaşıram. O, dövlət idarəçiliyi sistemində də yüksək vəzifə daşıyıb. Bu məsələ ilə bağlı bəlkə başqa statistikalar da mövcuddur. Amma mən Qüdrət müəllimin arqumentlərini daha kəsərli hesab edirəm. Belə ki, biz bu yolla Azərbaycanın vətəndaşını daha ucuz qiymətə alkoqollu içki almaq imkanından məhrum edirik. Mən bunu demək istəyirdim. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Rəşad Mahmudov. Buyurun.

**Rəşad Mahmudov**. Çox hörmətli xanım sədr, çox dəyərli millət vəkilləri. Əvvəla, bildirmək istəyirəm ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının qanun layihəsini dəstəkləyirəm. Bir az əvvəl bəzi həmkarlarımız, eləcə də Qüdrət müəllim çıxış etdilər. Xüsusən alkoqollu içkilərin

və ya tütün məmulatlarının istifadəsinə görə dünyada xəstələnən insanlarla əlaqədar məsələyə diqqət çəkmək istəyirəm. Bildirmək istəyirəm ki, ölkəmizdə "Əhalinin sağlamlığı haqqında" Qanun çərçivəsində, eləcə də beynəlxalq səviyyədə konvensiyalarda insan hüquqları, onların sağlamlıq hüququnun bərpası, onun qorunması, – bu, qətiyyən mübahisəli bir mövzu deyil, – hər bir vətəndaşın sağlamlığı birmənalı olaraq dövlətin əsas prioritet istiqamətlərindən biridir. Xəstəliyin növündən asılı olmayaraq onların müalicəsini təşkil etməliyik.

Bildirmək istəyirəm ki, dünyada tütün məmulatları və alkoqollu içkilərə görə vergilərin tətbiqi ictimai sağlamlığın qorunması və gəlir əldə etmək məqsədi ilə geniş şəkildə yayılmış bir siyasətdir. Bu məhsulların vergiyə cəlb olunması bir çox ölkələrdə qəbul olunub və vergi dərəcələri də müxtəlif faktorlardan asılıdır. Tütün və alkoqol vergilərinin məqsədi, ümumiyyətlə, ictimai sağlamlıq, dövlət gəlirlərinin artırılması və davranış dəyişiklikləridir. Xüsusən gənclər və aşağı gəlirli şəxslər yüksək qiymətlərə görə bu məhsullardan uzaqlaşa bilirlər. Bu da onların sağlamlığına müsbət təsir edə bilir.

Əlbəttə ki, fərqli vergi strategiyaları var. Əlavə dəyər vergisi, aksiz vergisi və bu gün müzakirə edilən minimum qiymət siyasəti bir çox ölkələrdə tətbiq olunur. Bu da məhsulların müəyyən qiymətdən aşağı satılmasını əngəlləyir ki, bir az əvvəl də dediyimiz kimi, təhlükələrin, bir miqdar da olsa, qarşısını ala bilir. Ümumiyyətlə, aparılan tədqiqatlar göstərir ki, yüksək vergilər tütün və alkoqol istehlakını azalda bilər və bununla əlaqədar ortalıqda real rəqəmlər var. Ancaq bu, məhsulların qanunsuz ticarətinin artmasında da risk təşkil edir. Buna görə də vergi

siyasətləri səmərəli izlənilməli və icra edilməlidir. Bu sahədə vergilərin tətbiqi ictimai sağlamlıq üçün əhəmiyyətli bir vasitə olsa da, eyni zamanda, dövlətin gəlirlərini artıran bir strategiyadır.

Mən fürsətdən istifadə edərək bu qanunun predmeti olmasa da, bir qeyd etmək istəyirəm. Yaxın gələcəkdə dünyada bunu tətbiq edəcək ölkələr var. Xüsusən zərəri bilinən tütün məmulatları və alkoqollu içkilər məcəlləsində sırf ayrıca icbari tibbi sığorta agentliyinə ödənəcək bir rəqəmin qoyulması. Bu, gələcəkdə bu problemlərdən əziyyət çəkən insanlar üçün dövlət büdcəsində maliyyə imkanlarının artırılmasına gətirib çıxara bilər. Mən düşünürəm ki, bu, həm bunu istifadə edənlər üçün, həm də daha sonra onların problemlərini həll edən dövlət üçün ikitərəfli ədalətli bir münasibət olar. Mən bir daha bu qanun layihəsini dəstəklədiyimi bildirirəm. Millət vəkillərini də qanun layihəsini dəstəkləməyə çağırıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Azər müəllim, mən indi sözü Sizə verəcəyəm. Əslində, biz dünən danışanda mən Sizə bildirdim ki, suallar olacaq, müzakirənin geniş olmasını gözləyirəm. Sizinlə bu haqda fikir mübadiləsi apardıq. Ancaq gözlədiyimdən daha geniş və daha çox sual oldu. Özü də bu suallar müxtəlif sahələrə aiddir. Çünki müxtəlif sahələrə toxunan geniş bir mövzudur. Ona görə burada bir çox məsələ qaldırıldı. Qüdrət müəllim, digər hörmətli həmkarlar da çıxışlarında məsələlər qaldırdılar.

Siyavuş müəllim, sualınız var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Azər müəllim, əgər imkan varsa, burada qaldırılan məsələlərə münasibətinizi bildirin.

Hansısa suallara dəqiq cavablar yoxdursa, təklif edirəm, sonra işçi qaydada Siz bunlara da münasibət bildirəsiniz. Sizə qulaq asırıq. Buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli deputat həmkarlarımıza da qaldırılan məsələlərlə bağlı xüsusi təşəkkürümü bildirirəm. Belə bir müzakirə təbiidir. Əvvəlcə qeyd etdiyimiz kimi, məsələnin sosial-iqtisadi və hüquqi, qanunçuluqla bağlı aspektləri, tərəfləri var. Bir çox deputat həmkarlarımızın qaldırdığı məsələlər, əslində, üst-üstə düşür. Əsas mahiyyət də bundan ibarətdir ki, qiymətlə keyfiyyət arasında nə kimi əlaqə ola bilər.

Bəri başdan deyim ki, bu, alkoqollu içkilər bazarının bir komponentidir. Əslində, bazara nəzarət və digər məqamlar geniş bir müzakirənin mövzusudur. Amma minimum qiymətin bir mexanizm kimi tətbiq olunması, əslində, bir məqsəd deyil. Bu, bir vasitədir. Elə bir vasitədir, dövlətin imkanı olur ki, bazarı tənzimləyir, haqsız rəqabətin qarşısını alır, keyfiyyətsiz məhsullarla mübarizə aparır, vergidən yayınma hallarının qarşısını alır. Yəni bu mexanizmin çox istiqamətli, çoxşaxəli təsirləri var.

O ki qaldı qiymətlə keyfiyyətin əlaqəsi məsələsinə, bu qanun layihəsi, əslində, bu mexanizm üçün hüquqi əsaslar yaradır. Deməli, qanun layihəsinin qəbul olunmasından sonra pərakəndə satışda alkoqollu içkilər üçün minimum qiymətin müəyyən edilməsi qaydaları müəyyənləşdirilməlidir. Mən ən azından buna cəhd göstərib bildirim ki, qiymətlərlə keyfiyyət arasında nə kimi əlaqə olacaqdır. Əslində, minimum qiymət bazar iqtisadiyyatına, yaxud da istehlak bazarına müdaxilə deyil. Burada dövlət qiyməti müəyyənləşdirmir. Daha dəqiq desək, burada bazar mexanizminə, yəni bazar prinsiplərinə müdaxilə olunmur.

Dövlət burada minimum qiymət vasitəsini necə müəyyənləşdirir? Hər bir məhsulun qiyməti maya dəyərindən, istehsal xərclərindən formalaşır. Alkoqollu içkilər. Bu halda birinci mərhələ üçün, əsasən, araq nəzərdə tutulur. Hansı maya dəyəri, hansı istehsal xərcləri? Artıq Qida Təhlükəsizliyi Agentliyi, vergi nəzarəti, istənilən nəzarətedici orqan istehsalçının maya dəyərinə, xərclərinə baxmaqla, – yəni artıq ora əmək haqqı daxil edilir, Dövlət Sosial Müdafiə Fonduna ayırmalar, – ondan sonra bilavasitə istehsalla bağlı olan spirti, şüşəni, etiketi və sair bütün bu komponentləri müəyyən etməklə artıq bəri başdan müəyyənləşdirir ki, bu məhsulun maya dəyəri hansı həddədir və keyfiyyətli məhsulun istehsalı üçün nəzərdə tutulan komponentlər burada varmı.

İkinci mərhələ. Ən azı ondan ibarətdir ki, burada istehsalçı müəssisənin öz əlavəsi görünür. Yəni nəzarətedici orqanlar bunu müəyyənləşdirə bilirlər, yəni marja, gəlirlik səviyyəsi dəqiqləşmiş olur.

Ən mühümü – minimum qiymət o qiymətdir ki, artıq o qiymətə dövlətə ödənilməli olan və istehsalçının üzərində öhdəlik kimi qalan aksizlər də daxil olur. Mən çox sadə bir misal demək istərdim. Məsələn, bazarda 1, hətta 3 manata araq satılır. Halbuki 1 litr araq üçün dövlət tərəfindən müəyyən edilmiş aksiz vergisi 4,8 manatdır. Necə ola bilir ki, 4,8 manatlıq aksiz vergisi olan məhsul bazarda 2 manata satılır? Bəri başdan görünür ki, burada vergidən yayınma halı var. Amma artıq minimum qiymət 4,8 manat müəyyən edilmiş olur. Söhbət məhz ondan gedir ki, hansı istehsal xərcləri keyfiyyətli məhsulun istehsalına imkan verir. Yəni qiymətlə keyfiyyət arasında əlaqə bununla bağlıdır.

Sonra dəyər zəncirinin növbəti mərhələləri – topdan-satış həlqəsində gəlirlilik səviyyəsi, pərakəndə satış var. Pərakəndə satışda da minimum qiymətin müəyyən olunması onunla bağlıdır ki, bu, dəyər zəncirinin son mərhələsidir. İstənilən nəzarət orqanı vergidən yayınmanı, uçotdan yayınmanı, qanunsuz sahibkarlıq meyillərini müəyyən edə bilir.

Ən əsası isə, hörmətli xanım sədr, bizim milli iqtisadiyyatımızın sütunları, əsasları var. Bizim Dövlət Neft Şirkətimiz, neft sənayemiz və bununla yanaşı, qeyri-neft sənayemiz var. Qeyri-neft sənayesini formalaşdıran müəssisələrdən biri bizim içki istehsal edən sənaye müəssisələrimizdir. Bu müəssisələrin qurulmasına, yaradılmasına milyonlarca manat vəsait sərf olunub. Ən əsası da bu müəssisələrdə bizim çoxlu işçi qüvvəmiz var. Əməktutumlu müəssisələrdir. Bu cür haqsız rəqabətə və bu cür qanunsuz sahibkarlığa görə həmin müəssisələr ziyanla işləyir. İşçi qüvvəsi ixtisar olunur, işsizlik yaranır və beləcə də artıq bunların iqtisadiyyatımıza töhfəsi azalmış olur.

Biz istənilən halda nəzərə almalıyıq ki, bazar iqtisadiyyatı haqsız rəqabət deyil, haqlı rəqabətin olduğu iqtisadiyyatdır. Bazar iqtisadiyyatı qanunsuz sahibkarlığa əsaslanan iqtisadiyyat deyil. Bazar iqtisadiyyatında əsas öhdəlik sahibkarlıq subyektləri tərəfindən dövlət qarşısındakı öhdəliklərin, vergi öhdəliklərinin yerinə yetirilməsidir, uçotdan yayınmamaqdır. Bazar iqtisadiyyatı gizli iqtisadiyyat deyil, qanuni əsaslarla fəaliyyət göstərən iqtisadiyyatdır. Məhz bu qanun layihəsi də dediyimiz bu məqamları nəzərdə tutur. O baxımdan biz deyirik ki, bu layihənin həm iqtisadi, həm sosial, həm də hüquqi əsasları var və bu aspektlər də layihədə uzlaşdırılır. Sağ olun,

təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Çox ətraflı məlumat verdiniz. Ancaq düşünürəm, yenə bəzi suallar var. Dediyim kimi, bunu Siz də işçi qaydada müzakirə edə bilərsiniz. Bütün sualları eşitdiniz və gördüm, hamısını qeydə aldınız.

Mən ayrı bir məsələyə toxunmaq istəyirəm. Biz xalqı təmsil edirik və həmişə də xalq haqqında düşünməliyik. İstər keyfiyyətli, istər aşağı səviyyəli, ya da dediyiniz, 1-2 manatlıq içki olsun, bunu insanlar içir. Mən düşünürəm ki, cəmiyyətdə maarifləndirmə işi aparmaq, bu mövzu ilə bağlı iqtisadi terminlərlə deyil, sadə dillə çoxsaylı çıxışlar etmək lazımdır. Yəni biz bu dəqiqə təkcə iqtisadi inkişaf haqqında danışmamalıyıq. Biz camaata bir məlumat verməliyik, maarifləndirməliyik ki, bu 1 manata olan içki, əslində, zəhərdir. Mən bunu ancaq bu sözlə ifadə edə bilərəm. Bununla da bağlı yaxşı olardı ki, televiziyada... Dediyim kimi, bəlkə də iqtisadi dillə olmasın. Düzdür, bu qanun layihəsini iqtisadi nöqteyi-nəzərdən təqdim etməmək çox çətindir. Ancaq bununla bağlı fikirləşmək lazımdır.

Hörmətli deputatlar, özünüz də fikirləşin. Hər yerdə müsahibələr verirsiniz, çıxışlar edirsiniz. Bu qanun layihəsi ilə də bağlı çoxsaylı açıqlamalar lazımdır.

Eşitdim ki, səsə qoymaq təklif olundu. Daha çıxış edən də yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 8 |
| Bitərəf | 1 |

| | |
|---|---|
| Səs vermədi | 2 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. 4-cü məsələ "Bələdiyyənin maliyyəsinin əsasları haqqında", "Büdcə sistemi haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Regional məsələlər komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün bu gün komitə sədrinin müavini hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, buyurun.

**Nurlan Həsənov,** *Milli Məclisin Regional məsələlər komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Təqdim olunan layihə bələdiyyə büdcəsinin formalaşdırılmasında, idarə olunmasında şəffaflığın təmin olunmasını, eyni zamanda, bələdiyyə büdcəsindən daha səmərəli, daha məqsədyönlü istifadəni təşviq edir.

Konseptual baxımdan layihədə 2 əsas istiqamət var. Birinci, bələdiyyə büdcəsinin gəlir və xərcləri bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın informasiya sistemində əks olunur və xərclər həmin informasiya sistemi vasitəsi ilə həyata keçirilir. İkincisi, bələdiyyələrə ödənilən xidmət haqları nağdsız qaydada aparılır. Həmkarlarımdan layihəyə dəstək vermələrini xahiş edirəm

**Sədrlik edən.** Çox sağ olun. Elşad Musayev. Buyurun.

**Elşad Musayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Hamınızı xoş gördük. Qanun layihəsi ilə bağlı bir

etirazımız yoxdur. Çünki müəyyən dəyişiklik nəzərdə tutulur. Biz onu dəyişərik. Amma məni narahat edən, ümumiyyətlə, ölkədə bələdiyyələrə münasibətdir. Çünki mənim seçildiyim dairənin ərazisində – həm Biləcəridə, həm də Binəqədidə bələdiyyələr var. Bayaq da biz müzakirə etdik. Ölkəmizə qarşı ciddi bir qarayaxma kampaniyası, bir təzyiq siyasəti aparılır. Parlamentimiz, deputatlarımız bu təzyiq siyasətinə, qarayaxma kampaniyasına qarşı çox tutarlı cavab verdilər. Biz partiya olaraq buna qarşı çox sərt bəyanat vermişik. Ona görə də mən hesab etdim ki, çıxış etməsək də olar.

Bu qarayaxma kampaniyasının, bu təzyiq mexanizminin qarşısını almağın çoxlu üsulları var. Üsullardan biri odur ki, ölkəmizin daxilində sabitliyə nail olmaq lazımdır. Hamımız sabitliyi qorumalıyıq. Bizim gücümüz, qüvvətimiz ilk növbədə həmin daxili sabitliyimizdədir. Daxili sabitliyin olması üçün çoxlu şərtlər var. O şərtlərdən biri yerlərdə idarəetmənin keyfiyyətli qaydada olmasıdır. Bizim vətəndaşlarımızın problemlərinin həlli üçün müvafiq orqanların əlində müvafiq səlahiyyətlər olmalıdır. İndi bu bələdiyyələr belə deyil. Biz ötən dəfə də danışdıq. Bələdiyyələr yerli özünüidarəetmə orqanlarıdır. Bələdiyyələr bir az gec yaranan idarəetmə institutudur. Bələdiyyələrin fəaliyyəti dövründə istər qanunvericilikdə, istərsə də praktik həyatda boşluqlar mövcuddur. Ona görə də bələdiyyələrin fəaliyyəti ilə əlaqədar ciddi narazılıqlar var. Bu qanun layihəsində müəyyən qədər dəyişiklik edilməsi ilə bağlı təkliflər var. Biz bu təklifləri dəstəkləyirik.

Bələdiyyələrin normal fəaliyyət göstərməsi üçün əllərində vəsait olmalıdır. Normal fəaliyyət üçün ərazi müəyyən olunmalıdır ki, bələdiyyənin inzibati hüquqlarını

həyata keçirsin. Misal üçün, bizdə nə Biləcəri bələdiyyəsinin, nə də Binəqədi bələdiyyəsinin ərazi hüquqlarını təsdiq edən xəritə yoxdur. Bələdiyyənin rəhbərliyi də, üzvləri də bunu mənə dedilər. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən bu xəritə təqdim olunmayıb. Xəritənin təqdim olunmaması nəticəsində çoxlu problemlər ortaya çıxır. Ərazinin hüquqlarını təsdiq edən mülkiyyət sənədi olmadığından bələdiyyə vergilərinə daxil olan mənfəət vergisinin, reklam, dayanacaq ödənişlərinin və sairin yığılması çətinləşir, mümkünsüz olur.

Bir məsələ də sənədləşmə ilə bağlıdır. Sənədləşmə ilə bağlı mən Prezident seçkiləri dövründə dedim, onunla bağlı sonra danışarıq. Elə yaşayış sahələri, qeyri-yaşayış sahələri var ki, bunların böyük faizinin sənədləşməsi yoxdur. Sənədləşmə olmayan yerdə, təbii ki, əmlak vergisini və digər vergiləri yığmaq mümkünsüz olur. Sonra biz deyirik, bələdiyyələr işləsin. Amma bu bələdiyyələrin sərhədləri müəyyən olunmadığı üçün onlar orada, misal üçün, avtodayanacaqları sala bilmirlər. Halbuki bunlar bələdiyyənin büdcəsinə vəsait gətirə bilər. Bələdiyyənin öz ərazisində xeyli işlər var. Bu işləri görmək üçün vəsaitə ehtiyac var.

Yerdən maraqlı bir təklif irəli sürdülər: fiziki şəxslərdən əmlak vergisi. Bu, bir təklifdir. Qəbul oluna da bilər, olunmaya da. Əvvəllər avtomobillər texniki baxışdan keçəndə bələdiyyələrə göndərilirdi. Bələdiyyələr də buna görə əmlak vergisi götürürdü. Misal üçün, bir bələdiyyənin ərazisində 30 min avtomobil var. Hər birinə görə, çox deyil, 5 manat əmlak vergisi götürülsə, bir ilə nə qədər edir? 150 min manat. 150 min manat bir bələdiyyənin ərazisində bütün

asfalt, tikinti və sair məsələləri həll edə bilər.

Digər məsələlər də var. Reklam məsələsini ötən dəfə dedik. Bu, müəyyənləşməlidir. Bunun hamısını, deyək ki, Bakı Şəhəri Reklam İdarəsi, Bakı Şəhər İcra Hakimiyyəti və ya başqası götürsün. Bunun qarşısını almaq üçün, yenə deyirəm, bu sərhədlər müəyyən olunmalıdır.

Bir məsələni də deyim. Müəyyən işlər var. Məsələn, marşrutlar açılmalıdır. Bələdiyyələrin özlərinin bir bazarı olmalıdır. Bələdiyyənin əlində vəsait olmalıdır. Açıq deyək ki, bələdiyyələrin ərazisində, məktəblərin həyətində heyvan kəsilir. Belə şey olmaz. Bələdiyyənin öz vəsaiti də yoxdur ki, qapalı bir yer düzəltsin və bunun qarşısı alınsın.

Dediyim odur ki, bu cür problemlərimiz var. Bu problemləri həm qanunvericilik səviyyəsində dəyişikliklə, həm də praktik dəyişikliklə aradan götürmək olar. Layihə ilə bağlı problemimiz yoxdur. Ona dəstək verəcəyik. Sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Elşad müəllim. Çox məsələlər qaldırdınız. Ancaq sonda özünüz də dediniz ki, bu qanunla bir problem yoxdur. Ancaq bələdiyyələrlə bağlı neçə illərdir ki, çox suallar var. Siyavuş müəllim, Siz sonra Elşad müəllimlə danışın, hansısa təkliflər verin.

Mən çox üzr istəyirəm, Azər müəllim, qanun layihəsinə sizin komitənizdə baxılıb. Sizin rəyiniz nə idi? Dünən də söylədiniz. Xahiş edirəm, rəy müsbətdirsə, çox qısa deyin.

**Azər Əmiraslanov.** Rəyimiz müsbətdir, dəstəkləyirik.

**Sədrlik edən.** Siyavuş müəllim, buyurun, yazılmısınız. Mən düşünürəm, diskussiya böyük olmasın deyə, sonra Elşad müəllimlə danışarsınız. Ancaq mikrofonu verirəm, buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm, hörmətli xanım

sədr. Bu məsələlərlə bağlı mütəmadi olaraq burada diskussiyalar gedir. Qaldırılan müəyyən məsələlər var ki, öz həllini tapmalıdır. Bələdiyyələrin sərhədləri ilə, onların xəritələri ilə bağlı iş gedir. Demək olar ki, böyük əksəriyyəti həll olunmuşdur. Lakin, bilirsiniz ki, bununla Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti məşğuldur. Hazırda işğaldan azad olunan ərazilərin xəritələri işləndiyi üçün ilk növbədə bütün güc, demək olar ki, bu məsələyə verilibdir. Orada işğaldan azad olunmuş yeni rayonların hər birində tikinti-quruculuq işləri və sair aparılmalıdır. O baxımdan bunlar tədricən öz həllini tapacaqdır. Bələdiyyə mülkiyyəti ilə bağlı qanunvericiliyimiz var. Bizim 20-dən artıq qanunumuz var. Qalan məsələləri isə biz birlikdə həll edərik.

Bir təklifimiz də var: məsləhətdirsə, fasiləsiz işləyək.

**Sədrlik edən.** Təklif var. Ancaq mən düşünürəm ki, birinci oxunuşda olan qanun layihələridir. Yenə də, hörmətli həmkarlar, sizdən asılıdır. Əgər təklifə dəstək verirsinizsə, fasiləsiz, yoxsa fasilə ilə işləyək?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fasiləsiz.

İndi isə, hörmətli həmkarlar, qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İlqar müəllim, İnformasiya şöbəsinə deyin ki, bugünkü reqlament 5 dəqiqədir. Xahiş edirəm, xatırladın.

Növbəti 5-ci məsələ "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitə sədri hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, media nümayəndələri. Təqdim edilən qanun layihəsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunmuşdur. Layihə hərbi xidmətin təkmilləşdirilməsini, hərbi qulluqçuların ehtiyata və istefaya buraxılması prosedurlarının daha şəffaf və səmərəli qaydada həyata keçirilməsini nəzərdə tutur.

Qanun layihəsi, əsasən, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə 1 maddədə dəyişikliklə bağlıdır. Ehtiyata və istefaya buraxılmağa təqdim olunmazdan əvvəl hərbi qulluqçuların səhhətinə görə hərbi xidmətə yararlılıq səviyyəsinin müəyyən edilməsi üçün Hərbi-həkim komissiyasının müayinəsinə göndərilməməsi hallarını genişləndirir. Bu dəyişiklik xidmətin davam etdirilməsini mümkün etməyən hallar zamanı, xüsusilə xidmətə uyğunsuzluq hallarında hərbi qulluqçuların ehtiyata buraxılma prosedurlarının sadələşdirilməsini təmin edir. Bu sadələşdirmə hərbi müayinədən keçmədən xidmətin dayandırılması və işdən

azad edilməsi prosedurunu nəzərdə tutur.

Qeyd etmək istəyirəm ki, 156-cı maddənin “e” bəndi xidməti uyğunsuzluq, “ə” bəndi hərbçi adının şərəfinə ləkə gətirmə, “q” bəndi ixtisar, 158-ci maddənin “b” bəndi isə cinayət törətmə ilə bağlıdır.

Eyni zamanda, “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun tələbinə uyğun olaraq, Əsasnamədə mövcud olan qeyri-müəyyən ifadələrin aradan qaldırılması ilə bağlı maddəyə texniki düzəlişlər təklif olunur.

Bu qanun layihəsi hərbi xidmət keyfiyyətini artırmaq və hərbi qulluqçunun hüquqlarını daha səmərəli qorumaq məqsədi ilə hazırlanmışdır. Komitədə baxılmışdır, rəyimiz müsbətdir. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim 6 məsələmiz qalır. Dediyim kimi, bunlar hamısı ikinci oxunuşda olan qanun layihələridir. İndi biz 6-cı məsələyə keçirik. “Azərbaycan

Respublikasının Silahlı Qüvvələri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirəyə təqdim olunur. Bu qanun layihəsinə də Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Arzu müəllim, mən yenə də sözü Sizə verirəm. Buyurun, məlumat verin.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, xanım sədr. Layihə plenar iclasda birinci oxunuşda müzakirə olunmuşdur. İkinci oxunuş üçün komitədə baxılmışdır. Əlavə rəy və təklifimiz yoxdur. Səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim. Hörmətli həmkarlar, xatırladım ki, bu, ikinci oxunuşdur. Əvvəlcə qanun layihəsinə əsas kimi münasibət bildirilməlidir. Mən indi əsas kimi səsə qoyuram. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxışa yazılanlar yoxdur. Ancaq hörmətli Rafael müəllim, söz istədi. Rafael müəllim, buyurun.

**Rafael Hüseynov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli millət vəkilləri, zahirən ənənəvi bir prosedurdur. Qanunlarımızın birində bir maddənin bir bəndindəki bir cümlədə dəyişiklik edilir. Elə dəyişiklikdir ki, tərəd-

düdsüz səs verib qəbul etmək olar. Ancaq bu, “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında“ Qanunda olan dəyişiklikdir və bu dəyişikliyin fəlsəfəsi çox düşündürücüdür.

Azərbaycan Ordusunun və digər silahlı birləşmələrin maddi-texniki təminatında əvvəl olan fərqlər aradan götürülür, tənzimləmənin normativi müəyyənləşdirilir. Bu, zahirən sadə görünə bilər. Amma bunun arxasında Azərbaycanın müqəddəratı ilə bağlı keçilmiş uzun və çətin bir yolun dəqiq görüntüləri var.

İndi oktyabr ayıdır, qarşıdan noyabr ayı gəlir. Oktyabr ayı bizim dövlət müstəqilliyimizin bərpası və artıq 33 ilin arxada qalması deməkdir. Qarşıdan bizim Zəfər Günümüz gəlir. Zəfər  Günü həm də Silahlı Qüvvələrimizin, ordumuzun bayramıdır. Bu iki anlayış, bu iki dəyər bir-biri ilə birbaşa bağlıdır. Ordumuz, Silahlı Qüvvələrimiz bu cür möhtəşəm, bu cür qüdrətli olmasa, əlbəttə ki, Zəfərimiz də olmaz və bu müstəqilliyimiz də indiki yaşına gəlib çatmazdı.

Biz 1990-cı illərin əvvəllərini, ordumuzun təminat baxımından, təlim nöqteyi-nəzərindən hansı səviyyədə olduğunu xatırlayırıq. O dövrdə artıq Azərbaycana qarşı təcavüz yavaş-yavaş artırdı. Biz daxili işlər orqanlarının güclərindən istifadə edərək boşluqları doldururduq. İndi Birləşmiş Millətlər Təşkilatı qarşısında sıralanan bayraqların sayı 200-ə yaxınlaşır və dünyadakı ordular sırasında Azərbaycan Ordusu 29-cu yerdədir. Bu, iftixar etməli, qürur duymalı çox böyük bir hadisədir.

İndi biz bu qanuna edəcəyimiz dəyişikliyi 5 il, 15 il əvvəl edə bilməzdik. Amma indi mümkündür. İndi onun tarixi məntiqi ortadadır: ordumuz, Silahlı Qüvvələrimiz

artıq bir yumruq kimidir. "Dəmir yumruq" ideyası da bizim arxada qalmış şərəfli günlərimiz ərzində yarandı. Bu, cənab Prezidentin, Ali Baş Komandanımızın bu millətə təklif etdiyi bir düstur oldu. "Dəmir yumruq" onun iradəsi ilə, əzmi ilə, qətiyyəti ilə, bu milləti irəli aparması ilə məhz özü idi. "Dəmir yumruq" fəlsəfəsi yalnız orduya, Silahlı Qüvvələrə aid deyil, bu Zəfər nəticəsində, cənab Prezidentin apardığı o xətt nəticəsində bu millət yalnız Azərbaycan Respublikasında deyil, bütün dünyada birlik oldu, daha vəhdətli oldu, əslində, bir millət kimi məhz indi yetişməyə, mütəşəkkilləşməyə başladı.

İndi biz Azərbaycana qarşı gah Avropa Parlamentindən, gah da digər dövlətlərdən müəyyən qımıldanmalara, əks getmələrə, müəyyən hikkələrə tuş gəliriksə, bunu iqlim dəyişikliyi konfransı ilə əlaqələndiririk. Ona mane olmaq, əngəl törətmək istəyirlər. Heç bir əngəl törədə bilməyəcəklər. Bütün addımlarımız da böyük müvəffəqiyyətlə gerçəkləşəcək. Lakin səbəb iqlim dəyişikliyi konfransı deyil. Səbəb bu ordudur, bu Zəfərdir, Azərbaycanın bu yüksəlişidir ki, onu qəbul edə bilmirlər, həzm edə bilmirlər. Ona görə Azərbaycan, onun ordusu, Silahlı Qüvvələri və xalqı nə qədər bütöv olarsa, bizim gələcək zəfərlərimiz də daha çox olacaq.

Bu dəyişiklik də, əslində, Azərbaycanın Silahlı Qüvvələr şəbəkəsini, ordusunu və digər silahlı birləşmələri daha səfərbər, daha mütəşəkkil, daha vəhdətdə etməyə yönəlib. Əlbəttə, biz buna səs verəcəyik.

**Sədrlik edən.** Rafael müəllim, mətnlə bağlı bir təklifiniz, bir dəyişiklik var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Hörmətli həmkarlar, daha çıxış

etmək istəyən yoxdur. İkinci oxunuşdur, xatırladıram. Biz ikinci oxunuşda qanun layihəsini maddələr üzrə səsə qoymalıyıq.

Qanun layihəsi 1 maddədən ibarətdir. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də, Arzu müəllim, sizin

komitədə baxılıb. Xahiş edirəm, məlumat verin. Buyurun.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, xanım sədr. Bu qanun layihəsi də qanunvericilik təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim edilib. Birinci oxunuşda hərtərəfli müzakirə olunub. Bir neçə texniki məsələlərə diqqət yetirilmişdir. Sizin tapşırığınıza əsasən dünən Fərid müəllimlə bu məsələləri aydınlaşdırmışıq. İkinci oxunuş üçün təqdim olunur. Rəy müsbətdir, səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xatırladım, ikinci oxunuşdur, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən var. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Bu, çox vacib qanun layihəsidir. Hesab edirəm ki, səs verib qəbul edəcəyik. Qanun layihəsinin tərəfdayıram. İkinci oxunuşun tələblərinə uyğun olaraq, 175-ci maddə ilə əlaqədar mənim bir sıra təkliflərim var. Burada hərbi təlimlərə cəlb olunmanın müddəti ilə bağlı qeyd olunur ki,

əgər hərbi xidmət başa vurulubsa, 30 aydan sonra bu vətəndaş toplanışlara dəvət olunur. Mən uzun müddət – 10 il Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Komissiyasının üzvü olmuşam. Qeyd etmək istəyirəm ki, bu müddətin özünə bir daha baxmaq lazımdır. Dövr, zaman dəyişdikcə silah növləri, döyüş taktikaları, döyüş texnikaları dəyişir. Bu müddətdə biz görürük ki, yeni texnika ortaya çıxır. O baxımdan da əgər kimsə vaxtında bu texnikaları öyrənibsə, yaxud bu silah növündən istifadə edibsə, bir müddətdən sonra yeni silah növü çıxanda artıq onun istifadə etdiyi silah növləri köhnəlmiş hesab olunur. Məsələn, 44 günlük Vətən müharibəsi dövründə əgər bayraqdarın birinci variantından istifadə edirdilərsə, bu 4 il ərzində tək bayraqdarın bir neçə variantı artıq istifadəyə verilib. Orduda tam şəkildə istifadə olunur. Təbii ki, müqavilə əsasında olanlar, o cümlədən hərbi zabitlər bundan istifadə edirlər. Lakin çağırışa cəlb olunanların, yaxud da səfərbər olunanların bundan istifadəsi üçün 2 il yarım müddətin qoyulması məsələlərinə baxılsa, hesab edirəm, daha yaxşı olar.

İkinci bir məsələ. Burada göstərilir ki, təlimlərə cəlb olunma müddəti 18 aydan yuxarı ola bilməz. 18 ay il yarım deməkdir. Bilirsiniz ki, hərbi çağırışın əsaslarına görə bizdə ali təhsil müəssisələrini bitirmiş şəxslər 12 ay, ali məktəbi bitirməyənlər isə 18 ay qulluq göstərirlər. Əgər bu şəxslər ali məktəbi bitirmiş şəxslərdirsə, onda belə çıxır ki, onların təlimə cəlbolunma müddəti özünün həqiqi hərbi xidmət keçmə müddətindən 6 ay artıq olmalıdır. Arzu müəllim ya ayrılıqda, ya da başqa bir vaxtda bununla əlaqədar müəyyən məsələlərə aydınlıq gətirə bilər. Ümumilikdə, bu, vacib elementlərdən biridir.

Müharibə aparan ölkələrdə bu, çox vacibdir.

Hörmətli xanım sədr, bizim seçicilərlə görüşlərimiz zamanı da bir neçə məsələ məhz elə bu mövzu ilə əlaqədar olubdur. Bunu da Arzu müəllimin diqqətinə çatdırmaq istəyirəm. 44 günlük Vətən müharibəsində 3 qrup var idi. Birinci qrup – hərbi forma geyinənlər. Onlar cənab Prezident qismən səfərbərlik elan etdikdən sonra könüllü şəkildə hərbi komissarlıqlara müraciət edib, orada qeydiyyatdan keçib, hərbi formanı geyinib, lakin döyüş bölgəsinə getməyiblər. İkinci qrup hərbi formanı geyinib, döyüş bölgəsinə yaxın olan ərazilərdə, misal üçün, Bərdədə, Tərtərdə, başqa yerlərdə təlimlərə cəlb olunub və yenə də döyüş bölgəsində iştirak etməyib. Üçüncü qrup isə həm cəlb olunub, həm təlim keçib, həm də döyüş bölgəsində iştirak edib. Bunların üçü də tələbdir ki, bu gün bunlara veteranlıq, yəni qazilik statusu verilsin. Təbii ki, onların hamısına qazilik statusu, veteranlıq statusu verilə bilməz. Bunun aydınlaşdırılması gələcəkdə onların problem qaldırmasının qarşısını ala bilər. Hesab edirəm ki, bu məsələ ilə də bağlı geniş izahat verilməlidir.

Bir məsələ də qaldırılıb ki, İkinci Qarabağ müharibəsi veteranlarına döş nişanı veriblər, Birinci Qarabağ müharibəsinin iştirakçılarına isə verməyiblər. Müharibə veteranının fərqi yoxdur ki, birincidə və ya ikincidə iştirak etdi.

**Sədrlik edən.** Sağ olun. Arzu müəllim. Buyurun.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli Siyavuş müəllim toplanışların keçirilməsi ilə bağlı 45.6-cı maddəyə toxundu. Orada qeyd olunur ki, hərbi vəzifəlilərin toplanışlarda olmasının ümumi müddəti 30 aydan, ehtiyatda olan digər hərbi vəzifəlilərin toplanışlarda olmasının ümumi müddəti isə 18 aydan çox ola bilməz.

171.2-ci maddənin özündə də göstərilib ki, söhbət birinci dərəcəli ehtiyatda olanlardan, ikinci dərəcəli ehtiyatda olanlardan, üçüncü dərəcəli ehtiyatda olanlardan və ehtiyatda olan birinci dərəcəli uçuş heyətindən gedir. Bunların hər biri ayrı-ayrılıqda istər rütbəsinə görə, istər xidmətinə görə, istərsə də yaş həddinə görə, nə vaxt buraxılıblarsa, hamısı nəzərə alınır. Əvvəl konkret olaraq vaxt göstərirdilər ki, bu çağırış 10 gündür. Lakin indi 10, 20, 25, 30 günə qədər, yəni qarşıya qoyulan missiya yerinə yetirildikdən sonra bu məsələ həll olunur. Hər birinə ayrı-ayrılıqda yanaşma tətbiq olunur. Bu o demək deyil ki, 48 yaşında, məsələn, polkovnik-leytenant yaş həddinə görə təqaüdə çıxıbsa, yaxud ehtiyata buraxılıbsa, o, 18 aya qədər təlimdə olmalıdır. Bunların hamısı nəzərə alınır. Düşünürəm ki, biz Siyavuş müəllimlə bu məsələni özümüz həll edərik.

İkinci məsələ müharibə ilə bağlıdır. Hər bir hərbi qulluqçunun hərbi biletində tərxis olunduqdan sonra, 44 günlük müharibədən də sonra qeyd olunur ki, o, döyüş şəraitində olub, yaxud hansı tapşırığı yerinə yetirib. Buna uyğun olaraq da bu addımlar atılır.

Üçüncü, döş nişanı məsələsi. İkinci Qarabağ müharibəsində bütün iştirak edənlərin, doğrudan da, "Müharibə iştirakçısı" medalı döş nişanı var. Onun da verilməsi ilə bağlı, düşünürəm ki, vəsatət qaldırmaq mümkündür.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Qanun layihəsinin səsvermə proseduruna keçirik. Qanun layihəsi 2 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
|---|---|
| Lehinə | 104 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə 2-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.

İndi isə xahiş edirəm, qanun layihəsinə bütövlükdə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti 8-ci məsələ "Məhkəmələr və hakimlər haq-

qında" və "Məhkəmə-Hüquq Şurası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Nizami Səfərova söz verirəm. Nizami müəllim, buyurun.

**Nizami Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Birinci oxunuş zamanı qanun layihələri barədə ətraflı məlumat verilmişdir. Hazırda müzakirəyə təqdim edilən mətnlərdə hər hansı bir dəyişiklik baş verməmişdir. Layihələrin məhkəmə-hüquq sisteminin inkişafı üçün vacib əhəmiyyətini nəzərə alaraq ikinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Nizami müəllim. Hörmətli həmkarlar, qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Buyurun, səsə qoyuram, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---:|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən var. Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr.

Dəyişikliklərlə tanış oldum və dəyişikliklərin müsbət olduğunu, hakimlərin fəaliyyətinə müsbət təsir edəcəyini düşünürəm. Diqqəti cəlb edən o oldu ki, hakimlərin işinə Məhkəmə-Hüquq Şurası tərəfindən çox ciddi nəzarət vardır. Vaxtaşırı onların fəaliyyəti qiymətləndiriləcək. Digər maraqlı məqam: Hakimlərin fəaliyyətinə verilən qiymət şkalası məlum oldu və artıq işinə müsbət yanaşan hakimlərin irəli çəkilmə şansının olduğu bildirilir, yəni fəaliyyəti yüksək qiymətləndirilir. Eyni zamanda, ictimaiyyətə hakimlərin fəaliyyətinin diqqətdən kənarda olmadığı, onların fəaliyyətinin daim qanuna uyğun olduğuna nəzarət edildiyi də bildirilir.

Diqqətimi cəlb edən 13.1-ci maddə oldu. Burada bildirilir ki, hakimlərin qiymətləndirilməsi komitəsinə Ali Məhkəmədən 3 hakim, Apellyasiyadan 3 hakim, birinci instansiyadan 3 hakim təyin edilir. Azərbaycanda hakimlərin sayını bilmirəm. Hər halda 500-dən az deyil. Bu o deməkdir ki, bu 9 nəfər vaxtaşırı hakimlərin fəaliyyətini qiymətləndirəcək. Elə isə onların öz işlərini gömək üçün vaxtları olacaqmı? O deməkdir ki, Ali Məhkəmədən, apellyasiyadan, birinci instansiyadan həmin komitəyə təyin edilən hakimlərin işi ancaq bundan ibarət olacaq? Yaxud da bəlkə başqa bir mexanizm nəzərdə tutulur ki, hakimlərin qiymətləndirilmə komitəsi vaxtaşırı dəyişir? Bir qrup qiymətləndirildikdən sonra artıq başqa hakimlər... Yoxsa belə bir təsəvvür yarana bilər ki, bu hakimlər ancaq qiymətləndirməklə məşğul olacaqlar.

Hörmətli xanım sədr, keçən dəfə Siz bizə gündəlik mobil tətbiq barəsində bir məlumat verdiniz. Bu gün bizə xatırlatma paylandı və məlum olur ki, bu bizim işimizi, məlumat əldə etmək imkanlarımızı və texniki şəraiti daha

da yaxşılaşdıracaq. Bu tətbiqə görə mən rəhbərliyə, şəxsən Sizə, xanım sədr, təşəkkür etmək istəyirəm. Bu bizə operativ məlumat əldə etmək, müqayisə etmək üçün geniş imkanlar yaradacaq. Bir müddət əvvəl noutbuklarımızın müasir tələblərə cavab verməsi üçün dəyişdirilməsi, indi isə belə bir proqramın tətbiq edilməsi imkan verəcək ki, biz lazım olan məlumatları vaxtında və operativ əldə edə bilək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Əslində, bu mobil proqram bir neçə zamandır ki, var idi. Sadəcə, mənə məlumat verdilər ki, ancaq otuz neçə nəfər istifadə edir. Ona görə mən hamıya müraciət etdim. Çünki bu, vacibdir. Yenə də xatırladım ki, sənədlər həmişə vaxtında gəlib. Bizim nizamnaməmiz var. Sənədlər komitə iclasından 3 gün əvvəl gəlir. İndi isə hər biriniz heç kağızı əldə etmədən ancaq ondan istifadə edə bilərsiniz.

Nizami müəllim, bununla bağlı sözünüz var? Əslində, bunu tənzimləmək artıq icra edən orqanın səlahiyyətində olacaq. Mən belə başa düşdüm. Sizin birinci dediyiniz məsələ. Sözünüz var, yoxdur? Buyurun.

**Nizami Səfərov**. Çox sağ olun, hörmətli xanım sədr. Həqiqətən də, "Məhkəmə-Hüquq Şurası haqqında" Qanunun 13-1.1-ci maddəsində Hakimlərin qiymətləndirilməsi komitəsinin formalaşması qaydası nəzərdə tutulur. Bu komitə 9 professional hakimdən ibarət olacaqdır. Hörmətli Aydın müəllimin nəzərinə çatdırmaq istəyirəm ki, həmin hakimlər, eyni zamanda, öz professional fəaliyyətlərinə də davam edəcəklər, yəni ədalət mühakiməsini həyata keçirəcəklər. Sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Biz gərək qanun layihəsini mad-

dələr üzrə qəbul edək. 2 maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə 2-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.24 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ "Torpaq icarəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Tahir müəllim, buyurun, söz Sizindir, məlumat verin.

**Tahir Rzayev**, *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli sədr, hörmətli deputat həmkarlar, "Torpaq icarəsi haqqında" Qanuna edilən dəyişikliklərin mahiyyəti, əhəmiyyəti haqqında birinci oxunuşda ətraflı məlumat verildi. Qeyd etmək istəyirəm ki, bu dəyişikliklər icarə münasibətlərində yeni yanaşmadır və işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı torpaqlarının özəlləşdirilməsi, satışı anlamını doğurmamalıdır. Belə ki, icra mexanizmi qanunun qəbulundan sonra səlahiyyətli dövlət orqanı tərəfindən təsdiq olunacaq, qaydalarla müəyyən ediləcək və torpaqlar bu qaydalar əsasında investisiya müsabiqələri və güzəştli şərtlərlə icarəyə veriləcəkdir. Keçən dəfə yoldaşlar müəyyən fikirlərini bildirdilər və bununla əlaqədar fərdi söhbətlər olundu, ümumi razılığa gəlindi. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 99
Nəticə: Qəbul edildi

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən var. Eldar Quliyev. Buyurun.

**Eldar Quliyev**. Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, bildiyiniz kimi, hörmətli Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi altında müzəffər ordumuz 44 gün ərzində işğalda olan torpaqlarımızı azad etdi. Hazırda həmin bölgələrdə minaların təmizlənməsi ilə bağlı genişmiqyaslı işlər, həmçinin bərpa-quruculuq işləri aparılır. Bu işlər sırasında bölgənin kənd təsərrüfatına yararlı torpaqlarından səmərəli istifadə etmək üçün onların icarəyə verilməsi çox vacibdir. Bu mənada "Torpaq icarəsi haqqında" Qanunun 10-1-ci maddəsi "Dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə verilməsinin xüsusiyyətləri" adlanır. Həmin maddəyə iki bəndin əlavə edilməsi təqdirəlayiqdir. Belə ki, bu bəndlərə edilmiş əlavəyə əsasən həmin bölgələrdə əhalinin məskunlaşması başa çatan kimi istifadəyə yararlı torpaqların əkilib-becərilməsinə imkan veriləcək. Bunun da respublikada kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına böyük təsiri olacaqdır. Bildirmək istəyirəm ki, Qarabağ zonasının torpağı ölkəmizin ən məhsuldar torpaqlarından biridir. Bu ərazidə innovativ istehsal üsullarının tətbiq edilməsi becərilən bitkilərdən yüksək məhsuldarlıq əldə etməyə imkan yaradacaqdır.

Mən qanun layihəsini dəstəkləyirəm. Hesab edirəm ki, qanun layihəsinin qəbul edilməsi bu ərazilərdə məskunlaşmış əhalinin işlə təmin edilməsinə, bölgəyə investisi-

yanın cəlb olunmasına və respublikamızın yerli istehsalı hesabına ərzaq təhlükəsizliyinin yüksək səviyyədə təmin edilməsinə öz layiqli töhfəsini verəcəkdir.

Göstərilənlərlə yanaşı, aşağıdakı məsələləri diqqətə çatdırmaq istərdim. Layihənin 10-1.8-ci maddəsinə “qaydaları” sözündən sonra “və şərtləri” sözlərinin də əlavə edilməsi yaxşı olardı. Çünki torpaqlar müsabiqə yolu ilə icarəyə verilərkən mütləq qaydalar orada göstərilməlidir. Məsələn, həmin ərazidə hansı bitki becəriləcək, hər hektardan ən azı nə qədər məhsul götürüləcək, istehsal edilən məhsulun neçə faizi yerli istehlakçılara yönələcək və sair.

Bundan əlavə, 10-1.9-cu maddədə “çoxillik məhsulların əkinlərinin aparılması üçün” dedikdə nə nəzərdə tutulur? Yəni yonca bitkisi də çoxillikdir. 4 və 7 illik bitki sayılır. Onun əkin torpağı sahələri çoxillik əkmə üçündür. Meyvə bağları, üzümçülük, çay və tut plantasiyaları – bunlar da çoxillik əkmələr hesab olunur. Bu da Torpaq Məcəlləsinin 12-ci maddəsinin 3-cü bəndinə aiddir. Belə olan halda sahəni 4 ildən sonra şumlayıb yerinə taxıl, pambıq və digər bitkiləri əkmək olar. Çoxillik əkmələr də kapital qoyuluşu hesabına becərilir. Ona görə də hesab edirəm ki, bu məsələyə aydınlıq gətirilməlidir.

Mən qanun layihəsinə səs verəcəyəm və həmkarlarımdan da səs verməyi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Aqil Abbasov. Aqil müəllim, buyurun.

**Aqil Abbasov**. Sağ olun, Sahibə xanım. Mən qanun layihəsinə səs verəcəyəm. Başqa bir məsələyə toxunmaq istəyirəm. Xocalının deputatı burada oturub. Çox təəssüf ki, danışmadı. Xocalıya köçən ailələrə bir metr torpaq da icarəyə verməyiblər. Hamısı kənardan gələn adamlara

verilib. Qarabağda işğaldan azad olunmuş ərazilərdə torpaqların icarəsində bir nəfər qarabağlı iştirak etmir. Köçüb yaşayırlar, amma iştirak etmirlər. Heç heyvan saxlamağa yer vermirlər. Keçiləri ölmüş göstərdilər, keçilər Laçında damın başındadır. Belə şey olmaz, axı.

Ali Baş Komandan bu torpağı 44 gündə, əlindəki Həzrət Əli qılıncı ilə azad edib. Bunu camaata verin, özü üçün əksin, biçsin. Bu torpaqlar ondan ötrüdür, kiminsə monopoliyası üçün azad olunmayıb. Adam var ki, Xocalıda 600 hektar torpağı, nar bağını icarəyə götürüb, vaxtı ilə ermənilər əkmişdi. Bunu niyə Xocalı sakinlərinə vermirlər? Ora 46 ailə köçüb. Başqa ərazilərdə də belə şeylər var.

Camaat deyir ki, Füzulinin icra başçısı işğaldan azad olunmuş torpaqları satır. Halbuki Füzulinin icra başçısını heç o torpağa buraxmırlar. Necə sata bilər? Belə problemlər var. Bununla ciddi məşğul olmaq lazımdır.

İndi bələdiyyələrdən danışdılar. Bələdiyyələrin torpağı var? Ağdam bələdiyyəsində torpaq hələ nə vaxt olacaq, Allah bilir. Böyük tikinti-quruculuq işləri gedir. Adamın ürəyi açılır, sevinir. O qədər sürətlə iş gedir, amma torpaqlar yerli camaata icarəyə verilmir. Təəssüf edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Aqil müəllim. Ancaq mən bilmirəm, bu məlumatlar Sizdə haradandır. Çünki möhtərəm cənab Prezident dəfələrcə öz çıxışlarında deyib ki, Qarabağ torpaqlarında elə Qarabağ camaatı yaşayacaq, hələ min illərcə yaşayacaq. Orada yaşamaq üçün də bütün şərait yaranıb. Bu qanun layihəsi də məhz onları nəzərdə tutur. Əli Hüseynli. Əli müəllim, buyurun.

**Əli Hüseynli**. Çox sağ olun, hörmətli xanım sədr. Elə Sizin fikrinizi davam etdirmək istəyirəm. Çünki bu,

həqiqətən, əhəmiyyətli məsələdir. Çox mütərəqqi bir haldır ki, bizim qanunvericiliyimizdə ilk dəfə olaraq "Torpaq icarəsi haqqında" Qanunda "işğaldan azad olunmuş ərazilər" anlayışı var. Məlumat üçün demək istəyirəm ki, yəqin, yaxın gələcəkdə, – bu, məhz qanunvericilik təşəbbüsü subyektinin mövqeyidir, – bizim əsas qanunlardan birində, ola bilsin, Mülki Məcəllədə, yaxud da Şəhərsalma Məcəlləsində də bu anlayış veriləcək.

Məhz bu qanunun kontekstində hörmətli həmkarlarımızın fikirləri ilə bağlı söyləmək istəyirəm ki, birincisi, 10-1.9-cu maddədə, – qayda deyəndə, yəni orada şərt ola bilməz, – söhbət gələcəkdə Nazirlər Kabinetinin müəyyən etdiyi qaydalardan gedir. Çünki Nazirlər Kabineti şərtlər deyil, qaydaları müəyyən edir. O şərtlər də, təbii ki, qaydaların içərisində ola bilər.

O ki qaldı hörmətli Aqil müəllimin qaldırdığı məsələyə, Aqil müəllim, bu qanun layihəsi fərqlidir. Çünki "Torpaq icarəsi haqqında" Qanun bütün əhaliyə torpağın necə icarəyə verilməsini müəyyən edir. Bu qanun isə işğaldan azad olunmuş ərazilərdə kənd və qəsəbə sakinləri üçün fərqli, daha rahat şərtləri müəyyən edir. Yəni bu baxımdan qanun layihəsi xüsusidir, mütərəqqidir və məhz işğaldan azad olunmuş ərazilərdə yaşayan, ora köçən insanlarımız üçün fərqli, daha yaxşı şərtlər müəyyən edir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Biz qanun layihəsinə maddələr üzrə münasibət bildirəcəyik. Bu qanun layihəsində də 1 maddə var. Xahiş edirəm, həmin o maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Hörmətli xanım sədr, birinci oxunuş zamanı hörmətli həmkarlarımız tərəfindən təkliflər daxil olmadığı üçün ikinci oxunuşda səsə qoyulmasını təklif edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli

həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Aydın Hüseynov. Buyurun.

**Aydın Hüseynov**. Hörmətli xanım sədr, səsləndirəcəyim fikir ikinci oxunuşun tələblərinə uyğundur. Məlumdur ki, ümumilikdə, qanun layihəsi məhkəmə icraatı zamanı prosessual müddətin dəqiqləşdirilməsi ilə bağlıdır. Ona görə qanun layihəsinə səs verəcəyəm. Fikirlərimi konkret maddə üzrə səsləndirmək istəyirəm. 493.1-ci maddəyə əsasən ərizəyə onun məhkəməyə daxil olduğu gündən sonra təxirə salınmadan, lakin sonrakı iş günündən gec olmayaraq baxılır. Yəni bu iki gün – sənədin daxil olduğu gün, yaxud da ondan bir gün sonrakı iş günü deməkdir. Mən hesab edirəm ki, digər qanundakı bütün dəyişikliklərdə, əlavələrdə günlər konkret göstərilib. Məsələn, 162.2-ci maddədə qeyd olunub: “Ərizəyə məhkəməyə daxil olduğu gündən 20 gün müddətində baxılır və həll olunur”. Bayaq səsləndirdiyim maddəni də belə redaksiyada verməyi təklif edirəm: “Ərizəyə məhkəməyə daxil olduğu vaxtdan təxirəsalınmadan iki gün ərzində baxılır”. Çünki burada fikir də, gün də daha dəqiq olur.

Digər tərəfdən, məhkəmə proseslərində günlərin müəy-

yən olunması qərarının çıxarılması üçün məhkəmələr digər qurumlara sorğular göndərir. O sorğuların cavabları nə vaxt yığılacaqsa, məhkəmə də ona uyğun qərar qəbul edir. Mən hesab edirəm ki, məhkəmənin göndərdiyi sorğuların cavablandırılması müddəti də konkretləşməlidir. Düzdür, bir ay ərzində cavablar göndərilir. Ancaq məsələ bundadır ki, göndərilən sorğunun mahiyyətinə uyğun olaraq, cavabların da tez göndərilməsini dəqiqləşdirmək olar. Bütövlükdə, qanun layihəsinə səs verirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, daha çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, maddələr üzrə münasibət bildirməliyik. Bu qanun layihəsi 8 maddədən ibarətdir. Mən onları dörd-dörd səsə qoyacağam. Xahiş edirəm, birinci 4 maddəyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu 4 maddə qəbul edildi.
İndi isə qalan 4 maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

11-ci məsələmiz "Kredit büroları haqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, xahiş edirəm, komitənin sədri kimi məlumat verin. Buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Təqdim olunan qanun layihəsi kredit institutunun çox vacib bir komponenti olan kredit bürolarının həm institusional, həm də infrastruktur baxımdan inkişaf etdirilməsini nəzərdə tutur. Burada əsas 3 məsələ var. Kredit tarixçəsi məlumatları təchizatçılarının əhatə dairəsinin genişləndirilməsi – bu siyahıya, eyni zamanda, mobil telefon operatorları əlavə olunur. Həmçinin kredit tarixçəsi məlumatlarının yeni platforması yaradılır. Artıq bu mübadilə elektron hökumət informasiya sistemi vasitəsi ilə həyata keçiriləcək. Nəhayət, kredit tarixçəsi subyektlərinin hüquqları bir daha dəqiqləşdirilir. Qanun

layihəsinin dəstəklənməsini xahiş edirik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Mən maddələr üzrə səsverməyə keçirəm. Qanun layihəsi 6 maddədən ibarətdir. Mən onları üç-üç səsə qoyacağam. Xahiş edirəm, birinci 3 maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

İndi isə qalan 3 maddəyə, yəni 4-cü, 5-ci, 6-cı maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Bizim iclasımız başa çatdı. Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. Bizim növbəti iclasımız ayın 1-də olacaq. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

## <u>*29 oktyabr 2024-cü il*</u>

**Azər Kərimli.** Avropa Parlamentinin artıq ənənəvi, xroniki hal almış qərəzindən çıxış edərək Azərbaycan əleyhinə qəbul etdiyi növbəti qarayaxma qətnaməsi prosesin vahid mərkəzdən idarə olunduğunu bir daha təsdiqləyir. Sözügedən kağız parçasının Avropa İttifaqının Ermənistan–Azərbaycan sərhəddindəki heç bir statusu olmayan "müşahidə missiyası"nın hərəkətə gəlməsi, eləcə də bir sıra Qərb ölkələrinin ayrı-ayrı təsisatlarının, media subyektlərinin apardıqları böhtan və təzyiq kampaniyaları ilə sinxron şəkildə qəbul edilməsi də bunu sübuta yetirir. 30 ilə yaxın yüzminlərcə azərbaycanlı köçkünün öz evindən didərgin düşməsinə, qərbi azərbaycanlıların indiki Ermənistan ərazisindən – öz doğma və tarixi yurd yerlərindən qovulmalarına göz yuman, bu gün də Cən
qazda sülhün, təhlükəsizliyin təmin edilməsinə m
ratmaq üçün bütün riyakar üslublardan istifadə
ropa Parlamentindən, şübhəsiz ki, obyektiv mö
ləmək də mümkün deyil.

Avropa Parlamenti nədənsə bu qurumun ən böyük ölkələrindən biri olan Fransada sosial hüquqlarının müdafiəsi üçün etiraz edən şəxslərə, "sarı jiletlilər"ə, media nümayəndələrinə, hüquq müdafiəçilərinə qarşı həyata keçirilən polis zorakılığını, yüzlərcə insanın həbsə atılmasını, insanların dini və etnik mənsubiyyətinə görə təqib olunmalarını görmək istəmir. Ermənistanda siyasi hakimiyyətin öz rəqiblərini ən müxtəlif bəhanələrlə həbsə at-

masına, media resurslarının təqib və təzyiqlərə məruz qalmalarına, müxalif partiayaların təmsilçilərinin zorakılığa, təzyiqlərə dözməyərək ölmələrinə göz yuman Avropa Parlamentinin Azərbaycanı qondarma, əsassız mülahizələrlə ittiham etməsi siyasi riyakarlığın son həddi hesab oluna bilər.

Çirkli pullar müqabilində Ermənistan və erməni diasporu da daxil olmaqla ayrı-ayrı ölkələrin, təsisatların nüfuz müvəkkilliyini yerinə yetirən parlamentarilərin "meydan suladığı" Avropa Parlamenti öz nüfuzunu çoxdan itirib və parlamentarizm prinsipləri ilə deyil, maraqlarla idarə olunur. Gözləri qatı irqçilik, islamofobiya və ksenofobiya pərdəsi ilə örtülmüş Avropa parlamentariləri nədənsə erməni vəhşiliyinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki qanlı izlərini görmür. Avropa Parlamentinin qəbul etdiyi növbəti "qətnamə" də bizim üçün əzik-üzük, simasızlığa, riyakarlığa, siyasi əxlaqsızlığa bulaşmış kağız parçasıdır və heç bir halda Azərbaycan dövlətinin iradəsinə, Azərbaycan xalqının mövqeyinə, ölkəmizin öz qanuni hədəflərinə çatmasına mane ola bilməz.

**Bəhruz Məhərrəmov.** Məlumdur ki, Azərbaycan Respublikası ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi özünün 6 konstitusion niyyətindən biri kimi müəyyən edib. O cümlədən də Özbəkistanla münasibətlərimizdə biz eyni prinsipi hər zaman rəhbər tutmuşuq. Azərbaycan–Özbəkistan münasibətləri özlüyündə Azərbaycan xarici siyasət kursunun şah əsərlərindən biridir.

Çünki 1990-cı illərdə hakimiyyəti zəbt etmiş AXC–Müsavat iqtidarı dönəmində ölkələrimiz arasında mü-

nasibət az qala düşmənçilik səviyyəsinə enmişdi. Lakin Özbəkistan Azərbaycanın o zamankı rəhbərliyinin naşılığına baxmayaraq, bizim haqq işimizi dəstəkləməkdə davam etmiş və Ermənistanla heç bir diplomatik münasibət qurmamışdı. Amma eyni zamanda, Bakı ilə Daşkənd arasında eyni kökə, eyni dilə və dinə əsaslanan münasibətlər elə səviyyəyə enmişdi ki, Ulu Öndər kimi təcrübəli siyasət dühasına bu ölkə ilə münasibətləri yenidən bərqərar etməyə illər lazım oldu.

Bu gün isə cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən çoxşaxəli xarici siyasət kursu sayəsində istər ikitərəfli, istər Türk Dövlətləri Təşkilatı, istərsə də digər platformalarda münasibətlərimiz özünün qızıl dövrünə qədəm qoyub. "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə" də bu prosesin məntiqi davamıdır və tarixi əhəmiyyətə malikdir.

Mən bu faktları ona görə bir daha sadaladım ki, yaddaşımızı təzələyək. Bu gün 1990-cı illərdəki ünsürlərdən bəziləri bizə xarici siyasət barədə tövsiyələr, göstərişlər verməyə çalışırlar, amma elə Azərbaycan–Özbəkistan münasibətlərinin keşməkeşli yolu onlara layiqli cavabdır.

**Ceyhun Məmmədov.** Məlum olduğu kimi, bir neçə gün bundan əvvəl Avropa Parlamenti Azərbaycanla bağlı növbəti qərəz və iftira dolu dinləmə keçirdi. Daha dəqiq desək, bu qurum növbəti dəfə özünü ifşa edərək əsl mahiyyətini ortaya qoydu. Azərbaycana qarşı əsassız ittihamlar səsləndirərək hər zaman olduğu kimi, haqqın, ədalətin və həqiqətin deyil, işğalçı və təcavüzkar Ermənistanın yanında olduğunu göstərdi.

Təəssüf ki, 30 ilə yaxın dövrdə Ermənistanın Azərbay-

can ərazilərində törətdiyi vəhşiliklərə, ərazilərimizin bar-barcasına dağıdılmasına göz yuman bu qurum Azərbaycana qarşı durmadan qərəz və yalan püskürür. Onlar düşünürlər ki, COP29 ərəfəsi Azərbaycanı ittiham etmək və hədəf almaq üçün ən yaxşı fürsətdir. Onlar öz aləmlərində bu cür dinləmələri təşkil edərək Azərbaycana təzyiq göstərməyə nail olacaqlarını düşünürlər.

Burada haqlı bir sual yaranır: Bəs ötən 30 il müddətində niyə Avropa Parlamenti bu mövqeyi Ermənistanla bağlı sərgiləmədi? Niyə BMT-nin 4 qətnaməsinin Ermənistan tərəfindən yerinə yetirilməməsinə laqeyd və biganə yanaşdılar? Ermənilər Xocalı soyqırımını törədəndə, qəbirlərimizi goreşən kimi eşəndə harada idilər? Niyə Ermənistanı Azərbaycana düzgün mina xəritələrini verməyə çağırmırlar? Yoxsa xristian təəssübkeşliyi onların gözünü o qədər örtüb ki, bu həqiqətləri görməyə onlara imkan vermir?

Bu qurum 30 il ərzində Ermənistanın bütün cinayətlərinə göz yumdu. İndi də Ermənistanı yenidən revanşizmə sürükləyən, Azərbaycanla münasibətlərin normallaşmasına mane olan məhz bu cür beynəlxalq təşkilatlardır. Avropa Parlamenti anlamalıdır ki, bu cür təxribatlarla heç nəyə nail ola bilməyəcək. Artıq Azərbaycan COP29-a ən yüksək səviyyədə hazırlaşıb.

**Əminə Ağazadə.** Hamımıza məlumdur ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərimizdən və ötən il suverenliyimizin tam bərpa edilməsindən sonra Cənubi Qafqazda geosiyasi konfiqurasiya köklü surətdə dəyişmişdir. Uzun illər boyu Qarabağı Azərbaycanın ərazi bütövlüyünün bir parçası kimi tanıyan Avropa rəsmiləri

bilərəkdən Ermənistanın işğalına göz yumublar. Nə son otuz ildə, nə də postmünaqişə dövründə Avropa İttifaqının hesabatlarında müharibə və işğal zamanı Qarabağda Azərbaycan xalqının saysız-hesabsız dəhşətli qırğınlara, işkəncələrə və cinayətlərə məruz qalması, vaxtı ilə azərbaycanlıların kütləvi məskunlaşdığı şəhərlərin, kəndlərin və qəsəbələrin yerlə-yeksan edilməsi, məscidlərin təhqir edilməsi, habelə mədəni və tarixi abidələrin məhv edilməsi barədə tutarlı sənəd qəbul olunmayıb. Əslində, buna heç maraq da göstərməyiblər. Amma Ermənistanın ərazi bütövlüyü və təhlükəsizliyi ilə bağlı məsələlərə gəlincə, hay-küy salınır, heç bir əsası olmayan və heç bir sübuta əsaslanmayan iddialar səsləndirirlər.

Döyüş meydanında məğlub olmuş Ermənistan və havadarlarının, erməni lobbisi və onlar qədər bizi sevməyən bəzi qüvvələrin Azərbaycanda müdaxilə etmək istədikləri istiqamət dövlətin təhlükəsizliyi, onun müstəqilliyi, cəmiyyətin dəyərləridir. Bütün bunlar ölkəmizin apardığı siyasətə xaricdən müdaxilələr və Azərbaycan əleyhinə bir çox hibrid təhdidlərlə müşahidə olunur. Belə bir şəraitdə qeyd etdiyim cəhdlərin qarşısının alınması, milli maraqların və milli təhlükəsizliyin qorunması istiqamətində yeni addımlar atılması və bütün zəruri tədbirlərin görülməsi fundamental əhəmiyyətə malikdir.

Bu baxımdan Milli Məclisin sədri Sahibə xanım Qafarovanın tapşırığına əsasən Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının oktyabrın 21-də “COP29-a qarşı hibrid təhdidlər” mövzusunda ictimai müzakirə keçirməsi xüsusi əhəmiyyət kəsb edir. İclasda iştirak edən Milli Məclisin deputatları, ölkəmizin beyin mərkəzlərinin nümayəndələri, vətəndaş

cəmiyyəti təmsilçiləri mövzu ətrafında geniş fikir mübadiləsi apardılar. Bu tədbirin əsas xətti isə Azərbayca Respublikası Milli Məclisinin xalqımıza qarşı, dövlətimizin bütövlüyünə və qanunlarına, milli-mənəvi dəyərlərinə, beynəlxalq nüfuzuna və digər vacib sahələrə təhdid yaradan bütün hallara qarşı qətiyyətinin nümayiş etdirilməsi oldu.

Bu gün ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında milli maraqlarımıza cavab verən uğurlu daxili və xarici siyasət həyata keçirilir. Hesab edirəm ki, Milli Məclis tərəfindən Xarici müdaxilələrə va hibrid təhdidlərinə qarşı müvəqqəti komissiyanın yaradılması olduqca düzgün, zamanında atılmış addımdır. Azərbaycan xalqı əmin olmalıdır ki, Azərbaycan Respublikasının Milli Məclisi öz səlahiyyətləri çərçivəsində dövlətimizin təhlükəsizliyinə, inkişafına, qüdrətinə, xalqımızın birliyinə, milli-mənəvi dəyərlərimizə təhdid yaradan bütün təhlükələri dəf etmək üçün bundan sonra da bütün gücünü səfərbər edəcək, dövlətimizin haqq işində ön sıralarda olacaqdır.

**Fatma Yıldırım.** Azərbaycan xalqı olaraq 8 Noyabr Zəfər Gününün, şanlı qələbəmizin növbəti ildönümü ərəfəsindəyik. Bu günlər 30 ilə yaxın erməni işğalı altında olmuş şəhər və kəndlərimizin azad olunmasının dördüncü ilini böyük sevinclə qeyd edirik. Bu müqəddəs savaş nəticəsində dövlətimizin qətiyyəti, ordumuzun gücü, Ali Baş Komandanımız cənab İlham Əliyevin əzəmətli sərkərdəliyi, xalqımızın birliyi ilə erməni işğalına son qoyuldu. Azərbaycan dövləti qalib dövlət, xalqımız isə qalib xalq kimi dünya tarixinə öz möhürünü vurdu.

Təəssüf ki, bizlər ermənilərin törətdikləri terror

hadisələrinin də ildönümünü böyük acı ilə qeyd edirik. Əlbəttə, şanlı Zəfərimizi qeyd etdiyimiz kimi, erməni terrorunu da qeyd etməliyik, bu qanlı terror hadisələrini unutmamalıyıq və unutmuruq. Ermənistan hər zaman olduğu kimi, 44 günlük Vətən müharibəsi dövründə də öz faşist xislətinə sadiq qalaraq, çoxsaylı müharibə cinayətləri törədərək, döyüş bölgəsindən xeyli uzaqda olan yaşayış məntəqələrinə raket hücumları etdi. Təbii ki, Ermənistan hərbi birləşmələrinin Azərbaycanın yaşayış məntəqələrinə, mülki əhalisinə qarşı həyata keçirdiyi hərbi cinayətlərin əsasında cəbhədə uğursuzluq, Azərbaycan Ordusunun Zəfəri qarşısında acizliyi dayanırdı.

Erməni faşizminin növbəti təzahürü olan bu cinayətkar əməldən ən çox zərər görən regionlardan biri də döyüş bölgəsindən xeyli uzaqda yerləşən Bərdə oldu. Düşmən Bərdə rayonunun bir sıra kəndlərini və rayon mərkəzini dəfələrcə atəşə tutdu və bu hücumlar nəticəsində 28 nəfər dinc sakinimiz şəhid oldu. Bərdəyə ən qanlı və qəddar raket hücumları isə 27-28 oktyabrda edildi. Qarayusifli kəndinə edilən raket hücumu nəticəsində 5 nəfər şəhid oldu və onlardan biri azyaşlı qız uşağı olan Aysu idi. Oktyabrın 28-də isə Bərdə şəhərində dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi əraziyə qadağan olunmuş silahlarla hücum nəticəsində 20 nəfər şəhid oldu.

Ümumiyyətlə, belə qanlı əməllər insanları, o cümlədən Bərdə əhalisini qətiyyən qorxutmadı. Bütün xalqımız kimi bərdəlilər də Ali Baş Komandanın rəhbərliyi ilə şanlı ordumuzun işğal altındakı bütün torpaqlarımızı tezliklə düşmən tapdağından azad edəcəyinə inanırdılar və belə də oldu. İnsanlar Ali Baş Komandan, Azərbaycan Prezidenti

cənab İlham Əliyevin ətrafında sıx birləşərək dövlət başçımızın qəbul etdiyi qərarları tam dəstəkləyir, ona dərin etimad göstərir, arxasında durduqlarını bəyan edirdilər.

Azərbaycan xalqına qarşı törədilmiş hərbi cinayətlərə görə Ermənistan döyüş meydanında böyük itkilərə məruz qaldı, mülki əhalimizə qarşı qatı qəddarlığın qisası düşməndən alındı. Şübhə yoxdur ki, ermənilər törətdiyi hərbi cinayətlərə görə cavab verməlidir və verəcək. Dövlətimiz bu istiqamətdə sistemli tədbirlər həyata keçirməkdədir. Ötən il Qarabağda keçirilən antiterror tədbirlərindən sonra mülki insanlara hücum əmrini verən Arayik Arutyunyan və digər cinayətkarlar həbs olunublar. Onlar layiqli cəzalarını alacaqlar.

Bu gün Azərbaycanın bütün guşələrində, Qarabağda və Şərqi Zəngəzurda üçrəngli bayrağımız dalğalanır. Biz bu Zəfərə şəhidlərimizin qanı-canı bahasına nail olduq. Vətənimizi bundan sonra da göz bəbəyi kimi qorumalıyıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**Jalə Əliyeva.** Avropa Parlamentinin üç əsas səlahiyyəti var: Avropa İttifaqına dair qanunlar qəbul etmək, həmin qanunların yerinə yetirilməsinə nəzarət etmək və Avropa İttifaqının büdcəsinin icrasına nəzarət etmək. Azərbaycanla bağlı qətnamə qəbul etmək isə Avropa Parlamentinin səlahiyyətlərinə daxil deyil. Buna görə də Avropa Parlamentinin ölkəmizlə bağlı son qətnaməsi suveren bir dövlətin daxili işlərinə müdaxilədir. Bu qətnamənin qəbul edilməsi hazırda Avropada, Qərbin təşəbbüsü ilə yaradılan əksər beynəlxalq qurumlarda, xüsusilə Avropa Parlamentində ikili standartlar və islamofob əhvali-ruhiyyənin hökm sürdüyünü göstərir. Avropa Parlamentinin özü korrupsiyaya bulaşmış bir qurumdur. Bu qurumun üzvlərinin

nə ilə məşğul olduqları hamımıza çox yaxşı məlumdur.

Özləri insan hüquqlarından, demokratiyadan danışırlar. Ancaq otuz ildən artıq bir müddətdə torpaqlarımızın işğal altında qaldığını görmədilər, 1 milyondan çox qaçqın və məcburi köçkünümüzü, onların düçar olduğu faciələri görmədilər, Azərbaycanın ədalətini görmədilər, haqqını tapdaladılar. Avropa Parlamenti niyə susdu? Niyə 1 milyondan çox insanın məhz azərbaycanlı olduqları üçün pozulan insan hüquqlarını müdafiə etmədilər? Niyə işğala və işğalçıya "Dur!" demədilər? Azərbaycanda insan hüquq və azadlıqları, söz və mətbuat azadlığı tam təmin olunduğu halda, reallığı əks etdirməyən belə bir qətnamənin qəbul olunması absurddur, qərəzdir, iftiradır! Bu sənədi hazırlayanların heç Azərbaycan reallıqlarından xəbəri yoxdur. Avropa Parlamentinin həmin sənədi qəbul etməsi ölkəmizi, onun uğurlarını gözdən salmağa çalışan çirkin kampaniyanın tərkib hissəsidir. Bu kampaniyanın təşkilatçıları isə Azərbaycandakı sabitliyi, ölkəmizdəki sosial-iqtisadi inkişafı gözü götürməyən qüvvələrdir.

Azərbaycanın böyük Zəfərindən və müstəqil şəkildə həyata keçirdiyi "dəmir yumruq" siyasətindən narahat olan Qərb ölkəmizə qarşı qərəz püskürtməkdədir. Xüsusilə COP29-un Azərbaycanda keçirilməsi ərəfəsində Qərbin Azərbaycana qarşı bu kimi addımlar atacağı gözlənilən idi. Biz belə qarayaxma cəhdlərinin çox şahidi olmuşuq. Prezident İlham Əliyev müstəqil dövlətin rəhbəri kimi müstəqil siyasət yürüdür, Azərbaycanı analoqu olmayan inkişaf yolu ilə irəli aparır, dünyanı çalxalayan böhranlardan, çirkin siyasi çəkişmələrdən ölkəmizi bacarıqla qoruyur. Xalq da Prezident İlham Əliyevin ətrafında sıx birləşib, onun yürütdüyü siyasəti tam dəstəkləyir. Bu

kimi hadisələr bir daha göstərir ki, biz daha fəal və ehtiyatlı olmalı, qabaqlayıcı tədbirlər görməli, dövlətimizin müdafiəsində vahid cəbhədə, Prezidentin ətrafında daha sıx birləşməliyik.

**Kamaləddin Qafarov.** Məlum olduğu kimi, bu il oktyabrın 22-24-də Kazan şəhərində XVI BRICS Sammiti keçirilmişdir. Son illər Azərbaycanın xarici siyasətində təşviq olunan bir çox prinsipial istiqamətlərin BRICS tərəfindən də mahiyyət etibarı ilə dəstəklənməsi ölkəmizin bu təşkilatla münasibətlərinin formalaşmasının əsasında duran mühüm amillərdən biridir. BRICS ölkələri beynəlxalq hüquq, ərazi bütövlüyü, suverenlik və bir-birinin daxili işlərinə müdaxilə etməmək prinsiplərinə sadiq qalaraq dövlətlər arasında qarşılıqlı faydalı münasibətləri dəstəkləyir, siyasi gündəliyin yalnız bir qrup ölkə tərəfindən inhisarlaşdırılmasının qarşısını alır.

Qlobal güclər arasında mübarizənin intensivləşdiyi və genişləndiyi, eləcə də bu zəmində yaranan qarşıdurmaların və silahlı münaqişələrin getdikcə artdığı bir dövrdə BRICS-lə əməkdaşlıq əlaqələrinin siyasi kontekstinin də olması labüddür. Məlum olduğu kimi, Azərbaycan özünün xarici siyasət kursunda beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipini hər zaman fəal şəkildə təşviq edib. Belə olan halda özünü getdikcə daha çox qərbmərkəzli qlobal dünya nizamına alternativ bir koalisiya kimi təqdim edən BRICS ilə əlaqələrin siyasi konteksti də ölkəmiz üçün kifayət qədər maraqlı ola bilər. Azərbaycan artıq neçə müddətdir ki, Prezidentimiz İlham Əliyevin məqsədyönlü fəaliyyətinin nəticəsi olaraq öz beynəlxalq mövqelərini uğurla möhkəmləndirməkdədir. Təbii ki, bu müsbət tendensiya qlobal siyasi sistemə də aiddir. Ölkəmiz 4 il

uğurla sədrlik etdiyi və 120 dövlətin üzv olduğu Qoşulmama Hərəkatının işində fəal iştirak edir, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin hazırkı sədridir, 200 ölkənin yekdil rəyi ilə BMT-nin İqlim Dəyişikliyi Konfransı – COP29 kimi qlobal əhəmiyyətli kütləvi tədbirə ev sahibliyi edir.

Bütün bunların fonunda ölkəmizin BRICS ilə bağlı gündəliyi də müvafiq yanaşma tərzini təşviq edir. Cənab Prezident İlham Əliyev oktyabrın 24-də XVI BRICS Sammitinin ilk plenar iclasında etdiyi çıxışında da vurğuladı ki, məhz Azərbaycanın dördillik sədrliyi dövründə Qoşulmama Hərəkatı özünün institusional inkişafında böyük addım atıb, beynəlxalq münasibətlər sistemində öz yerini xeyli möhkəmləndirib. Azərbaycan artıq Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa mühüm töhfələr verir. Əlbəttə ki, COP29-un gedişində də həm iqlim dəyişikliyi ilə bağlı məsələlərdə, həm də qlobal təhlükəsizlik, beynəlxalq hüququn aliliyi, bir-birinin işlərinə qarışmamaq, qarşılıqlı hörmət məsələlərində qarşılıqlı anlaşmaya nail olunmasına daha çox səylər göstəriləcək.

Azərbaycan–BRICS münasibətlərinin iqtiadi əsaslarına gəlincə, xüsusi olaraq diqqəti cəlb edən məqamlardan biri də budur ki, son illər ərzində Azərbaycanda yeni yaradılmış nəqliyyat infrastrukturunun vəziyyəti ölkəmizə həm Avropa, həm də Asiya ölkələri üçün etibarlı tərəfdaş statusunu qazandırıb. Xüsusilə BRICS-in Asiyadan olan üzvlərinin Avropa ilə iqtisadi əlaqələrinin intensivləşdirilməsində Azərbaycanın rolu daha böyük önəm kəsb edir. Dövlət başçımızın çıxışında qeyd olunduğu kimi, öz coğrafi mövqeyindən bacarıqla istifadə edən və müasir infrastruktur yaradan Azərbaycan Avrasiyanın mühüm

nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Bu gün "Şərq–Qərb" və "Şimal–Cənub" nəqliyyat yollarının Azərbaycan ərazisində olan bütün seqmentləri uğurla fəaliyyət göstərir. Hazırkı məqamda isə ölkə ərazisindən yük axınının kəskin artmasını nəzərə alaraq Azərbaycan hökuməti dəhlizlərin ötürücülük imkanlarının artırılmasına əlavə vəsaitlər yatırır.

Beləliklə, ölkəmiz BRICS üzvləri ilə məhz beynəlxalq nəqliyyat daşımaları və logistik infrastruktur quruculuğu istiqamətində çoxtərəfli əməkdaşlıqların gücləndirilməsində xüsusilə maraqlıdır. Eyni marağı BRICS tərəfindən də ölkəmizə qarşı müşahidə edə bilirik. Belə ki, Rusiya, Hindistan və İranın marağında olan Beynəlxalq Şimal–Cənub Nəqliyyat Dəhlizi və eyni zamanda, Çin və Avropanın marağında olan Şərq–Qərb Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə yerləşən qitələrarası ticarət yollarının inteqrasiya edilməsində və yükötürmə potensialının artırılmasında Azərbaycanın oynadığı və bundan sonra oynayacağı rolun əhəmiyyəti danılmazdır.

**Nigar Məmmədova.** Türk dövlətləri ilə əlaqələri gücləndirmək Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Xüsusilə mövcud mürəkkəb geosiyasi şəraitdə Mərkəzi Asiya və Cənubi Qafqaz arasında əlaqələrin möhkəmlənməsi türk dünyasının inteqrasiyasına mühüm töhfələr verir, eyni zamanda, yeni çağırışlara adekvat münasibət formalaşdırır. Mərkəzi Asiyanın əsas lokomotivlərindən hesab olunan Özbəkistanla münasibətlər də bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir. Bakı ilə Daşkənd arasında əlaqələr artıq yeni mərhələyə qədəm qoyub. Bu ilin avqustunda Prezident İlham Əliyevin Özbəkistana baş tutan dövlət səfəri zamanı ölkələrimiz ara-

sındakı tərəfdaşlıq münasibətləri müttəfiqlik səviyyəsinə yüksəldi.

Müttəfiqlik müqaviləsi – müttəfiqlik münasibətləri haqqında müqavilə, dövlətlərarası qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsində yeni mərhələ deməkdir. Cənab Prezident Özbəkistana dövlət səfəri zamanı bəyan etmişdi ki, müttəfiqlik münasibətləri haqqında müqavilə iki ölkənin imzalaya biləcəyi ən yüksək beynəlxalq sənəddir və bu, çox mühüm xarici siyasət addımıdır. Dövlət başçımızın da söylədiyi kimi: "Regionlarımızda müsbət proseslər Özbəkistan ilə Azərbaycan arasında səmərəli əməkdaşlıqdan asılıdır. Bu müqavilə isə gələcək illərdə bizim münasibətlərimizi, həmçinin bir çox hallarda regional siyasəti müəyyən edəcək".

Sözügedən müqavilə Mərkəzi Asiya, Cənubi Qafqaz, Xəzər regionlarının vahid geosiyasi regiona çevrildiyi bir vaxtda imzalandı. Müqavilə hər iki ölkənin milli maraqlarına cavab verən müddəalardan ibarətdir. Əsas məqamlardan biri budur ki, bu müttəfiqlik üçüncü tərəflərə yönəlməyib.

Azərbaycan və Özbəkistan parlament diplomatiyası, dostluq qrupları xətti ilə, eləcə də beynəlxalq parlamentlərarası təşkilatlar çərçivəsində sıx qarşılıqlı fəaliyyəti də dəstəkləyir. Təsadüfi deyil ki, bu ilin iyununda Azərbaycan Respublikasının Milli Məclisi ilə Özbəkistan Ali Məclisi Senatı arasında parlamentlərarası əməkdaşlığın inkişafına dair 2024–2025-ci illər üçün praktiki tədbirlər planı – "Yol Xəritəsi" imzalanıb. Bu sənəd də qanunvericilik orqanlarımız arasında əlaqələrin daha da genişləndirilməsinə stimul verir.

Özbəkistan həm də azad olunmuş ərazilərin bərpasında

yaxından iştirak edir. Füzuli şəhərində orta məktəbin inşası bu dəstəyin nümunəsidir. Eyni zamanda, Xankəndi şəhərində yeni yüngül sənaye müəssisəsinin yaradılması özbək xalqının həm də mənəvi dəstəyinin ifadəsidir.

Yeri gəlmişkən, Azərbaycanla Özbəkistan humanitar və sosial sahələrdə əməkdaşlığın genişləndirilməsində də maraqlıdır. Keçirilən görüşlərdə əmək, məşğulluq, sosial müdafiə sahələrində gələcək əməkdaşlıq, o cümlədən aidiyyəti fəaliyyət sahələrində təcrübə mübadilələrinin davam etdirilməsi mütəmadi müzakirə olunur. Xüsusilə Azərbaycanın inklüzivliklə bağlı təcrübəsi qardaş ölkə tərəfindən maraqla qarşılanır. Özbəkistan rəsmiləri və ictimaiyyət nümayəndələri ölkəmizə səfər zamanı Azərbaycanın bu sahədəki uğurlu təcrübəsi ilə yerində tanış olublar. Həmçinin ölkələr arasında İnvestisiya fondu fəaliyyət göstərir. 2023-cü ildə onun yaradılması ilə bağlı saziş imzalanıb: 500 milyon dollar.

**Rizvan Nəbiyev.** Ötən həftə Avropa Parlamentinin Azərbaycanla bağlı qəbul etdiyi qətnamə faktların təhrifi baxımından bütün mümkün ölçüləri aşmışdır. İlk olaraq qətnamənin adında olan “Azərbaycanda beynəlxalq hüququn pozulması” formasındakı selektiv yanaşmaya diqqət yetirək. Deməli, Avropa Parlamenti qətnaməsinin preambulasında çoxsaylı beynəlxalq sənədlərə istinad etsə də, keçmiş münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrin adını belə çəkmir. Sual yaranır: Nəyə görə? Çünki BMT TŞ-nin 822, 853, 874 və 884 saylı qətnamələri Avropa Parlamentinin Azərbaycana qarşı əssasız iddialarına cavabı, həm də beynəlxalq hüquqa əsaslanan cavabı özündə ehtiva edir. Məlum qətnamələrdə Azərbaycan Respublikasının Dağlıq Qara-

bağ regionu daxil olmaqla suverenliyi və ərazi bütövlüyü təsdiq edilmiş, beynəlxalq sərhədlərin toxunulmazlığı vurğulanmışdır.

Məcburedici hüquqi qüvvəyə malik 1993-cü il qətnamələrinin tələbləri BMT Nizamnaməsinin (25-ci, 24-cü və 2.5-ci) maddələrinə uyğun olaraq, üzv dövlətlər tərəfindən qəbul edilməli və yerinə yetirilməlidir. Beynəlxalq Ədalət Məhkəməsi də 1971-ci il Namibiya Məşvərətçi Rəyində TŞ-nin qətnamələrinin, ümumilikdə, məcburedici hüquqi qüvvəyə malik olmasını təsdiq etmişdir. Eyni zamanda, BMT TŞ-nin 874 saylı qətnaməsinin 5-ci bəndi əsasında Zəngəzur dəhlizinin açılması tələb edilə bilər. Bu tələb 2020-ci ildəki Üçtərəfli Bəyanatın 9-cu maddəsi ilə üst-üstə düşür. Azərbaycan Respublikası Prezident İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri ilə BMT TŞ-nin tələblərini icra edərək beynəlxalq hüquq və beynəlxalq humanitar hüququ pozan Ermənistanın qanunsuz işğalına və təcavüzünə son qoymuşdur.

Avropa Parlamentinin digər diskriminasiyalı yanaşması hərbi əməkdaşlıq məsələlərində özünü büruzə verib. Avropa Parlamenti Avropa Sülh Fondunun, Avropa İttifaqının və bəzi üzv dövlətlərin Ermənistan silahlı qüvvələrinin dəstəklənməsinə yönəlmiş fəaliyyətini alqışlayır. Digər üzv dövlətlərdən də oxşar dəstək göstərməyi tələb edir. Azərbaycana münasibətdə isə Avropa Parlamenti hətta ölkənin hərbi və təhlükəsizlik qabiliyyətinin möhkəmlənməsinə töhfə verə biləcək bütün texniki və maliyyə yardımının dayandırılmasını tələb edir.

Avropa Parlamentindəki debatlarla eyni gündə Fransa Senatının Xarici İşlər və Müdafiə Komitəsindəki müzaki-

rələrdə isə Azərbaycan Fransaya qarşı “aqressiv müdaxilələr” və “düşmən hərəkətlər” törətməkdə ittiham edilmişdir. Acı reallıq isə odur ki, çıxış edən Fransanın xarici işlər nazirinin Ermənistanın silahlandırılması ilə bağlı fikirləri Avropa Parlamentinin qətnaməsinin dili ilə üst-üstə düşür.

Nazir etiraf etmişdir ki, Fransa Avropa müstəvisində Avropa sülh mexanizminin Ermənistana münasibətdə tətbiq edilməsinə nail olub. Reallıqda isə Fransanın dəstəyi ilə Ermənistanla bağlı Avropa müstəvisində “silahlandırma təşəbbüsü” işə salınmışdır. Nəticədə Ermənistan 3 il əvvəlki hərbi büdcə ilə müqayisədə hərbi xərclərini üç dəfə artıraraq 2025-ci ildə 1,71 milyard dollara çatdıracaqdır.

“Aqressiv müdaxilə”nin nəticəsi budur. Bu “düşmən hərəkət” təkcə Azərbaycana deyil, eyni zamanda, fransalı nazirin təbirincə desək, “dəstəklərini azaltmaq istəmədikləri Ermənistan və erməni xalqı”na da qarşı yönəlmişdir.

**Sadiq Qurbanov.** Bu gün çox vacib bir sənədi, Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqliklə bağlı müqaviləni burada təsdiq edirik. Bu müttəfiqlik müqaviləsinin bağlanması türk dünyasının birgə fəaliyyəti üçün böyük töhfədir. Müttəfiqlik artıq ikitərəfli münasibətlərin ən yüksək formasıdır. Türk xalqları arasında belə müqavilələrin bağlanması türk dövlətlərinin ümumi, birgə fəaliyyətində hərəkətverci stimul olacaq. Müttəfiqlik müqaviləsində yaşıl iqtisadiyyat, logistika, neft və qaz sənayesi və sair sahələrin əksini tapması, parlament diplomatiyası, parlamentlərarası dostluq qruplarının intensiv fəaliyyətinin nəzərdə tutulması çox mühüm hadisədir.

Özbəkistan və Azərbaycan xalqları eyni soy-kökə, ortaq dəyərlərə malikdirlər. Hələ Sovet dönəmində Azərbay-

can və özbək xalqları pambıqçılığın inkişafı ilə bağlı bir-birləri ilə ciddi əlaqələr qurmuş, türk dünyasının iki böyük şəxsiyyəti – Heydər Əliyev və Şərəf Rəşidov kimi siyasi xadimlərin səyləri nəticəsində qardaşlıq münasibətləri daha da yüksək səviyyəyə qalxmışdır. Özbək xalqının böyük mütəfəkkiri, filosof-şair Nizami Gəncəvi ədəbi məktəbinin davmçısı Əlişir Nəvainin, həmçinin əslən Azərbaycan türkü olan böyük ədəbiyyat xadimi Maqsud Şeyxzadənin özbək ədəbiyyatının inkişafında müstəsna xidmətləri danılmazdır. Əlişir Nəvai və Maqsud Şeyxzadə hər iki xalqın ortaq dəyərləridir. Göründüyü kimi, ortaq mədəni əlaqələrin tarixi əsrlər öncəsinə gedir. Oxşar dil, oxşar mədəniyyət bu iki xalqı həmişə qardaşlıq münasibətlərinin qorunmasına gətirib çıxarmışdır.

Uğurlu siyasi varis İlham Əliyevin və Özbəkistanın Prezidenti Şavkat Mirziyoyevin fəaliyyəti nəticəsində münasibətlər artıq müttəfiqlik səviyyəsinə qalxmışdır. 2023-cü il avqustun 23-də Özbəkistan Prezidenti Şavkat Mirzoyevin təşəbüsü ilə Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin istifadəyə verilməsi, məktəbin təntənəli açılışı dostluq, qardaşlıq tellərinin bir-birinə nə qədər dərin köklərlə bağlı olduğunu göstərir. Bu, artıq əməli birlikdir. Böyük Turan ideoloqu İsmayıl bəy Qaspralı işdə, əməldə birlik dediyi formulu Azərbaycan–Özbəkistan xalqlarının dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərində görürük.

**Tahir Mirkişili.** Mən də həmkarlarım kimi Avropa Parlamentinin bu qərəzli, beynəlxalq hüquq normalarına zidd, birtərəfli qətnaməsini pisləyir və qətiyyətlə rədd edirəm.

2020-ci il noyabr Zəferindən sonra regionda yeni real-

lıq yarandı. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. İşğala son qoyuldu. BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirildi. O tarixdən başlayaraq Avropa Parlamenti sanki Azərbaycana qarşı müharibə elan edib. Hər qəbul etdiyi qətnamədə, müzakirə etdiyi məsələlərdə açıq anti-Azərbaycan mövqeyi tutan Avropa Parlamenti bu xətti davam etdirir. Azərbaycanın haqqına, beynəlxalq hüquq normalarına, məhkəmə sisteminə, qanunlarına hörmət etməyən bu qurum həm də Azərbaycan xalqına hörmət etmir.

Avropa Parlamentinin son qəbul etdiyi qətnamə bir daha göstərdi ki, bu qurumun deputatlarının ölkəmizə düşmənçiliyinin uzun tarixi vardır. Qətnamədə hələ 2013-cü ildə keçirilən Avroviziya yarışının belə xatırlanması o deməkdir ki, illər keçsə də, onlar bir an belə Azərbaycanın uğurlarını qəbul edə bilmirlər, öz qarayaxma sənədlərində də bu uğurlardan əks təbliğat kimi istifadə edirlər.

Bu qətnamə bir mühüm həqiqəti də üzə çıxardı. Qətnamədə sadalanan qərəzli məsələlər ilə bağlı həm bizim deputatların, həm də diplomatlarımızın dəfələrcə şərhləri, izahları olub. Dəfələrcə onlarla bu barədə görüşlər keçirilib, izahlar verilib. Amma bu qətnamə onu göstərir ki, Avropa Parlamenti bizim istənilən izahımızı və şərhimizi qəbul etmir və ya etmək istərmir, yalnız Azərbaycana qarşı fəaliyyət göstərən erməni lobbisinə bağlı QHT-lərə, yalanlara və iftiralara inanır. Yaxud da özlərini inanmış göstərərək ölkəmizə qarşı təzyiq edir.

Hesab edirəm ki, bu cür sənədlərə ən yaxşı cavabı zaman vermişdir. Prezident cənab İlham Əliyevin müstəqil, milli maraqlara söykənən və cəsarətli siyasəti nəticəsində Azərbaycan öz istəklərinə addım-addım nail olur, ölkəmiz

inkişaf edir, güclənir, dost və müttəfiqlərimizin sayı artır, nüfuzumuz daha da güclənir. Bu cür mənasız, yalan və iftiralarla dolu, qeyri-ciddi qətnamələrin tarixdə heç bir rolu olmayıb və olmayacaqdır. Dəfələrcə təkrarlanan yalan heç vaxt həqiqət ola bilmir. Azərbaycan xalqının və dövlətinin öz ləyaqətli yolu var, bu yol uğrunda biz minlərcə şəhid qurban vermişik. Hər kəs bilsin ki, inandığımız hədəflərə doğru seçdiyimiz rəhbərlə qətiyyətlə gedəcəyik!

**Ülviyyə Həmzəyeva.** Biz bilirik ki, Azərbaycan xalqının tarixi, taleyi bütün unikallığına və orijinallığına baxmayaraq, bir çox cəhətlərinə görə özbək xalqının tarixi və taleyi ilə oxşardır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qeyd etdiyi kimi: “Azərbaycan və özbək xalqları arasında münasibətlər qədim tarixə malikdir, xalqlarımız bütün dövrlərdə dost olub, bir-birinə dayaq olub, mədəni dəyərləri birgə inkişaf etdirib”. Azərbaycan xalqının qədim mədəniyyətinin, elmi fikrinin mənşəyi onun tarixinə dərin kök salmaqla yanaşı, qohum xalqların mənəvi həyatını qidalandırır”.

XI əsrin ortalarında Azərbaycan və Özbəkistan Şərqin ən mühüm elmi fikir mərkəzlərindən biri idi. Azərbaycanın Şamaxı, Təbriz, Ərdəbil, Marağa, Gəncə, Naxçıvan şəhərlərində, Özbəkistanın Buxara, Urgənç, Səmərqənd, Xocənt və başqa şəhərlərində “Hikmət evləri”, kitabxanalar, rəsədxanalar yaranmışdır. Bu proses ikitərəfli xarakter daşıyır və ona görə də Azərbaycan və özbək xalqları arasında mədəni əlaqələrin öyrənilməsi və təbliği iki müstəqil dövlətin tarixinin müasir mərhələsində bu əlaqələrin inkişafı və möhkəmlənməsi üçün zəmin yaradırdı. Təbii ki, möhtəşəm şərq memarlığının elementlərinin öyrənilməsini də qeyd etmək mühümdür. Müstəqillik əldə etdik-

dən sonra Azərbaycan və özbək xalqları arasında münasibətlərin tarixi formalarına yenidən nəzər salmaq mümkün oldu. Belə ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev qardaş Özbəkistanla əlaqələrə həmişə xüsusi önəm vermiş, hətta Sovet dövründə də qardaş türkdilli ölkələrə xüsusi maraq göstərmişdir.

Ulu Öndərin davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın türk dövlətləri ilə, o cümlədən Özbəkistanla tarixi dostluq və əməkdaşlıq əlaqələri uğurla davam etdirilir. İki qardaş ölkə – Azərbaycan və Özbəkistan arasında əlaqələr yüksək səviyyəyə çatıb. 2004-cü ilin martında Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri zamanı dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin açılışı oldu.

Azərbaycanda isə özbək ədəbiyyatının böyük klassiki, şair və mütəfəkkiri Əlişir Nəvainin yaradıcılığı xüsusi maraq doğurur. 2007-ci ilin may ayında Ə.Nəvainin "Mizanül-Əvzan" əsərinin dilimizə tərcüməsi Azərbaycana təqdim edilib, 2008-ci ilin sentyabrında isə Bakıda böyük özbək şairinin abidəsi açılıb. Azərbaycan paytaxtının mərkəzi küçələrindən birinə görkəmli alim və dövlət xadimi Mirzo Uluqbekin adı verilib.

Prezident İlham Əliyevin Özbəkistan Respublikasına dövlət səfərləri ilə getməsi, Daşkəndin mərkəzində Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr edilmiş meydanın yaradılması Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevə hörmətin, həm də xalqlarımızın qardaşlığının və dostluğunun təzahürü idi.

Özbəkistan ölkəmizin ərazi bütövlüyünün bərpası işində də Azərbaycanı hər zaman dəstəkləyib. Azərbaycan xalqı ən ağır dövrdə özbək xalqının qardaşlıq dəstəyini

hiss edibdir. Bu bizim üçün çox qiymətlidir, bunlar bizim münasibətlərimizin tarixində unudulmaz hadisələrdir.

Azərbaycanda Özbəkistanın mədəniyyət günlərinin, həmçinin Özbəkistanda Azərbaycanın mədəniyyəti günlərinin keçirilməsi mədəniyyət körpülərinin qurulması və bu əlaqələrin daha da möhkəmlənməsi deməkdir. Bu, həm də mədəni irsin paylaşılması baxımından çox önəmlidir. Eyni zamanda, ölkəmizdə digər dövlətlərin mədəniyyət günlərinin keçirilməsi də ümumi əlaqələrin inkişafına öz böyük təsirini göstərir. Belə ki, insanlarımız, əlalxüsus isə, sənət adamlarımız bir-biri ilə yaxından əməkdaşlıq edir, dostluqlar əmələ gəlir, birlik hiss olunur. Zəngin mədəniyyətə sahib türk ölkələri öz təcrübələrini bölüşə bilirlər.

Özbəkistan öz incəsənət xadimləri, rəssamları ilə, zəngin musiqisi ilə, kinematoqrafiyasıyla tanınır. Biz qədim mədəniyyətimizi yaşadan hər amillə qarşılıqlı-faydalı fikir mübadiləsində olmalıyıq. Mədəniyyət komitəsinin üzvü olaraq təklif edirəm ki, gələcək fəaliyyətimizdə Özbəkistan parlamentinin eyni adlı komitəsi ilə sıx əlaqələr yaradaq və mədəniyyət sahəsində qarşılıqlı olaraq işlər aparaq. Bunu, təbii ki, parlamentlərimiz arasında imzalanmış memorandum çərçivəsində etmək lazımdır.

Gələcək tədbirlər çərçivəsində Azərbaycan öz mədəniyyətinin bir parçasını Özbəkistan ictimaiyyətinə təqdim edə biləcək. Buna misal olaraq ilin əvvəlində Daşkənddə keçirilən Azərbaycan mədəniyyəti günlərini yada salmaq olar. Tədbir çərçivəsində Özbəkistan Təsviri İncəsənət Qalereyasında baş tutan sərgini qeyd etmək olar.

Sərginin əsas məqsədi Azərbaycan milli irsinin zəngin tarixə və bədii ənənələrə, eləcə də bugünkü incəsənətimizin mədəni varislik prinsiplərinə əsaslanan tərəfini nüma-

yiş etdirməkdən ibarət idi. Ümumiyyətlə, burada bir çox sənət növlərini əhatə edən sənətlərin sintezi, qədim qurama, zərgərlik, misgərlik, şəbəkə, xalçaçılıq, fotoqrafiya və sair sənət nümunələri nümayiş olunmuşdur. Azərbaycan Dövlət Yuğ Teatrının kollektivi Özbəkistan Dövlət Sənət və Mədəniyyət İnstitutunun (ÖDSMİ) səhnəsində "Mənəm, mən" tamaşasını nümayiş etdirib və səhnə əsərini ÖDSMİ-nin professor-müəllim heyəti və tələbələri, qardaş ölkənin mədəniyyət, incəsənət xadimləri izləyiblər. Həmçinin Əlişir Nəvai adına Özbəkistan Dövlət Akademik Böyük Teatrında Azərbaycan Dövlət Opera və Balet Teatrının təqdimatında dahi Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasının nümayiş olunub.

Ümumiyyətlə, dövlət səviyyəsində mədəniyyət xadimlərinin Özbəkistana səfəri və mədəniyyətimizin təbliği uğrunda bu qəbildən tədbirlər çox böyük önəm daşıyır. Beləliklə, iki dost, qardaş ölkə öz əlaqələrini və dərinliklərə söykənən dostluğunu daim yeniləyir ki, bunu türk dünyasının gücünün və hər sahədə bir-birinə dəstəyinin nümayişi kimi qiymətləndirmək olar.

## MÜNDƏRİCAT


29 oktyabr 2024-cü il........................................................... 3

Edilməmiş çıxışların mətnləri............................................ 103

Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

6-cı cild

29 oktyabr 2024-cü il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 7,5. Sifariş 105. Tiraj 150.